www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26 iyul 2016-cı il Çərşənbə axşamı № 161 (6482) Qiyməti 60 qəpik

**Xəbər**

## Şamaxıda dəhşət; 3 yeniyetmə göldə balıq tutarkən boğulub öldü

yazısı səh.2-də

**Gündəm**

### Türkiyə üçün yeni çevriliş təhlükəsi; Ərdoğan müxalifət liderləri ilə görüşdü



**Şahin Cəfərli:** "Bundan sonra hər şey ölkə rəhbərliyinin atacağı addımlardan asılıdır..."

yazısı səh.7-də

### KİVDF 27 qəzetə maliyyə yardımı ayırdı

yazısı səh.2-də

### Emin Hüseynovla Xədicə İsmayılın davası böyüdü; söhbətə yeni isimlər qarışdı

yazısı səh.4-də

### Türkiyədə çevrilişə cəhddə günahlandırılan 2135 nəfər həbs olunub

yazısı səh.8-də

### Qiyamçı türk generalları Gürcüstanı necə çiçəkləndirdi...

yazısı səh.10-da

### I və IV ixtisas qrupu üzrə 22 mindən çox abituriyent 0-200 bal toplayıb

yazısı səh.15-də

### Azərbaycanın qonşu ölkələrə verdiyi kreditlər - məqsəd nədir?

yazısı səh.12-də

### Bakının ən böyük məktəblərindən biri "bomj"ların məskəninə çevrilib

yazısı səh.13-də

### Bankların əmanət problemi- durum kritikdir...

yazısı səh.6-da

### Satışda xərçəng yaradan tomat pastaları var

yazısı səh.15-də

### Bakıda iki nəfər qarpızdan zəhərlənib öldü

yazısı səh.14-də

### Ölüm hökmü lazımdırmı...

yazısı səh.10-da

## Nüfuzlu Türkiyə nəşrindən sensasion iddia

# KREML VƏ ANKARA AZƏRBAYCANLA ERMƏNİSTANI BARIŞDIRIR - MÜDHİŞ PLAN

Çavuşoğlunun Bakı səfərinin yeni pərdəarxası üzə çıxıb; Türkiyə-Rusiya münasibətlərinin sürətlə istiləşməsi Qarabağ, sərhədlərin açılması kimi ortaq mövzuları təzədən gündəmə gətirir; yeni nəbz yoxlanışı başlayıb, **ekspert:** "Ankara əlverişli bir məqamda Qarabağla bağlı hərəkətə keçəcək..."




yazısı səh.9-da

## Konstitusiya Məhkəməsi referenduma "hə" dedi

Milli Məclisin müzakirə üçün sentyabrda toplaşacağı məlum oldu; səsvermənin nə vaxt olacağını prezident müəyyən edəcək

yazısı səh.5-də



### Eldar Mahmudovun öldü-qaldısı bilinmir

yazısı səh.4-də



### Cahangir Hacıyevin məhkəməsi başlayır; o, sensasion faktlar açıqlaya bilər

yazısı səh.6-da



### Sərkisyan diqqəti "xarici düşmən"ə yönəltməyə çalışır

yazısı səh.11-də



## “FED iyulda uçot dərəcəsini artırmayacaq”

**ABŞ-da makroiqtisadi göstəricilərin artması onu göstərir k, FED (Federal Ehtiyatlar Sistemi) iqtisadi artımın perspektivlərinə güvənir. “APA-Economics” xəbər verir ki, bu barədə “Sberbank”ın analitiki Tom Levinson bildirib.**

Onun sözlərinə görə, FED ilin sonuna kimi uçot dərəcəsini artıracaq, xüsusilə də bu həftə ərzində tənzimləyici orqan uçot dərəcələrinin sentyabrda keçiriləcək iclasda artırılması ilə bağlı proqnoz verəcək. “Böyük Britaniyanın Avropa İttifaqından çıxması ilə bağlı qərarı cari ildə uçot dərəcəsinin artırılması ilə bağlı bazarın gözləntilərini yox etdi. Buna baxmayaraq, Brexit-in təsiri hələ ki məhdud şəkildədir. ABŞ-ın bir sıra güclü makroiqtisadi hesabatları bazarı uçot dərəcələrinin artırılmasına müsbət yöndə yanaşmağa vadar edib”, deyə analitik qeyd edir.

**T. Levinson** əlavə edib ki, FED-in iyunun 23-də keçirilən iclasında öz ritorikasını bir qədər yumşaltmasına səbəb ABŞ-da may ayı üçün işsizliklə bağlı açıqlanan göstəricilərin son bir neçə ildə ən aşağı səviyyədə olması və Brexit ərəfəsində gərginliyin olması idi: “Hazırda bu gözləntilər zəifləyib. İyunda ABŞ-da kənd təsərrüfatı sahəsi istisna olmaqla, məşğulluq əhəmiyyətli dərəcədə artıb. Böyük Britaniyanın Avropa İttifaqından çıxması ilə bağlı qərarı sürpriz olsa da, bazar bu zərbədən üzüağ çıxdı”.

“Düşünürük ki, FED uçot dərəcəsini ilin son rübündə qaldıracaq. Buna baxmayaraq, çərşənbə günü sentyabrda keçiriləcək görüşdə uçot dərəcəsinin artırılması ilə bağlı proqnozlar verilsə, bizim üçün bu, heç də təəccüblü olmayacaq. Əgər FED rəsmisi bildirsə ki, sentyabrda uçot dərəcəsinin artırılması məsələsinə baxıla bilər, bu zaman dollar möhkəmlənəcək. Buna baxmayaraq, biz düşünürük ki, FED-in iyulda keçirilən iclası bazarda volatilliyin güclənməsinə gətirib çıxarmayacaq”, - deyə T. Levinson qeyd edib.

## Azərbaycanda bəzi kişilər arvadları tərəfindən döyülür

**Azərbaycan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə məişət zorakılığı ilə bağlı qadınlarla yanaşı, kişilər də müraciət edir. Qurumun İnformasiya və Analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov “Report”un sorğusuna cavab olaraq bildirib ki, komitəyə və komitənin nəzdində fəaliyyət göstərən uşaq və ailələrə dəstək mərkəzlərinə 2015-ci ildə məişət zorakılığı və ailə münaqişəsi ilə bağlı 183 müraciət daxil olub:**

“2014-cü ildə isə komitəyə bu səbəbdən 126 nəfər müraciət edib. Müraciətlərin 98 faizini qadınlar edir. Şikayətlərin çox az faizi, yəni 2 faizə qədəri kişilərdən daxil olub. Kişilərin müraciəti əsasən xəyanət kimi səbəblərə görə olur. Uşaq və ailələrə dəstək mərkəzlərinə kişilər tərəfindən döyülmə faktı ilə bağlı da müraciətlər daxil olub. Kişilər tərəfindən müraciətlər çox az daxil olduğu üçün belə faktların statistikası hesablanmır”.

**Onun sözlərinə görə, son illər ərzində həm komitəyə, həm də komitənin nəzdində fəaliyyət göstərən uşaq və ailələrə dəstək mərkəzlərinə məişət zorakılığı və ailə münaqişəsi ilə bağlı daxil olan müraciətlərlə bağlı aidiyyəti qurumlarla əməkdaşlıq şəraitində müvafiq tədbirlər həyata keçirilib:** “Mərkəzlərimizin əməkdaşları mütəmadi olaraq ailələrlə, məişət zorakılığı qurbanları ilə psixoloji iş aparıb, fərdi qovluqları açıb, ailələr haqqında məlumat toplayaraq nəzarətə götürüb, aidiyyəti qurumlarla əməkdaşlıq şəraitində müvafiq tədbirlər həyata keçirib. Məişət zorakılığı hallarının azaldılması məqsədilə mütəmadi olaraq müxtəlif mövzularda ”Zorakılığa yox deyək!”, “Erkən yaşda evlilik cinayətdir!”, “Sağlam həyat naminə erkən nikaha yox deyək!”, “İnsan alverinin qurbanına çevrilməyək” və s. maarifləndirici tədbirlər, dəyirmi masalar, aksiyalar təşkil olunub və çap materialları paylanıb".

Qeyd edək ki, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nəzdində 11 Uşaq və Ailələrə Dəstək Mərkəzi fəaliyyət göstərir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

# KİVDF 27 qəzetə maliyyə yardımı ayırdı

**Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının xüsusi iclası keçirilib.**

“Report”un xəbərinə görə, Müşahidə Şurasının sədri Umud Mirzəyev iclası açıq elan edərək gündəlikdəki məsələ barədə məlumat verib.

Gündəliyə prezidentin “Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında” 2016-cı il 21 iyul tarixli sərəncamına əsasən qəzetlərə birdəfəlik maliyyə yardımının ayrılması məsələsinin müzakirəsi daxil edilib.

Fondun icraçı direktoru Vüqar Səfərli prezidentin sərəncamını ölkədə söz və məlumat azadlığının inkişaf etdirilməsi, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb və KİV-lər adından ölkə başçısına minnətdarlığını bildirib.

İcraçı direktor sərəncama əsasən birdəfəlik maliyyə yardımı ayrılacaq mətbuat orqanlarının müəyyənləşdirilməsi məsələsini Müşahidə Şurası üzvlərinin müzakirəsinə təqdim edib.

Sonra məsələ ətrafında müzakirələr başlayıb. Fondun Müşahidə Şurasının sədr müavini Vüqar Rəhimzadə, üzvlərdən - Vüqar Əliyev, Əflatun Amaşov, Bəxtiyar Sadıqov, Müşfiq Ələsgərli, Rəşad Məcid və İntiqam Hümbətov çıxış edərək ölkə başçısının sərəncamı ilə ayrılmış birdəfəlik maliyyə yardımının gündəlik ictimai-siyasi qəzetlərin üzləşdiyi problemlərin həlli baxımından xüsusi əhəmiyyətini qeyd ediblər.

Aparılmış müzakirələr nəticəsində respublikada uzun illər ərzində sabit fəaliyyət göstərərək ictimaiyyət arasında nüfuz qazanmış, yüksək tirajı və dövriyyəsi olan, Azərbaycan qanunvericiliyinə və Jurnalistlərin Peşə Davranışı Qaydalarına ardıcıl şəkildə riayət edən gündəlik ictimai-siyasi qəzetlərə birdəfəlik maliyyə yardımının ayrılması barədə qərar qəbul edilib.

Prezidentin “Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrılması haqqında” 2016-cı il 21 iyul tarixli sərəncamına əsasən maliyyə yardımı ayrılmış qəzetlərin siyahısı:

| № | Nəşrin adı | Ayrılmış məbləğ |
|---|---|---|
| 1. | "Azərbaycan" qəzeti | 40.000 AZN |
| 2. | "Bakinski raboçi" qəzeti | 40.000 AZN |
| 3. | "Bakı Xəbər" qəzeti | 40.000 AZN |
| 4. | "525-ci qəzet" | 40.000 AZN |
| 5. | "Ekspress" qəzeti | 40.000 AZN |
| 6. | "Ədalət" qəzeti | 40.000 AZN |
| 7. | "Xalq qəzeti" | 40.000 AZN |
| 8. | "İki sahil" qəzeti | 40.000 AZN |
| 9. | "Kaspi" qəzeti | 40.000 AZN |
| 10. | "Kaspiy" qəzeti | 40.000 AZN |
| 11. | "Mövqe" qəzeti | 40.000 AZN |
| 12. | "Olaylar" qəzeti | 40.000 AZN |
| 13. | "Palitra" qəzeti | 40.000 AZN |
| 14. | "Respublika" qəzeti | 40.000 AZN |
| 15. | "Səs" qəzeti | 40.000 AZN |
| 16. | "Şərq" qəzeti | 40.000 AZN |
| 17. | "Şərq qapısı" qəzeti | 40.000 AZN |
| 18. | "Yeni Azərbaycan" qəzeti | 40.000 AZN |
| 19. | "Yeni Müsavat" qəzeti | 40.000 AZN |
| 20. | "Azad Azərbaycan" qəzeti | 30.000 AZN |
| 21. | "Bizim yol" qəzeti | 30.000 AZN |
| 22. | "Exo" qəzeti | 30.000 AZN |
| 23. | "Həftə içi" qəzeti | 30.000 AZN |
| 24. | "Xalq Cəbhəsi" qəzeti | 30.000 AZN |
| 25. | "Novoye vremya" qəzeti | 30.000 AZN |
| 26. | "Paralel" qəzeti | 30.000 AZN |
| 27. | "Üç nöqtə" qəzeti | 30.000 AZN |

## Dolların məzənnəsi 1,58 manata yaxınlaşır

**Azərbaycan Mərkəzi Bankı (AMB) iyulun 26-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən “APA-Economics”ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi iyulun 26-na 1,5755 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, bu gün dollar 1,5724 manata bərabər olub.

## Qurban bayramında 4 gün iş olmayacaq

**Azərbaycanda Qurban bayramı ilə əlaqədar 4 gün qeyri-iş günü olacaq.**

Bu barədə report-un sorğusuna cavab olaraq Nazirlər Kabinetindən (NK) məlumat verilib.

Belə ki, NK-nın “2016-cı ildə Novruz, Ramazan, Qurban bayramları haqqında” qərarına əsasən, iki gün - sentyabrın 12-si və 13-ü Qurban bayramıdır. Sentyabrın 10-u və 11-i tarixləri şənbə və bazara təsadüf edir.

Beləliklə, Qurban bayramı ilə əlaqədar 4 gün qeyri-iş günü olacaq.



## Şamaxıda dəhşət; 3 yeniyetmə balıq tutarkən göldə boğulub öldü

**Şamaxı rayonunda 3 yeniyetmə oğlan göldə çimərkən boğulub. APA-nın yerli bürosunun məlumatına görə, hadisə iyulun 24-də axşam saatlarında Şamaxı şəhərinin yaxınlığındakı Şirvangöldə qeydə alınıb.**

Şamaxıda göldə boğularaq dünyasını dəyişən 3 nəfər yeniyetmə oğlanın şəxsiyyəti müəyyən edilib.

APA-nın yerli bürosunun xəbərinə görə, ölən şəxslərin adının Bəkirov Məhəbbət Məhəmməd oğlu, Axundov Qadir Rasim oğlu və Səfərov Rövşən Siyavuş oğlu olduğu məlum olub. Onların hər birinin 1999-cu il təvəllüdlü və Şamaxı rayonu Şəhriyar qəsəbə sakinləri olduğu bildirilir.

Hadisənin ilkin təfərrüatları məlum olub. Şahidlərin sözlərinə görə, balıq tutarkən yeniyetmələrdən birinin ayağı sürüşərək suya yıxılıb. Yoldaşları onu xilas etməyə cəhd edib və üzməyi bacarmadıqları səbəbindən suda boğularaq ölüblər.

**“Qaya Mətbuat Yayımı” MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.



## Rəsədxana: «İyulun 29-30-da geomaqnit həyəcanlanması gözlənilir»

**İyulun 24-də Yerdə geomaqnit həyəcanlanmaları qeydə alınıb. Azərbaycan Milli Elmlər Akademiyasının N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini Elçin Babayev APA-ya bildirib ki, buna iyulun 23-də Günəşdə baş verən alışmadan sonra tac plazma kütlələrinin klaster şəklində atılması səbəb olub.**

E. Babayevin sözlərinə görə, bu plazma buludları birbaşa Yerə doğru yönəlməsə də, yaratdığı effektlər dolayısı yolla Yerin maqnit sahəsinə təsir edib. O qeyd edib ki, nəticədə maksimumu 5 olan şkala üzrə G-1 sinfinə mənsub geomaqnit həyəcanlanması baş verib: “Maksimumu 9 qradasiya üzrə geomaqnit Kp indeksi dünən 5 rəqəminə çatıb. Bu böyük rəqəm deyil, lakin kiçik də sayılmaz: ”Hər halda, geomaqnit həyəcanlanması yaranıb. Hazırda Günəş səthində sakitlik hökm sürür və cəmi 16 Günəş ləkəsi var. Bunlar da bir Günəş fəallığı qrupunda birləşib. Sonradan indeks bir qədər də enib və hazırda 3 ətrafındadır. Bu o deməkdir ki, həyəcanlanma getdikcə zəifləməkdədir".

E.Babayev vurğulayıb ki, bu dəfə qeydə alınan geomaqnit qasırğası kommunikasiya və naviqasiya, yüksək tezlikli elektromaqnit siqnallarına manea yaradıb. Maksimumu 5 olan şkala üzrə R-1 radiosönmə “qasırğası” da müşahidə edilib. Bu da radiosiqnalların qısa müddətli “donma”sına, onlarda hansısa qısamüddətli fluktuasiyalara *(həyəcanlanmalara)* səbəb olub.

Direktor müavini əlavə edib ki, hazırda Günəş səthində orta ölçülərə malik tac dəliyi müşahidə olunur. Tac dəliyindən adətən yüksək sürətli qaynar plazma küləyinin “əsdiyini” deyən E.Babayev vurğulayıb ki, yüklü zərrəciklər seli Yerətrafı fəzaya çatanda əlavə həyəcanlaşma və hətta geomaqnit qasırğası yaradır: “Bu dəfə tac dəliyindən olan mənfi təsirlər iyulun 29-30-da gözlənilir. Günəşin səthində alışmaların olma ehtimalı isə çox aşağıdır. Çünki Günəş səthində ləkələrin sayı həddən artıq azdır”.

**ANS Müstəqil Yayım və Media Şirkətinin fəaliyyətinin dayandırılması və bu istiqamətdə davam edən proseslər hər gün dəyişir. Son olaraq şirkətin Milli Televiziya və Radio Şurasının (MTRŞ) «ANS Müstəqil Yayım və Media» Şirkətinin fəaliyyətinə xitam verilməsi (lisenziyanın ləğvi) barədə məhkəmə iddiasına baxılacaq tarix açıqlanıb.**

# ANS-in taleyi iyulun 29-da həll ediləcək

## Mais Məmmədov "proseslərdən xəbərsizəm, rəsmi məzuniyyətdəyəm" deyir

«Report»un Bakı Apelyasiya Məhkəməsinə istinadən yaydığı xəbərə görə, bu iddia üzrə hazırlıq iclası iyulun 29-na təyin edilib.

İşə hakim Ülvi Mayılovun sədrliyi ilə baxılacağı bildirilir.

MTRŞ iyulun 18-də «ANS Müstəqil Yayım və Media» Şirkətinin yayımının 1 ay müddətinə dayandırılması haqda qərar verib.

Qurum bu qərarı Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına görə lisenziyasını alıb.

Daha sonra MTRŞ «ANS Müstəqil Yayım və Media» Şirkətinə televiziya yayımından ötrü verilmiş lisenziyanın ləğvi məsələsi ilə bağlı Bakı Apelyasiya Məhkəməsinə müraciət edib.

**"Yeni Müsavat"a açıqlamasında ANS prezidentinin köməkçisi Mais Məmmədov bildirdi ki, hazırda rəsmi məzuniyyətdədir. Ona görə də ANS-də baş verən proseslərdən və ümumən proseslərdən xəbərsizdir:** "Bilmirəm, heç nə ilə bağlı məlumatlı deyiləm.



Məzuniyyətim bitsin, sonra danışarıq".

**Milli Teleradio Şurasının sədri Nuşirəvan Məhərrəmli isə daha öncə publika.az-a açıqlamasında deyib ki, artıq Milli Televiziya və Radio Şurası ANS şirkəti ilə bağlı lazım olan bütün sənədləri məhkəməyə təqdim edib:** "Biz ANS televiziya kanalı və şirkətə daxil olan digər strukturlarla bağlı fikrimizi dəfələrlə bildirmişik. Artıq Milli Televiziya və Radio Şurası ANS şirkəti ilə bağlı lazım olan bütün sənədləri, həmçinin ittiham ərizəsini məhkəməyə təqdim edib. Hazırda bu istiqamətdə məhkəmə iş aparır. İnanıram ki, məhkəmə də bu istiqamətdə araşdırma aparıb, hüquqi qiymət verəcək. Biz, sadəcə olaraq, öz səlahiyyətlərimiz çərçivəsində üzərimizə düşən işi görmüşük". **N.Məhərrəmli ANS radiosunun yayımının dayandırılmasının səbəblərinə də toxunub:** "ANS radiosunun bağlanılması tam qanuna uyğun addımdır. Bilirsiniz ki, mövcud qanunvericiliyə görə, hər hansı televiziya və ya radio qurumunun bir il ərzində 3-dən çox məsuliyyət tədbiri varsa, onun bağlanılması ilə bağlı Milli Televiziya və Radio Şurasının hüquq və səlahiyyətləri vardır. Ona görə də biz öz hüququmuzdan istifadə edərək, ANS radiosunun yayımını dayandırmışıq. Onu da qeyd edim ki, ANS-in 161 min manata qədər cəriməsi var. Çox təəssüf ki, bu cərimə hələ də ödənilməyib. Bu cərimə ödənilən halda belə ANS radiosunun yayımı bərpa olunmayacaq. Artıq biz bu hüquqdan istifadə etmişik. Cərimə isə əlavədir".

Xatırladaq ki, 18 iyul 2016-cı il saat 18:30-dan etibarən Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının qəbul etdiyi qərara əsasən "ANS Müstəqil Yayım və Media" Şirkətinin, həmçinin telekanalla birlikdə "ANS ÇM" radiosunun fəaliyyəti dayandırılıb. Buna səbəb ANS-in ABŞ-dakı əməkdaşının Türkiyədə hakimiyyət çevrilişinə rəhbərlik etmkədə şübhəli bilinən Fətulla Güləndən müsahibə alaraq, həmin müsahibəni yerli və xarici KİV-lər vasitəsilə anons etdirməsi olub.

❑ **Sevinc TELMANQIZI**

# Məsələ yenə də müharibəyə doğru gedir?



**Hüseynbala SƏLİMOV**

**Həmsədr ölkələrin diplomatlarının tonunda daha əvvəlki qətiyyət və nikbinlik sezilmir. Əgər çox qısa bir müddət bundan əvvəl ciddi-cəhdlə prezidentlərin görüşü üçün yeni ünvan aranırdısa, indi diplomatlar bir az tərəddüd və bir azacıq da açıq inamsızlıqla onların avqust ayında görüşə biləcəklərini deyirlər...**

Çox böyük ehtimalla demək olar ki, Ermənistan həmsədrləri, xüsusən də öz müttəfiqi olan Rusiyanı ciddi şəkildə düşünməyə vadar etdi...

Bəli, kiçik bir silahlı qrupun polis binasını ələ keçirməsindən ibarət olan olaya qarşı həddən artıq ehtiyatlı və ləng münasibət hamıda belə fikir yaratdı ki, deyəsən, S.Sarkisyan "oyun"dan çıxmaq istəyir...

"Oyun"dan çıxmaq məsələsini isə iki aspektdə başa düşmək lazımdır - bir minimum, bir də maksimum planda... Amma əvvəlcə bir detalı qeyd edək ki, Rusiya həqiqətən də Ermənistana təzyiq edir. Bu təzyiq isə Serj cənablarını indicə dediyimiz iki plana əl atmağa təhrik edir...

Birincisi, adi bir olaya "diqqətsiz" münasibət, qəsdən onun dərhal çözülməməsi və hətta bunun azacıq siyasi etirazlara da transformasiya olunub ictimai çalarlar almasına göz yummaq onunla bağlı ola bilər ki, Ermənistan prezidenti Rusiyanı fakt qarşısında qoymaq, "Baxın, məndən asılı deyil, cəmiyyət etiraz edir!" - demək istəyir. Bu, "oyun"dan çıxmağın minimum planıdır...

İkincisi, Ermənistan siyasətçiləri kritik anlarda "top"u biri-birilərinə ötürə bilirlər. Hətta ola bilər, lap kritik vəziyyət yaranarsa S.Sarkisyan estafeti "Dağlıq Qarabağ siyasi klanı"nın növbəti iddiaçısına ötürmək fikrinə düşsün...

Düzdür, bütün bunların hansının baş verəcəyini bilmək üçün hələ bir müddət gözləmək lazım gələcək. Amma hiss olunan budur ki, Rusiya yenə "Serjin vəziyyətini anlamağa" meyllənir. İşin tərsliyindən də indi qızmar yaydır və belə aylarda hətta diplomatlar da dincəlməyi sevirlər.

Ona görə də prosesə bir tərəfdən Ermənistandakı olayların qatdığı lənglik, o biri tərəfdən də isti yayın da öz "töhfə"si adamı lap dilxor edir, çünki bütün bu siyasi - diplomatik vurnuxmaların nəticələrini tez bilmək istəyirik.

Fəqət, lap əvvəlcədən bizim diqqətimizi cəlb edən bu idi ki, Bakıda böyük nikbinliklə "şifahi razılaşma" haqda bəyanatlar veriləndə Yerevan da, Moskva da bunu qəti şəkildə inkar etdi.

Təbii ki, məntiqli oxucu dərhal deyə bilər ki, onlar bunu bəlkə elə bu gün üçün edirdilər?

Ola bilər... Amma başqa detal da var. Çox tez bir zamanda prezidentlər yenə də kəskin ritorikaya müraciət etdilər...

Hətta ilk baxışdan da belə göründü ki, onların sərgilədiyi mövqelər heç də diplomatların iddia etdiyi kimi yaxın görünmür. Biri yenə də mərhələli həll, o birisi isə lap əvvəllər olduğu kimi, paket variantında israr edir və "Qarabağ xalqının öz müqəddəratını təyin etmək hüququ"nun tanınmasını israr edir...

Bu günlərdə isə S.Sarkisyan bir daha bəyan etdi ki, rəsmi Bakı "müqəddərat məsələsi"ni tanımasa, Azərbaycanla müharibəyə hazır olmaq lazım gələcək. Bəli, çox qısa müddət bundan öncə S.Lavrov "Uğura həmişə olduğundan daha yaxınıq!" demidi. Gəl ki, bu gün bir daha məlum olur ki, deyilənlər çox nikbin tonda olub, reallıq isə tamam başqadır...

Bəs bütün bunlar nə deməkdir? Növbəti müharibə təhlükəsimi? Bəli, bir o qədər də ürəkaçan məsələ deyil...

Sankt-Peterburq görüşü ərəfəsində ruslar demişdi ki, onların əsas məqsədi müharibənin alovlanmasına imkan verməməkdir. Bu mənada Rusiya hələki tərəflərin vuruşmasını istəmir, çünki bu, onu seçim qarşısında qoyur. Amma Rusiya da öz oyununu oynamağa başlaya bilər.

Təsəvvür edin, tərəfləri bir növ cəzalandırmaq üçün Rusiya bir müddət prosesə göz yumur. Və savaş başlayır...

Təbii ki, bu savaşdan tərəflərdən biri və yaxud da hər ikisi zəifləmiş şəkildə çıxır. Belə bir halda da Rusiya peyda olur - özünün sülh və barışıq planı, həm də sülhməramlı kontingenti ilə...

Deyək ki, belə ssenari adi diplomatik məntiqlə də fantaziya kimi görünmür. Tərəflər heç bir halda barışığa və sülhə gəlmək istəmirlərsə, onda onları vuruşdurmaq olar ki, ağılları başlarına gəlsin. Həm də bütün sülh sazişləri müharibə nəticəsində imzalanmasa da, bütün müharibələrin sonu sülhlə bitir: bir daha deyirik ki, tərəflərin hər ikisinin və yaxud da ki, birinin ağlı başına gəlir. "Status-kvo" da dəyişir, reallıqlar da...

Bəli, belə ssenari özünəməxsus sülhə məcburetmə tədbiri olardı. Amma realdırmı? Doğrusu, bilmirik. Hər şey ondan asılı olacaq ki, Rusiyanın özünü hansı variant qane edəcək? Əgər onu indiki vəziyyət qane edirsə, bu halda, hər şey olduğu kimi qalacaq və danışıqlar yenə də dalana dirənəcək.

Yox, əgər Rusiya özünün yeni planını qəbul etdirməkdə israrlı və qətiyyətlidirsə, ən başlıcası isə, özünün bölgədəki "ri-şə"lərini daha da dərinlərə yeritməyə çalışırsa, onda hər şey ola bilər, o cümlədən də, elə müharibə də...

# Nardaran hadisələrindən 8 ay ötür

## Həbs edilənlər 23 maddə ilə mühakimə olunurlar

**Nardaran hadisələrindən 8 ay ötür. Ötən il noyabrın 26-da Nardaranda polislə dindarlar arasında baş verən silahlı qarşıdurmada 2-si polis əməkdaşı olmaqla, 6 nəfər dünyasını dəyişdi. "Nardaran hadisələri" olaraq yaddaşlara yazılan bu olayların davamında kənd sakinləri etiraz əlaməti olaraq yolları bağladılar. Barrikadalar quran Nardaran sakinləri giriş-çıxışa nəzarət etməyə başladılar. Bu hal 5 gün davam etdi.**

2015-ci il dekabrın 1-də səhər saatlarından başlayaraq Daxili Qoşunlar və polis Nardaranda əməliyyatlara başladı. Keçirilən əməliyyat zamanı 70-dən çox şəxs saxlanıldı. Onların barəsində müxtəlif cəzalar seçildi. 15-20 sutqalıq həbs cəzası alan əksər Nardaran sakini azadlığa buraxıldı. Noyabrın 26-da keçirilən əməliyyat zamanı həbs edilənlər isə hazırda həbsdədir və Bakı Ağır Cinayətlər Məhkəməsində onların məhkəmə prosesi davam etdirilir. Həbs edilən "Müsəlman birliyi" Hərəkatının sədri Taleh Bağırzadə və hərəkatın 16 üzvünə qarşı Cinayət Məcəlləsinin 120.2.1-ci (qəsdən adam öldürmə, bir



qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən adam öldürmə), 28,214.2.3-cü (terrorçuğa hazırlıq, odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə), 214-2-ci (terrorçuluğa açıq çağırışlar) maddələri də daxil olmaqla ümumilikdə 23 maddəsi ilə ittiham irəli sürülüb.

Nardaran hadisələrindən sonra həbs edilənlərdən biri - AXCP sədrinin müavini Fuad Qəhrəmanlı da hərəkat üzvləri ilə birlikdə hakim qarşısına çıxarılır. O, Cinayət Məcəlləsinin 220.2-ci (hakimiyyət nümayəndəsinin qanuni tələblərinə fəal şəkildə tabe olmamağa və kütləvi iğtişaşlara, habelə vətəndaşlara qarşı zorakılıq etməyə çağırışlar etmə), 281.2-ci (dövlət əleyhinə yönələn açıq çağırışlar, eyni əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) və 283.2.1-ci (dini, irqi, sosial nifrət aşılayan çağırışlar etmə) maddələri ilə ittiham olunur.

Bu günə qədər keçirilən iki məhkəmə prosesində çıxış edən Taleh Bağırzadə ona qarşı irəli sürülən ittihamlarla razılaşmadığını, özünün və digər saxlanılan şəxslərin günahsız olduğunu deyib.

Təqsirləndirilən Taleh Bağırzadə Fuad Qəhrəmanlının günahsız olduğunu, onun azadlığa buraxılmasını istəməklə yanaşı ona qarşı irəli sürülən ittihamların istinad edildiyi "Hacı Taleh Bağırzadənin müraciəti" adlı kitabçanın cinayət işi materiallarından çıxarılmasını istəyir.

Taleh Bağırzadə həmin kitabçanı özünün yazmadığı iddia edir. O deyir ki, adıçəkilən kitabça o həbs edildikdən sonra çap edilib. T.Bağırzadənin sonuncu məhkəmə prosesində dediklərindən sitat: **"İstintaq bizə 23 maddə ilə ittiham verib və bunların da hamısı o ktabçanın üzərində qurulub. Bütün tutulan adamların evindən o kitabçanı guya çaxarıblar. Həmin kitabça 26 noyabrdan sonra hazırlanıb. Bu da istintaqın quramasıdır. Kitabça bütün bu işin taleyini həll eləyir".**

İyulun 22-də keçirilən sonuncu hazırlıq iclasından sonra iş məhkəmə baxışına göndərilib. Növbəti məhkəmə prosesi avqustun 3-də keçiriləcək.

❑ **İ.MURADOV**

Yeni Müsavat
N 161 (6482) 26 iyul 2016

**İddialara görə, əlində 2800-dən çox seks videosu olan sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun öldü-qaldısı haqda rəsmi xəbər yoxdur. Ötən ilin oktyabrın 17-də vəzifəsindən çıxarılandan sonra E.Mahmudovun telefonları əlindən alınaraq nəzarət altında Badamdardakı imarətinə aparıldığı, orada saxlanıldığı xəbəri yayılmışdı. Sonrakı məlumatlarda E.Mahmudovun Bilgəhdəki bağ evində ciddi nəzarət altında saxlanıldığı bildirilirdi. Bununla belə, bu gün sabiq nazirin konkret olaraq harada olması məlum deyil.**



# Eldar Mahmudovun generalları istintaqla əməkdaşlıq edir

## Öldü-qaldısı bilinməyən Mahmudov özü haradadır?

Onun adına “MTN işi” üzrə həbsə alınan 10-a yaxın xüsusi xidmət generalının adlarının sırasında rast gəlinmir. Ona görə də E.Mahmudovun istintaqdan kənarda qalmağı bacardığı haqda xəbərlər də dolaşmaqdadır. Belə xəbərlər də var idi ki, E.Mahmudov əlindəki 2800 seks videosu, şantaj materiallarından dolayı özünü istintaqçıların sorğu-suallarından yayındıra bilir. Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin həbsdən yayına bilən iki yüksək rütbəli vəzifə daşıyıcısı - Eldar Mahmudov yaxın kadrlar olan Hilal Əsədov və qurumun istintaq idarəsinin rəisi Mövlam Şıxəliyev də azadlıqdadırlar.

Bu 2 şəxs vaxtilə DİN sistemində, E.Mahmudovun rəhbərliyi altında çalışıblar. 2004-cü ildə E.Mahmudov nazir təyin edildəndən sonra hər iki şəxsi MTN-ə işə götürüb, yüksək vəzifələr verib. Bu baxımdan sabiq nazirə yaxın 2 kadrın azadlıqda qalmaları suallar yaradıb.

Gələn məlumatların təhlili belə nəticə çıxarmağa əsas verir ki, Hilal Əsədov istintaq tərəfi ilə əməkdaşlıq yolunu tutub və məsuliyyətdən kənar qala bilir. Onun dolayısı ilə sabiq nazirin əleyhinə ifadələr verməsi azadlıqda qalmasını təmin edib.

“MTN işi” başladılandan sonra belə məlumatlar da vardı ki, Hilal Əsədov Eldar Mahmudov vəzifəsindən azad olunmazdan təxminən 3 ay öncə qarşı tərəflə - MTN-dəki qəfil əməliyyatı hazırlayan qrupla əməkdaşlığa başlayıb. Bu “gedişi” onu həbsdən kənarda qoyub.

H.Əsədovun adı ölkə rəhbərliyinə daxil olan şəxslərin qanunsuz dinlənilməsində hallanır. Ümumiyyətlə isə MTN-də dinləmələrə göstəriş vermək səlahiyyəti olan 2 şəxsdən biri də məhz H.Əsədov olub.

E.Mahmudov özünün xüsusi blankında dinləmələr üçün qurumun Monitorinq Xidmətinə göstəriş verə bildiyi kimi H.Əsədov da tutduğu vəzifəyə görə belə səlahiyyət sahibi olub. MTN yüksək rütbəlilərinin şəxsi maraqlarına uyğun qeyri-rəsmi dinləmələrə göstəriş verməleri haqda kifayət qədər ciddi məlumatlar da var. İddialar var ki, H.Əsədov Eldar Mahmudovun qanunsuz dinləmələrlə bağlı qeyri-rəsmi göstərişlərini icraçılara çatdırıb, qanunsuz yolla əldə edilmiş informasiyaları da sonradan sabiq nazirə ötürüb.

Hazırda qanunsuz dinləmələrlə bağlı MTN-in Monitorinq Mərkəzinin rəisi, general-mayor Teymur Quliyev həbsdədir. H.Əsədov kimi T.Quliyev də E.Mahmudovun DİN sistemindən xüsusi xidmət orqanlarına transfer etdiyi kadrdır. “MTN işi” başlandıqdan dərhal sonra həbsə alınan T.Quliyev 1970-ci ildə Bakıda anadan olub. Xalq Təsərrüfatı İnstitutunu (indiki İqtisad Universiteti) bitirib. Teymur Quliyev daha sonra DİN sistemində çalışıb. DİN-in İqtisadi Cinayətkarlığa Qarşı Mübarizə İdarəsində gələcək MTN rəhbəri Eldar Mahmudovun bilavasitə rəhbərliyi altında işləyib. Eldar Mahmudov milli təhlükəsizlik naziri təyin olunandan sonra T.Quliyevin də iş yeri dəyişib. O, MTN-də təchizat şöbəsinin rəisi postuna gətirilib. Tezliklə daha yüksək posta - MTN-in Monitorinq Mərkəzinin rəisi vəzifəsinə təyinat alıb. 2012-ci ildə ona general-mayor hərbi rütbəsi verilib. Qanunsuz dinləmələr ittihamı ilə üz-üzə qalaraq müstəntiqlərin suallarını cavablandırmalı olan T.Quliyevin ifadələri E.Mahmudov və H.Əsədovun gələcək talelərini müəyyən etmək çəkidədir. İstintaqçılar T.Quliyevdən qanunsuz dinləmələrlə bağlı ifadə ala bilsələr, həmin ifadələr onun təbeçiliyində olduğu Hilal Əsədov və Eldar Mahmudovu “içəri” aparmaq gücündədir.

T.Quliyevin böyük bir məsuliyyətin altına girərək ölkə rəhbərliyini özbaşına dinləməsini söyləməsi də real görünmür. Bu xüsusda H.Əsədovun azadlıqda qalmasını diqqət mərkəzinə alsaq, belə nəticəyə gəlmək olar ki, qanunsuz dinləmələrlə bağlı Eldar Mahmudova uzanan zənciri istintaqçılar ortaya qoya biliblər. Başqa sözlə, Teymur Quliyevdən Hilal Əsədovun qeyri-rəsmi göstərişləri əsasında dinləmələrin baş tutmasını təsdiqləyən ifadə alıblar. Həmin ifadəni H.Əsədov da təsdiqləyib və ona da göstərişin Eldar Mahmudov tərəfindən verilməsini istintaqçılara deyə və bunun müqabilində həbsdən yaxa qurtara bilərdi.

Mümkündür ki, “MTN işi” məhkəməyə göndəriləndən sonra orada H.Əsədov və Eldar Mahmudovun üzləşdirilməsi, sonradan həbsləri baş tutsun. MTN-in İstintaq İdarəsinin sabiq rəisinin hazırda azadlıqda olmasının səbəbi haqda da ən müxtəlif məlumatlar var. Sahibkarlara qan uddurulmasında adı qırmızı xətlə keçən M.Şıxəliyevin həbs edilməməsinin arxasında onun hakimiyyətdə təmsil olunan yüksək vəzifəli şəxslərdən biri ilə qohumluq əlaqələri göstərilir. Qeyd edilir ki, M.Şıxəliyev də H.Əsədov kimi “MTN işi” başlanan ilk gündən istintaqla əməkdaşlıq yolunu tutub. Onun ifadələri əsasında E.Mahmudovun bir çox gizlinləri aşkar olub.

Bu arada Hilal Əsədovun 14 saylı uşaq poliklinikasının baş həkimi işləyən həyat yoldaşı Nüşabə Əsədovanın tutduğu vəzifədən kənarlaşdırılması da diqqət çəkir. “MTN işi” başlayandan sonra ərizə yazaraq öz hesabına uzunmüddətli məzuniyyətə gedən Nüşabə Əsədova məzuniyyətdən geri qayıtmamaq qərarı verib.

Belə görünür ki, N.Əsədovanın geri qaytarılması üçün lazım olan, Əsədovların gözlədiyi durum yaranmayıb. Vəziyyət Əsədovların hesablamalarında diqqətə aldıqları kimi olmayıb. Odur ki, N.Əsədova daha bir ərizə yazıb illərlə çalışdığı vəzifə ilə vidalaşmaq məcburiyyətində qalıb.

❑ **E.HÜSEYNOV**

# Emin Hüseynovla Xədicə İsmayılın davası böyüdü; söhbətə yeni isimlər qarışdı

## Üzeyir Məmmədli: “Onun kimi oğruları müdafiə etməyin”

**Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun (RATİ) sədri Emin Hüseynovla jurnalist Xədicə İsmayıl arasında ötən həftədən başlayan və hələ də virtual aləmdə davam edən mübahisənin detalları barədə yazmışdıq. Aradan keçən günlər ərzində mübahisə böyüyüb, ona yeni simalar qoşulub və “rəngi dəyişib”. Musavat.com xəbər verir ki, E.Hüseynov mübahisənin yeni təfərrüatları barədə bunları yazıb: “Həzərat, bir daha salam. 40 gün keçmədi ki, digər müdafiə etdiyim şəxs, sabiq siyasi məhbus, BDU-nun hüquqşünas diplomunun sahibi, eşitdiyimə görə, bu gün də hüquqşünas kimi fəaliyyət göstərməyə başlayan və çalışan Üzeyir Məmmədli diskussiyanı açmağımdan bir gün sonra öz facebook səhifəsində yazır: ”Emin Hüseynovun statusunu və şərhləri oxudum. Belə yerdə atalar məsəli yada düşür: oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı. Bir də şərhlərdə çox hörmət etdiyim insanlar tərəfindən belə şeyləri facebookda yazmayın, ikiniz də dəyərlisiz tipli şərhlər yazılıb. Dostlar, xahiş edirəm, Emin Hüseynov kimi oğruları müdafiə etməyin. Emin Hüseynovla bağlı məsələ bir çox insanlar tərəfindən bilinirdi, sadəcə, heç kim ictimai şəkildə bu barədə yazmırdı. İndi özü bu məsələni ictimailəşdirməklə hamıya mövqe qoymaq üçün imkan yaradıb".**

### Emin Hüseynov: “Yazının altından dediyin sözü əsaslandıracaq sübut yaz”


Emin Hüseynov


Xədicə İsmayıl


Üzeyir Məmmədli

E.Hüseynov Ü.Məmmədlinin bu statusunu paylaşandan sonra ona sualla müraciət edib: “Deyirsən ki, mən oğruyam və bunu bir çox insanların bildiyini yazırsan. Əgər sən bir çox bildiyin insanları - İzolda Ağayevanı, Aytən Fərhadovanı və ya Aynur Elgünəşi bilirsənsə, özün də onlar kimi şər-böhtançısan. Başqa adamlar da varsa, get onlardan yenidən soruş və yazının altından dediyin sözü əsaslandıracaq sübut yaz. Üzümə böhtan atan üç nəfər adını çəkdiyim xanım jurnalistdən sənin fərqin odur ki, sən hüquqşünassan. Amma yazdığın uydurma böhtandan görünür ki, sən girdirmə hüquqşünassan. Çünki əsl hüquqşünas başqasının günahını sübuta yetirməmiş onu cinayətkar adlandırmaz. Sən isə nəinki sənə və səninlə birlikdə tutulmuş NİDA-çılara göstərdiyim dəstəyi xaincəsinə unutdun. Sən yersiz-yersiz kiməsə yaltaqlanmaq üçün mənə şər-böhtan atdın”.

**E.Hüseynov xatırladıb ki, Ü.Məmmədlini həbs olunmazdan əvvəl də var gücü ilə müdafiə edib. Deyib ki, əgər nə vaxtsa başına belə haqsızlıq gəlsə, yenə müdafiə edəcək:** “Tutulmamışdan əvvəl son günlərdən birini də yadına salım. Bütün qapılar üzünüzə bağlananda gecə yarı gəldiz mənim ofisimə. Mətbuata brifinq keçirmək üçün yer verdim sizə. Başqa yerlərə getmişdiniz. O cümlədən aparıcı müxalifət partiyalarının ofislərində də qapılar üzünüzə bağlı oldu. Heç kəs sizə məndən başqa yaxın durmadı. Ola bilsin unudubsan bunu. Amma mən sənin kimi qısa yaddaşlı adamların bu cür məsələləri yadına salacam ehtiyac göldikdə. Sən və sənin kimi özlərindən və dünyadan küsən adamlar artıq məni təəccübləndirmir. Mən bu naşükürlükləri son on ildə çox görməsəm də, amma görmüşəm. O zaman da, bu gün də işimi açıqcasına davam edirəm”.

**“Yeni Müsavat” xatırladır ki, tərəflər arasında mübahisənin yaranmasına səbəb X.İsmayılın E.Hüseynovla bağlı bəzi iradlarıdır. Xanım jurnalist bu barədə mübahisənin gedişində E.Hüseynova müraciətlə aşağıdakıları yazıb:** “Xaricdə oturub, burda əziyyət çəkənlərin hesabına pul qazanmaq istəyinə yardımçı olmaq istəmirəm. Xüsusilə də bu qazancı əldə etmək üçün bütün təşkilatlara yerli hüquq müdafiəçiləri, ölkədə qalıb, əziyyətlərə qatlaşanlar haqqında böhtan donosları yazmağından sonra. Sizin orda nə davanız var, bilmirəm, amma o davanın insan haqları ilə heç bir əlaqəsi yoxdur. Bundan artıq deyib, özümün də, camaatın da ürəyini bulandırmaq istəmirəm. Sənə dedim, məni rahat burax. Nə qədər ki, ölkədəydin, əziyyətlərə qatlaşırdın, sənin bütün əyər-əskiyinə dözürdük. İndi daha nə qədər çalışsan da dissidentə oxşamırsan. Zənglərinə cavab verməyəndə bir şeyi yaddan çıxarmışdım. Onu da indi edim, səhifəni blok edim ki, daha belə postlarla məni narahat etməyəsən”.

❑ **SEVİNC**

YENİ MÜSAVAT
N 161 (6482) 26 iyul 2016

**Konstitusiya Məhkəməsi Plenumunun iyulun 25-də keçirilən iclasında prezident İlham Əliyev tərəfindən konstitusiyaya təklif edilən dəyişikliklərin Azərbaycan Konstitusiyasının tələblərinə uyğunluğu barədə əsaslandırılmış rəy verilib.**

# Konstitusiya Məhkəməsi referenduma "hə" dedi

## Milli Məclisin müzakirə üçün sentyabrda toplaşacağı məlum oldu; səsvermənin nə vaxt olacağını prezident müəyyən edəcək




Rəyi elan edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev bildirib ki, təklif edilən dəyişikliklər Azərbaycan Konstitusiyasının müddəalarına zidd deyil və ümumxalq səsverməsinə çıxarıla bilər.

Qeyd edək ki, iyulun 18-də Konstitusiya Məhkəməsinə göndərilən Referendum Aktı layihəsində Azərbaycanda birinci vitse-prezident və vitse-prezident postlarının yaradılması, prezidentin səlahiyyət müddətinin 5 ildən 7 ilə artırılması, prezidentə Milli Məclisi buraxmaq və növbədənkənar prezident seçkilərinin elan edilməsi səlahiyyətinin verilməsi, prezident seçkilərində yaş məhdudiyyətinin aradan qaldırılması, parlament seçkilərində iştirak üçün yaş həddinin 25-dən 18-nə endirilməsi nəzərdə tutulur.

**Azərbaycan prezidentinin nümayəndəsi, Prezident Administrasiyasının (PA) Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri Şahin Əliyev layihə ilə bağlı çıxışı zamanı bildirib ki, Avstriya və Finlandiyada prezidentlərin səlahiyyət müddəti 7, Rusiyada isə 6 ildir. Ş.Əliyev həmçinin bildirib ki, Azərbaycan Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsindən 7 il vaxt ötüb:** "Bu 7 il ərzində Azərbaycanın yeni inkişaf tələblərinə uyğun olaraq Azərbaycan prezidenti tərəfindən "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Referendum Aktının layihəsi Konstitusiya Məhkəməsinə göndərilib. 9-cu maddənin I hissəsinin aşağıdakı redaksiyada verilməsi təklif olunur. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir. Təklif edilir ki, digər silahlı birləşmələrin, yəni Dövlət Sərhəd Xidməti, Daxili Qoşunların hərbi əməliyyatlar zamanı qərargah rəislərinin birləşmiş komitəsi yaradılacaq və bu silahlı birləşmələr birbaşa Ali Baş Komandana tabe olacaqlar".

Bunu APA-ya açıqlamasında Azərbaycan Milli Məclisinin sədrinin 1-ci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov deyib. Onun sözlərinə görə, Konstitusiya Məhkəməsinin rəy verdiyi Konstitusiya Aktı layihəsi ilə bağlı referendumun tarixini təyin etmək prezidentin səlahiyyətindədir. Referendum Aktında da göstərilib ki, referendumun tarixi prezidentin səlahiyyətinə aid olan məsələdir. Məlum olub ki, parlament Referendum Aktını sentyabrda müzakirə edəcək.

**Bir sıra müxalifət partiyaları isə sözügedən konstitusiya dəyişikliyinin əleyhinədir. Müsavat Partiyasının başqanı Arif Hacılı Konstitusiya Məhkəməsinin müsbət rəy verəcəyinin əvvəldən gözlənilən olduğunu bildirdi:** "Ona görə gözlənilən idi ki, Azərbaycanda müstəqil məhkəmə sistemi yoxdur və real hakimiyyət bölgüsü aparılmayıb. Konstitusiya Məhkəməsi tamamilə icra hakimiyyəti strukturundan asılı vəziyyətdə olan bir qurumdur. Bununla belə, biz Konstitusiya Məhkəməsinə müraciət etmişdik. Müraciətimizin də əsas səbəbi o idi ki, Konstitusiya Məhkəməsi üzvlərinin və sədrinin diqqətinə sərəncamda göstərilən müddəaların Konstitusiya Məhkəməsi tərəfindən müzakirəyə çıxarılmasının və müsbət rəy verilməsinin qeyri-mümkünlüyünü çatdıraq. Çünki Azərbaycan Konstitusiyasına görə konstitusiyaya əlavələr yalnız parlament vasitəsilə referendum müzakirəsinə çıxarıla bilər və bu, iki oxunuşdan keçməlidir. Birinci oxunuşdan keçdikdən 6 ay sonra bu məsələ ikinci oxunuşa çıxarıla bilər. Görünür Azərbaycan hakimiyyəti çox tələsir və ona görə də bu prosedurdan yan keçərək layihədə konstitusiyaya əlavələr nəzərdə tutulsa da, yalnız dəyişikliklər sözünü sərəncamın başlığına yazmaqla bu məsələni ictimaiyyətdən gizlətməyə çalışmışlar. Biz də bunu ictimaiyyətin diqqətinə çatdırdıq.

Vitse-prezidentlik institutları dünyanın müxtəlif ölkələrində mövcuddur. Məsələn, ABŞ-da vitse-prezident institutu var və ABŞ-dakı vitse-prezidentlər ölkənin prezidentləri kimi ölkənin bütün ərazisində səsvermə yolu ilə seçilir. Yalnız bu yolla həmin şəxslər prezident öz səlahiyyətlərini icra edə bilmədikdə prezidentin səlahiyyətlərini icra etmək hüququ alırlar. Prezident səlahiyyəti xüsusilə Azərbaycanda çox yüksək bir səlahiyyətdir. Bu səlahiyyəti hər kəsə yalnız xalq verə bilər. Xalq tərəfindən seçilmiş prezidentin də hətta xalqın iradəsi ilə seçilməli olan vəzifənin səlahiyyətlərini başqa birisinə vermək hüququ olmamalıdır".

**Onu da qeyd edək ki, müxalifətdə olan Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn "Yeni Müsavat"a ötən həftə verdiyi müsahibədə Əbülfəz Elçibəy hakimiyyəti zamanında vitse-prezident vəzifəsinin təsis edilməsi məsələsinin gündəmə gəldiyini bildirib:** "Azərbaycanda vitse-prezidentlər institutunun tətbiqi məsələsi hələ 1992-93-cü illərdə müzakirə olunurdu. O vaxt hazırlanan konstitusiya layihələrinin birində məhz vitse-prezidentlərin vəzifə kimi yaradılması təklif olunmuşdu. Lakin bizim layihədə bu, Nazirlər Kabinetinin bir institut kimi ləğvi ilə yaradılırdı. Konsepsiya ondan ibarət idi ki, ABŞ tipli prezident idarə üsuluna keçilsin. Vaxtilə bu məsələlər barədə mətbuatda xəbərlər gedib. Nazirlər Kabinetinin ləğvi məsələsi onunla əsaslandırılırdı ki, sovet dövründən və müstəqilliyin ilk illərindən qalmış qavrayışlar icra hakimiyyəti sistemində paralellik kimi başa düşülür və ziddiyyətlərə səbəb olurdu. Sonradan müzakirələrin gedişində prezidentin bu barədə Heydər Əliyev və Turqut Özalın rəyini nəzərə alması ona səbəb oldu ki, həmin layihələr bir müddət kənara qoyuldu. Heç şübhəsiz ki, indiki siyasi kontekst bu istiqamətə yeni mənalar gətirib. Müxalifətin də narahatlıqları tam əsassız deyil".

**Bəs maraqlıdır, 23 il öncə vitse-prezident vəzifəsinin yaradılmasının tərəfdarı olan indiki müxalifət bu gün nədən belə bir addıma qarşı çıxır?**

**Müsavat başqanı Arif Hacılı qeyd etdi ki, Elçibəy hakimiyyəti zamanı müxtəlif layihələr, o cümlədən vitse-prezidentlik məsələsi də müzakirə olunub:** "Söhbət bir yox, bir neçə vitse-prezidentin təyin olunmasından gedirdi. Vitse-prezident əslində faktiki olaraq prezidentin müavini, yardımçısı deməkdir. Həmin dövrdə, məsələn, dövlət katibi prezidentin birinci müavini, dövlət müşavirləri prezidentin müavinləri funksiyalarını həyata keçirirdilər. Sadəcə, bu adların dəyişdirilib birinci vitse-prezident, vitse-prezident kimi adlandırılması nəzərdə tutulurdu. Həmin adamların prezidenti əvəz eləmək, onun səlahiyyətlərini icra eləmək kimi səlahiyyətlərinin olması nəzərdə tutulmurdu. Ancaq indi referenduma çıxarılan məsələdə tamam başqa bir səlahiyyətli vitse-prezident, yəni xalqın iradəsi ilə seçilməli olan prezident səlahiyyətlərinin yalnız bir nəfər tərəfindən başqa birisinə verilməsi hüququ tanınır. Bu, ümumiyyətlə, demokratiyanın hərfinə və ruhuna zidd olan bir dəyişiklikdir. Bu dəyişiklik Elçibəy hakimiyyəti dövründə nəzərdə tutulan vitse-prezident səlahiyyətlərindən mahiyyət etibarilə tamamilə fərqli bir məsələdir. Bu iki məsələni bir-birinə qarışdırmaq olmaz".

**Elçibəy hakimiyyətinin vitse-prezident vəzifələri yaratmasının nə üçün reallaşmadığına gəlincə, A.Hacılı vurğuladı ki, o zaman bu, hakimiyyət üçün bir nömrəli məsələ olmayıb:** "Belə bir təkliflər verilib və müəyyən ilkin müzakirələr aparılıb. Ancaq bir nömrəli məsələ kimi qarşıya qoyulmayıb".

❑ **Etibar SEYİDAĞA**

---

# Hegemonun yanlışı



**Xalid KAZIMLI**

**15 iyul çevriliş cəhdinin arxasında ABŞ-ın durması iddiaları var. Bu xüsusda hər ağızdan bir avaz gəlir. ABŞ-ın əzəli rəqiblərinin əlinə yaxşı arqument keçib.**

Tərs kimi, bu məsələdə hər şey dünya hegemonunun əleyhinədir:

1. Hərbi çevrilişin təşəbbüsçüsü kimi adıçəkilən şəxs - Fətullah Gülən ABŞ-ın Pensilvaniya ştatında xüsusi qorunan malikanədə yaşayır və şəxsən ABŞ tərəfindən himayə olunur.

2. Hərbi çevrilişdə iştirak edən generallar ABŞ-ın liderlik etdiyi NATO-nun güclü bir ölkəsinin generallarıdır.

3. Hərbi çevrilişə NATO-nun Türkiyədəki bazası İncirlikdən də müdaxilə edilib.

4. ABŞ siyasiləri Fətullah Gülənin ekstradisiyası məsələsində ikibaşlı çıxışlar ediblər.

5. Türkiyədə dövlət çevrilişindən əvvəl və sonra ABŞ-ın aparıcı siyasi xadimləri prezident Ərdoğanın siyasətindən məmnun olmadıqlarını dilə gətiriblər.

6. ABŞ-ın xarici siyasətinin daimi dəstəkçiləri olan Avropa ölkələri (İngiltərə, Belçika, Almaniya) bir sıra qərarlarında Türkiyəyə qarşı olduqlarını, xüsusilə də prezident Ərdoğanın hakimiyyətdə kənarlaşdırılmasının tərəfdarı olduğunu gizlətməyiblər.

Bütün bunları nəzərə aldıqda belə çıxır ki, prezident Ərdoğanın, eləcə də AKP hakimiyyətinin süqut etməsində ən maraqlı xarici qüvvə ABŞ-dır və ondan başqa heç kəs hərbi çevrilişə dəstək verə bilməzdi.

Hərbi çevrilişə qatılan general və polkovniklərin dini lider Fətullah Gülənlə əlaqələri üzə çıxdıqdan sonra ortaya bir kəskin sual da çıxır: bəs gecə-gündüz ABŞ rəsmiləri MKİ-nin total nəzarəti altında olan bir liderin müvafiq fəaliyyətindən necə xəbərdar olmaya bilərdi?

Eyni zamanda ABŞ kimi yüz ildən bəridir dünyanı, üçüncü dünya ölkələrini idarə edən, lazım gələndə hakimiyyətləri asanca dəyişə bilən bir dünya nəhənginin əlinin altında bu qədər geniş qiyamçı hərbçilər kontingenti, ziyalılar ordusu, tərəfdarlar kütləsi ola-ola öz niyyətini həyata keçirə bilməməsi də suallar doğurur.

Hərçənd hər şey ola bilər, həmişə uğurlu olmaq mümkün deyil.

Sadəcə, artıq uzun illər idi ki, ABŞ başqa ölkələrdə hərbi çevrilişlər, siyasi sui-qəsdlər təşkil etmək praktikasına son qoymuş kimi görünürdü və əsasən bir despotun uzun illik hakimiyyətindən cana doymuş xalqlar ayağa qalxıb inqilab edəndə onlara siyasi, bəzən də maddi dəstək verirdi.

Bu baxımdan, onun Türkiyə kimi böyük, qüdrətli bir ölkədə bu sayaq avantüraya qol qoyması o qədər də ağlabatan görünmür. Ancaq bu da qəti hökm deyil. Hər gün böyük sarayların qalın qapılı kabinetlərində çox liderlərin taleyi müzakirə və həll olunur.

Bəs ABŞ Güləni ekstradisiya edə bilərmi? Rusiya olsaydı, əminliklə demək olardı ki, o, öz adamını tələb edən dövlətə verməyəcək. ABŞ isə verər. Çünki ABŞ-ın praktikasında uzun illər ona, onun maraqlarına xidmət edən prezidentləri son anda müdafiə etməmək, yeri gələndə satmaq halları çox olub. İran şahı Rza Pəhləvinin başına gələnlər bunun bariz nümunəsidir. Bu yaxınlarda məlum oldu ki, devrilməndən sonra nə ABŞ, nə də İngiltərə şaha yiyə durmaq istəməyiblər.

Elə 3-4 il öncə Misir prezidenti Hüsnü Mübarək devriləndə də ABŞ artıq gözdən düşmüş liderə - öz sadiq adamına qahmar çıxmadı, sakitcə dayanıb devrilməsini gözlədi, daha sonra onun yerinə gələn Mursinin hakimiyyətdən uzaqlaşdırılması prosesinə xeyir-dua verdi.

Hər halda, iflasla bitmiş çevriliş cəhdindən sonra Türkiyə və ABŞ rəhbərliyi arasında soyuq küləklər əsir. Hiss olunur ki, tərəflər tam olaraq açılışmaq da istəmir, daha çox eyhamlarla danışır, yumşaq şəkildə səslənmiş ittihamlara yumşaq cavablar verməyə çalışırlar. Hücumçu tərəf isə Ərdoğan hakimiyyətidir. Nazirlər ard-arda açıqlamalar verirlər, Obama administrasiyasının hərbi çevrilişindən öncədən xəbəri olduğuna inandıqlarını bildirirlər.

İndi Britaniya mediası yazır ki, bu çevrilişdən sonra Ərdoğan Rusiyanın tərəfinə keçə bilər.

Artıq deyəsən, elə bir proses getməkdədir. Çünki Avropa və ABŞ-a görə öz qədim qonşusuyla, ən ümdəsi müxtəlif növ mallarının böyük alıcısıyla, turistik donoruyla düşmən olan Türkiyə ard-arda həm Avropadan, həm də ABŞ-dan zərbələr yedi.

Bu yerdə istənilən dövlətin rəhbərliyi oturub düşünərdi ki, özünü saymazyana aparan, zaman-zaman dirsək göstərən dostdansa, xeyir gördüyü qonşuyla münasibətləri normallaşdırmaq daha doğru olmazmı.

Bu baxımdan, Qərb siyasətinin çox böyük səhv buraxdığı ortadadır.

YENİ MÜSAVAT
N 161 (6482) 26 iyul 2016



# Cahangir Hacıyevin məhkəməsi başlayır

## Sabiq bankir ciddi müqavimət göstərir; prosesdə yeni sensasion faktların açıqlanacağı gözlənilir

**"Beynəlxalq Bank işi" üzrə həbs edilən şəxslərin cinayət işi üzrə məhkəmənin vaxtı açıqlanıb. Proses avqustun 15-də Bakı Ağır Cinayətlər Məhkəməsində, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçiriləcək. Müttəhimlər kürsüsünə "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevlə yanaşı digər 7 nəfər çıxarılacaq. Bu şəxslər Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə ittiham edilir.**

Bir müddət əvvəl C.Hacıyevə qarşı digər ittihamlarla yanaşı qanunsuz silah gəzdirmə ittihamının olması bəlli olub. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov məsələyə aydınlıq gətirərək bildirib ki, iş üzrə CM-in 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələrinin "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sabiq sədri Cahangir Hacıyevə qətiyyən aidiyyəti yoxdur.

"Cinayət işinin istintaqı yekunlaşaraq, təqsirləndirilən şəxslər, onların müdafiəçiləri iş materialları ilə tanış edilmiş və iş üzrə ittiham aktı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən iyulun 19-da təsdiq edilərək, baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Sözügedən maddələr Cahangir Hacıyevlə birlikdə mühakimə edilənlərdən hansınasa aiddir. Lakin istintaq həmin məsələ ilə bağlı adları məhkəməyədək açıqlamağı lazım bilməyib"- deyə xidmət rəhbəri bildirmişdi.

Cahangir Hacıyev həbs olunduğu gündən ona elan edilmiş ittihamları rədd edir. Onun vəkili Aqil Layıcov, bacısı Əminə Hacıyeva ara-sıra mətbuata açıqlamalarında çox ciddi faktlar sadalayırlar. Bir müddət əvvəl C.Hacıyevin bacısı Ə.Hacıyeva ölkə rəhbərliyinə müraciət edərək "Beynəlxalq Bank"dan ayrılan kreditlərin hesabına inşa edilən ölkə əhəmiyyətli zavod, fabrik, istehsal müəssisələrinin adlarını sadalamışdı. Ə.Hacıyeva bildirmişdi ki, hazırda zavodlar yeni rəhbərliyin naşı davranışına görə iş potensialını və işgüzar əlaqələrini itirməkdədir. Bu da həmçinin zavod və müəssisələrin rentabelliyinin, həmçinin dəyərinin azalmasına səbəb olmaqdadır. Həmin müəssisələr Maliyyə Nazirliyinin nəzarəti altında dəyər-dəyməzə satılmaq üçün bazara təklif edilir. Onu da qeyd edək ki, mətbuatda Cahangir Hacıyevin Mərkəzi Bankın rəhbəri Elman Rüstəmov və maliyyə naziri Samir Şərifovla üzləşdirilməsini tələb ediyi haqda da məlumatlar olub. Həmin məlumatlara görə, Cahangir Hacıyev istintaqa vəsatətlə müraciət edib ki, onun Elman Rüstəmov və Samir Şərifovla üzləşdirsinlər Cahangir Hacıyevin mövqeyi belədir ki, o, Beynəlxalq Bankdan kreditləri təkbaşına verməyib. Bu fikri onun vəkili Aqil Layıcov da bir neçə dəfə dilə gətirib. Vəkilin sözlərindən belə anlaşılıb ki, əgər çoxmilyonluq kreditlər qanunsuz verilibsə, nəzarət edən qurumların rəhbərləri kimi bu iki şəxs də məsuliyyət daşıyırlar.

A.Layıcov həmçinin diqqətə çatırıb ki, C.Hacıyev iş üzrə ehtimal edilən zərərin ödənilməsi üçün özünə və ailə üzvlərinə məxsus Beynəlxalq Bankın 184 milyon manatlıq səhmini təhvil verib. Amma bundan sonra da C.Hacıyevi azad etməyiblər. Üstəlik, həmin səhmlərin bu gün harada, kimdə olması da bilinmir.

C.Hacıyev "içəri"dən, ailə üzvləri isə azadlıqda olaraq dəfələrlə ölkə gündəmini silkələyən açıqlamalar veriblər. Bu isə sabiq bankirin ittihamlarla razılaşmadığı, sona qədər müqavimət göstərəcəyi anlamına gəlir. C.Hacıyev və digərlərinin məhkəməsində daha ciddi faktların açıqlanacağı da gözlənilir.

❑ E.HÜSEYNOV

**Ölkədə yenidən bank bağlanması prosesinin başlanması bank sistemi ilə bağlı narahatlıqları bir qədər də artırır. Dörd bankın bağlanmasının son olmayacağını bildirən ekspertlər bir çox bankların durumunun kritik olduğunu vurğulayırlar. Bildirilir ki, tezliklə daha bir neçə bankın bağlanması gözlənilir. Həmçinin bağlanan banklardakı əmanətlərlə bağlı vətəndaşların ciddi problem yaşayacağı da vurğulanır.**

# Bankların əmanət problemi-durum kritikdir...

## Ekspertlər əmanətçiləri xəbərdar edirlər, daha bir neçə bank bağlana bilər...









**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, əmanətçilər ciddi problem yaşayacaqlar: "Əmanətlərin Sığortalanması Fondu bağlanan banklardakı əmanətləri qaytarmaq üçün Mərkəzi Bankdan kredit götürəcək. Əmanətlər bu kredit hesabına qaytarılacaq. Mərkəzi Bankın onsuz da vəsaiti gündən-günə azalır. Amma burada başqa söhbət var. Banklarda, xüsusən də "Parabank"da sığortalanmamış əmanətlərin məbləği çoxdur. Çünki "Parabank" çox yüksək faizlərlə əmanət cəlb edirdi. Orada əmanətlərin sığortası yoxdur, həmin pullar batdı. Həmçinin sahibkarların həmin banklarda, xüsusən "Zaminbank" və "Parabankda" pulları batdı".

**Ekspertin sözlərinə görə, Maliyyə Bazarlarına Nəzarət Palatası bankları bağlayarkən sığortalanmamış əmanətlərin çox olduğu bankları nəzərə alıb:** "Əslində may ayının əvvəlində palatanın rəhbəri Rüfət Aslanlı vətəndaşları sakitləşdirdi ki, yaxınlarda banklar bağlanmayacaq. Martın 1-də "Əmanətlərin sığortalanması haqqında" Qanun qüvvəyə mindi. Hesab edirdik ki, qanundan sonra artıq bankları bağlamaq sərf etməyəcək. Palata isə banklardakı durumu araşdırandan sonra bu addımı atdı. Bu, o deməkdir ki, MB o bankları hələ o zaman bağlamalı idi, güzəşt etdi". Ə.Həsənov qeyd edib ki, ilin sonuna qədər azı beş-altı bankın bağlanması gözlənilir.

**Ekspert Natiq Cəfərli isə əmanətçilərin atacağı addımlarla bağlı musavat.com-a deyib ki, sığortalanmış əmanətləri Əmanətlərin Sığortalanması Fondu qaytarmalıdır. Sığorta düşməyən əmanətlər də var:** "Uzunmüddətli, 30 min manatdan yuxarı məbləğdə də 12 faizdən yuxarı əmanətlər sığortalanmayıb. Burada problem olacaq. Ancaq məhkəmə yolu vətəndaş əmanətini bankdan və bankın qəyyumundan istəmək haqqına sahibdir. Vətəndaşlar vaxtında Əmanətlərin Sığortalanması Fonduna müraciət etməlidir, fonddan aldığı cavab əsasında öz addımlarını atmalıdır".

**Ekspert Samir Əliyev isə qeyd edib ki, hökumətin əmanətlərə 3 il müddətində tam zəmanət verməsindən sonra bankların bağlanmasına 3 illik moratorium qoyulacağı ilə bağlı gözləntilər özünü doğrultmadı:** "Bu gözləntilərə rəğmən, palata özünün ilk və sərt qərarını verdi. Azərbaycanın bank sektorunda indiyədək bir gündə 4 bankın lisenziyasının alınması təcrübəsinə rast gəlinməyib. İlin əvvəlində Mərkəzi Bank bankları bağlamağa başlayanda ehtimal edilirdi ki, əmanətlərin tam sığortalanması haqqında qanun qüvvəyə minməsi ilə proses başa çatacaq. Həmin dövrdə hətta bəzi banklar nəticəsi qabaqcadan məlum olan birləşmə oyununu ortaya atıb vaxt qazanmağa müvəffəq oldular. Sonrakı dövrlərdə birləşmə ideyası əhəmiyyətini itirərək gündəmdən çıxdı. Son bağlanma dalğasında lisensiyası alınmış banklardan biri- "Zaminbank"ın ilin əvvəlində bağlanması nəzərdə tutulurdu. Ancaq bağlanma prosesi müvəqqəti donduruldu və həllini tapmamış bir sıra problemlər, o cümlədən bankların devalvasiya nəticəsində yaranmış kapital itkiləri kimi problemlər yeni yaradılmış palatanın öhdəsində buraxıldı. Ona görə də Mərkəzi Bankla müqayisədə palatanın qərarlarının daha sərt olacağı gözlənilirdi".

**Ekspertin sözlərinə görə, artıq ölkədə fəaliyyətdə olan bankların dörddə biri lisenziyasız qalıb:** "Devalvasiyalardan sonra bankların valyuta mövqeləri pozuldu, aktivləri pisləşdi, beynəlxalq reytinqləri aşağı düşdü, kreditləşmələri məhdudlaşdı, əmanətləri dollarlaşdı. Bütün bunlar ona gətirib çıxartdı ki, bankların gəlirləri kəskin azaldı, problemli kreditlərin atması nəticəsində bankların əhali və xarici qurumlar qarşısında öhdəliklərinin yerinə yetirməsi ilə bağlı çətinliklər ortaya çıxartdı. Bütün bunlar ölkənin maliyyə sabitliyini təhlükə altına qoyur".

**S.Əliyev qeyd edib ki, palata bankları bağlayanda əsas kimi bir sıra səbəbləri əsas götürüb:** "Aktivlərin qanunvericiliklə tələb olunan qaydada təsnifləşdirilməməsi, mümkün zərərlər üzrə adekvat ehtiyatlar yaradılmaması, məcmu kapitalın minimum məbləği tələbinə əməl edilməməsi, təhrif edilmiş hesabatların təqdim edilməsi, bütövlükdə cari fəaliyyətlərin etibarlı və prudensial qaydada idarə olunmaması, nəzarət orqanının verdiyi yazılı göstərişlərin yerinə yetirilməməsi. Göründüyü kimi, səbəblər kifayət qədər çoxdur. Hətta qanunvericiliyə görə, bu səbəblərin biri onların bağlanması üçün əsasdır. Bəs sual olunur: Oxşar vəziyyət digər banklarda, o cümlədən Beynəlxalq Bank və Bank Standartda da mövcud olub və niyə onlara münasibətdə analoji addım atılmadı? Axı təkcə Beynəlxalq Banka verilən yardımın həcmi ilə yerdə qalan bütün bankları xilas etmək olardı. Çünki ölkənin ən böyük bankının arxasında dövlətin durması, eyni zamanda sistem əhəmiyyətli olması onun immuniteti idi. "Bank Standart"ı isə cəlb etdiyi depozitlərin həcmi qorudu. O, ikinci ən böyük depozit payına malik bankdır. Ancaq bağlanan bankların heç biri üçün nə sistem əhəmiyyətlidir, nə də bazarda ciddi paya malikdir. Onların arxasında heç böyük güclər də durmur.Palatanın vəziyyətini anlamaq olar. Bank sisteminin çətin dövründə bazara girib. Palatanın yaradılması qərarı doğru olsa da zaman uğursuz seçilmişdi. Palata maliyyə sistemində sabitliyi təmin etmək üçün bir qədər sərt addımlar atmağa məcburdur. Sistemə təhlükə törədən, düzgün idarəetmə qurmayan, məsuliyyətsiz əmanət cəlb edən, eyni zamanda məsuliyyətsiz kreditləşmə həyata keçirən bankların bazardan getməsi labüddür. Ona görə palatanın bu addımını düzgün saymaq olar. Ancaq problem başqadır. Bütün proseslər, o cümlədən qərarlar qapalı şəkildə verilir. Əvvəla, palatanın bu gün verdiyi qərarların hüquqi qüvvəsi sual altındadır. İkincisi, əsaslandırmalar çox ümumi şəkildə təqdim edilir və qeyd etdiyimiz kimi, oxşar səbəbləri digər banklara da şamil etmək olar. Halbuki sistem əhəmiyyətli bankları çıxmaq şərti ilə həmin əsaslarla bağlanmalı olan digər banklar da var. Prosesin şəffaf aparılmaması çoxlu suallar yaradır və arxasız bankların ilk öncə sıradan çıxarılması fikrini qüvvətləndirir".

**S.Əliyevin sözlərinə görə, yaxın dövrdə bank sektorunu yaxşı heç nə gözləmir:** "Yaxın dövrlərdə daha 3-4 bankın "qara kağız" almaq ehtimalı var. Depozit portfelinin kiçikliyi bankların bağlanmasını asanlaşdıran meyarlardan biridir. Bankların sağlamlaşdırılması və bağlanması prosesi şəffaf aparılmadığından qərarların subyektiv şəkildə verilməkdə davam edəcəyini deməyə əsas verir. Hər bir halda bankların maliyyə problemlərinin aradan qaldırılması, sağlamlaşdırılması onları bağlanmaq təhlükəsindən xilas etməyəcək. Manat getdikcə mövqelərini itirir və proses zəif olsa belə davam edəcək. Dollar kreditlərinin qaytarılması problemi banklar üçün işə düşməsi yavaşıdılan mina rolunu oynamaqda davam edir. Real sektor zəif inkişaf etdiyindən və getdikcə də kiçildiyindən bankların fəaliyyəti məhdudlaşdır. Bankların kapitallaşması onları bir müddət qorusa da gələcəkdə iflasdan xilas edə bilməyəcək. Ona görə də palatanın addımını heç də bankların tələbləri yerinə yetirə bilməməsinin səbəbi kimi göstərmək olmaz. Qərarlar daha çox strateji xarakter daşıyır. Yəni bankların getdikcə sayının azaldılması prioritet olaraq qalacaq. Ona görə də banklar təcili birləşməyə qərar verməlidir. Qarşıda Azərbaycan iqtisadiyyatını çətin günlər gözləyir".

❑ Röya RƏFİYEVA

**Dövlət çevrilişinə cəhddən sonra Türkiyədə işdən çıxarılan dövlət qulluqçularının sayı 45 min 954 nəfərə çatıb. Bu barədə Anadolu Agentliyi məlumat verib. Türkiyənin və dünyanın ən iri aviaşirkətlərindən olan "Turkish Airlines" iyulun 15-də ölkədə baş verən uğursuz dövlət çevrilişi cəhdindən sonra yüzdən çox əməkdaşını işdən çıxarıb.**

Türkiyənin Diyarbəkir vilayətində isə 37 jandarm zabiti həbs edilib. "Report"un məlumatına görə, jandarm zabitləri 16 iyulda baş vermiş dövlət çevrilişinə cəhdlə bağlı aparılmış istintaq prosesi çərçivəsində həbs olunublar. Həbs edilənlər arasında Diyarbəkir vilayətinin jandarm komandiri, polkovnik Hasan Ceyhun da var.

Bu arada Türkiyədə "Fətullahçı Terror Təşkilatı"nın (FETÖ) media ayağına qarşı əməliyyat başlayıb. "Hürriyet"in yaydığı məlumata görə, İstanbul Terror və Mütəşəkkil Cinayətkarlıq Bürosunun baş prokuror əvəzi İrfan Fidan aparılan istintaq çərçivəsində 42 media mənsubunun yaxalanması haqqında təlimat verib. Onların arasında Türkiyənin məşhur jurnalistlərindən olan Nazlı Ilıcakın da adı var.

Həbs edilmiş 1200 türk əsgərinin azad olunması, Atatürkçü generalların yenidən xidmətə başlaması də mühüm hadisə kimi dəyərləndirilir. Belə ki, "Balyoz" əməliyyatı zamanı həbs olunan, vətən xainliyində ittiham edilən yüksək rütbəli hərbçilər yenidən orduya geri çağırılıb. Ankara dövlət prokuroru Harun Kodalak qərarı əsgərlərin çevriliş cəhdindən xəbərsiz olmaları ilə əlaqələndirib.

15 iyul çevrilişə cəhd olayından sonra əsas dartışılan mövzulardan biri də Türkiyə təhlükəsizlik xidmətinin, yəni MİT-in çevriliş haqqında dövlət rəhbərlərini nə səbəbə zamanında məlumatlandırmaması ilə bağlıdır. Prezident Ərdoğan da çevriliş haqda ilk olaraq yeznəsindən, baş nazir dostlarından eşitdiklərini deyib və təhlükəsizlik xidmətinin zəif olduğunu etiraf edib. 2010-cu ildən Türkiyə təhlükəsizlik təşkilatının başında dayanan 48 yaşlı Hakan Fidan isə kifayət qədər ciddi fiqur hesab edilir və onun rəhbərlik etdiyi qurumun hazırlanan çevriliş ssenarisindən son günə qədər xəbərsiz qaldığına inananların sayı çox azdır. Vaxtilə Türkiyə Silahlı Qüvvətlərinin quru qoşunları komandanlığında çalışan H.Fidan orduda xidmət edərkən də həmişə kəşfiyyat xətti ilə xaricdə müəyyən vəzifələrdə çalışıb və kifayət qədər təcrübəli kadr kimi xarakterizə olunur.



# Türkiyə üçün yeni çevriliş təhlükəsi, Ərdoğan müxalifət liderləri ilə görüşdü

## **Fazil Mustafa:** "Uşağa da bəllidir ki, bu cür çevrilişlər beynəlxalq güclərin planı, dəstəyi və təminatı olmadan baş vermir"

## **Şahin Cəfərli:** "Bundan sonra hər şey ölkə rəhbərliyinin atacağı addımlardan asılıdır; Türkiyə siyasi tarixində bəyaz bir səhifə açmaq üçün gözəl imkan yarandığını düşünürəm"

**Milli təhlükəsizlik xidmətinin sabiq əməkdaşı Ərəstun Oruclu bu barədə danışarkən qeyd etdi ki, Türkiyədə baş verənlərlə bağlı bir sıra müəmmalar var. Ekspert baş nazir B.Yıldırımın çevriliş cəhdi ilə əlaqədar əvvəlcədən məlumat aldıqlarını dediyini, lakin daha sonra prezident Ərdoğanın çevriliş xəbərindən sonra H.Fidanı iki saat ərzində tapa bilmədiklərini açıqladığını xatırlatdı. Qeyd etdi ki, bu məlumatlar H.Fidanın da ssenaridə yer alması ehtimalını ortaya çıxarır:** "Bundan əlavə, vaxtilə vəzifələrindən azad edilən generalların böyük əksəriyyəti ordudakı əvvəlki vəzifələrinə qaytarılıb. Həmçinin, Ərdoğan prezident qvardiyasının buraxılması barədə qərar verib. Bunlar onu göstərir ki, ordu proseslərə ciddi şəkildə qarışıb və Silahlı Qüvvələrin imicinə ciddi şəkildə ziyan vurmuş çevriliş olayı ilə əlaqəli sərt tədbirlərin görülməsi üçün hökumətə təsir göstərir. Bu, mənim şəxsi qənaətimdir, səhv də edə bilərəm".

Anadolu Agentliyi bildirir ki, əsası Mustafa Kamal Atatürk tərəfindən qoyulmuş Türkiyənin müxalifətçi Cümhuriyyət Xalq Partiyasının (CHP) çağırışı ilə milyonlarla insan İstanbuldakı Taksim meydanına axışıb. Mitinq iştirakçıları "Türkiyə dünyəvi dövlətdir və dünyəvi dövlət olaraq qalacaq" şüarlarını səsləndiriblər. Milli himnin səsləndirilməsi ilə başlayan aksiyada iştirakçılar "Biz Atatürkün əsgərləriyik" deyə hayqırıblar.

**Bu arada Avropa Komissiyasının sədri Jan-Klod Yunker Türkiyədəki ölüm cəzasının bərpası ilə bağlı müzakirələrə reaksiya verib.** "Türkiyə ölüm hökmünü bərpa etsə, Avropa İttifaqı ölkənin birliyə qoşulması prosesini dərhal dayandıracaq" - o bildirib.

Türkiyədə baş verən olayların tətikçisi rolunda çıxış edənlər haqqında isə ən müxtəlif versiyalar var.

**Deputat Fazil Mustafa "Yeni Müsavat"a bildirdi ki, Türkiyədə həqiqətən də son 35 ilin ən təhlükəli hadisəsi baş verdi və bəlkə də çoxlarının ehtimal vermədiyi hərbi çevriliş kabusu yenidən ölkənin başı üzərindən keçdi:** "Şükürlər olsun ki, Türkiyədə Ərdoğan hökumətinin və türk millətinin qətiyyətli davranışı Türkiyəni, Türk demokratiyasını bu burulğandan az itkilərlə qurtara bildi. Bu cür çevrilişlər uşağa da bəllidir ki, beynəlxalq güclərin planı, dəstəyi və təminatı olmadan baş vermir. Burada ayrı-ayrı camaat, siyasət, əsgər, casus aktyorlarıdan istifadə olunur, ancaq ciddi şəkildə hazırlanmış bir Türkiyə ssenarisini gerçəkləşdirənlər heç şübhəsiz, Liviyanı, Suriyanı xaosa çevirənlərdən başqası deyil. Qarşısı alınmasaydı 2016-cı ilin hərbi çevrilişi 1980-ci ilin hərbi çevrilişindən daha dəhşətli nəticələr doğuracaqdı. 1980-ci ildə türk ordusunu hakimiyyətə gətirən qüvvə anlaşılır ki, 2016-da bir xunta hakimiyyəti ilə prosesi yekunlaşdırmağı düşünmürdü. Sadəcə, qısa müddətə xunta hakimiyyəti ələ alırdı və mövcud iqtidarın tərəfdarları və strukturları, xüsusilə də polis təşkilatı barışmaz mövqe sərgiləyərək ordu ilə qanlı münaqişəyə girirdi və PKK, İŞİD kimi terrorçu qruplaşmaların qatılımı ilə ölkədə qarşısıalınmaz xaos başlayırdı. Bu darbənin qarşısının alınmasının dəyərini məhz bu kontekstdə görmək lazımdır. Təfərrüata gəldikdə isə, burada Gülən camaatının fəal rol alması da acınacaqlı bir durum yaratmış oldu. Əvvəllər Talibandan, İŞİD-dən, Üsamə bin Ladendən bəhs edərkən alternativ mədəni İslam olaraq təhsili, modernliyi önə çəkən insanları göstərmək olurdu. İndi isə bu proseslərdə bu və ya digər dərəcədə iştirakı əsas götürərək, bütün məktəblərin bağlanması, kollektiv günah siyasətinin tətbiq edilməsi, İslamın bayrağından təhsilsiz kütlələrin daha sıx yapışmalarına imkan yaratdı".

**Olayların ardınca Azərbaycanda atılan addımlar, bəzi media qurumlarının qapadılması, Qafqaz Universitetinin Ali Neft Məktəbinə birləşdirilməsi kimi addımlar barədə fikirlərini bölüşən F.Mustafa bunları bildirdi:** "Bir vaxt bolşevik Rusiyasında Trotskinin belə bir tezisi vardı ki, qolçomaq problemini birdəfəlik həll etmək üçün kəndlilərin yox edilməsi ən optimal yoldur. Beləcə, bir çox bölgələrdə kəndliləri aclığın əli ilə yox etdilər və nəticədə qolçomaqların da əksəriyyəti sıradan çıxmış oldu. İndi Türkiyədəki iç siyasətdə baş verənlərin dərinləməsinə təhlili bizə düşməz, ancaq Azərbaycanla əlaqəsi ola biləcək məsələlərə münasibət bildirməmiz daha məqsədəuyğun olardı. Fikrimcə, Qafqaz Universiteti Azərbaycanda ən səviyyəli ali məktəbdir və orada univeristetə oxşayan bir çox atributlar var. Ən yüksək bal toplayan tələbələrin də bu universiteti seçməsi təsadüfi deyil. Bu cür tələbələrin böyük əksəriyyətinin, ümumiyyətlə, dinlə, gülənçiliklə əlaqəsi yoxdur və sadəcə, elmlə əlaqələri olduğuna görə yaxşı təhsil verən universitet seçirdilər. Ümumiyyətlə, mənim dəyişməz fikrim budur ki, keyfiyyətli universiteti, kolleci, uşaq bağçasını bağlamanın çox böyük fəsadları yarana bilir və biz Azərbaycan cəmiyyəti olaraq yaxşı alternativlərimiz az olduğuna görə mövcud keyfiyyətli təhsil qurumlarına qarşı bu addımı atarkən ehtiyatlı olmalıyıq. Kimsəyə sirr deyil ki, Türkiyədən gələn xahiş və tələblər üzərinə bu addım atılıb və Azərbaycan tərəfinin də, ümumiyyətlə, məlum camaata dəxli olmayan minlərlə savadlı tələbənin və müəllimin taleyinə görə narahatçılığını sezmək olur. Burada ən ağıllı yol, universitet idarəçiliyinin indiki Türkiyə hökumətinə yaxın elm adamları ilə əvəz olunması, universitetin mövcud strukturunun və təhsil siyasətinin davam etməsi idi. Yenə də düşünürəm ki, ən optimal yollardan biri tapıldı, universitet ölkənin ən yaxşı alı məktəblərindən olan Ali Neft Məktəbinin tabeliyinə verildi. Bu məsələ təcili yekunlaşmalıdır ki, ali məktəbə qəbul olan abituriyentlər seçimlərini edə bilsinlər. Əks halda, həm onlar, həm də universitet ciddi sıxıntılar yaşamış olacaq".

Türkiyədə növbəti çevrilişin ola biləcəyi də müzakirə mövzusudur. Hətta prezident Ərdoğan xalqa müraciətində onları meydanları boşaltmamağa çağırıb.

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a bu barədə danışarkən bildirdi ki, Türkiyədə baş verən son hadisələr heç şübhəsiz, təlatümlü cümhuriyyət tarixinin ən böyük zəlzələsidir:** "Ölkədə daha əvvəl hərbi çevrilişlər, edamlar, repressiyalar, ideoloji zəmində qanlı toqquşmalar yaşanıb. Lakin Böyük Millət Məclisinin bombalanması, digər inzibati binaların hədəf alınması, əsgərin mülki əhaliyə, əsgərin əsgərə, əsgərin polisə və ya əksinə, polisin əsgərə atəş açması kimi iç savaş elementləri daşıyan, ən azı bu miqyasda, faciəvi olaylar yaşanmayıb. Bunlar bir dövlət üçün çox sarsıdıcı hadisələrdir. Türkiyədə çevriliş cəhdindən sonra atılan addımlar - çoxlu sayda general-admiral da daxil olmaqla, on minlərlə insanın kütləvi şəkildə ordudan, dövlət aparatından qovulması, barələrində cinayət işinin açılması onu göstərir ki, Türkiyənin bu zəlzələdən sonra özünə gəlməsi, yarılarını sarıması heç də asan olmayacaq".

**Yeni çevriliş təhlükəsinə gəldikdə, Ş.Cəfərli bu fikirdədir ki, bundan sonra hər şey ölkə rəhbərliyinin atacağı addımlardan asılıdır:** "Mən bu böhrandan fürsət kimi istifadə edərək, Türkiyə siyasi tarixində bəyaz bir səhifə açmaq üçün gözəl imkan yarandığını düşünürəm. Türkiyədə Atatürkə qayıdış baş verməlidir. Ədalət və İnkişaf Partiyasının üst qatı və hazırda bu partiyanın əsas elektoral bazasını təşkil edən dindar-mühafizəkar kəsim laik rejimlə, "Atatürk ilkə və inqilabları" ilə barışmalıdır. Türkiyədə ideoloji cəbhələşmələrə son qoyulmalı, laik və dindarlar arasındakı ayırıcı xətlər aradan qaldırılmalı, ələvilərin bütün hüquqları özlərinə qaytarılmalı, iç barışa nail olunmalıdır. Bunun üçün şəxsən prezident Ərdoğanın üzərinə tarixi məsuliyyət düşür. Ümumiyyətlə, başda AKP olmaqla, Türkiyə siyasi spektrinin sağında dayanan siyasi partiyalar dini siyasətə alət etmək vərdişindən vaz keçməyə özlərində güc və iradə tapmalıdırlar".

***

**Yazı hazırlanarkən məlum oldu ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan hakim AKP sədri Binəli Yıldırımı, müxalifətçi Cümhuriyyət Xalq (CHP) və Milliyyətçi Hərəkat (MHP) partiyalarının rəhbərləri Kamal Kılıçdaroğlu və Dövlət Baxçalını Prezident İqamətgahına dəvət edib. Dəvətdə məqsəd həmin şəxslərə hərbi qiyam cəhdi zamanı tutduqları mövqeyə görə təşəkkür etmək və yaranmış vəziyyətlə bağlı təkliflərini almaqdır. Bundan əvvəl müxalifət liderlərini baş nazir Yıldırım qəbul etmişdi.**

❑ **E.PAŞASOY**

# Çadıra qayıdış



Zamin HACI
zaminhaci@gmail.com

**Türkiyədən əcaib repressiya xəbərləri gəlir. "Qiyamçı generalın qardaşı vəzifəsində uzaqlaşdırıldı", "Çevriliş cəhdi təşkilatçısının qohumu işdən çıxarıldı" və sairə. Orada bu cür mağara repressiyaları adət halını almışdır. Eynilə bizdəki kimi. Artıq karikatur şəklində istifadə edilən "bir millət, iki dövlət" şüarı çox yerinə düşür. Dünən saytlardan birində oxudum, keçmiş MTN-in keçmiş generalı Hilal Əsədovun arvadı Bakıda uşaq poliklinikasında baş həkim işləyirmiş, indi onu işdən çıxarıblar. Sitat: "Nüşabə Əsədovanın həyat yoldaşının qanunsuz əməllərinə görə "vurulması" çoxdan gözlənilsə də nədənsə, o, bir neçə aydır ki, vəzifəsində qalırdı". Sitatın sonu.**

Əla məntiqdir, eləmi? Görün bizim media orqanları bu cür repressiv məntiqə necə rahat uyğunlaşıblar. Həyat yoldaşı qanunsuz əməl törədirsə, bunu da işdən çıxartmaq lazım imiş. Azərbaycanda işləməyin, hansısa karyera qurmağın bu cür axmaq siyasi vəziyyətlərdən asılı olmasını daha nə cür isbat eləmək lazımdır? Müxalifətçilərin qohumlarının işdən qovulması, həbsi adi haldır. İqtidarın vurulanları da bu sıraya qoşulmalıdır ki, balans yaransın. Bəs necə, yapistlər hər kəsə eyni gözlə baxırlar. Dövlət siyasətimiz belə tələb edir. İnşallah, konstitusiya ütüləndən, yolunandan sonra lap qəşəng dövlət siyasəti olacaq.

Şeytan detallarda gizlənir deyərlər, bizim kimi bölgələrdə heç gizlənməyə ehtiyac qalmır. Kor kor gör gör - necə deyərlər. ASAN xidmətin Lahıcda könüllüləri ilə birgə düşərgə yapması haqda xəbərləri qəzetimizdə böyük həyəcanla oxudum. Axı orda 78 lahıclıya şəxsiyyət vəsiqəsi verilmişdir! Hələ gənclər gecə saat 1-də həyəcan siqnalı ilə yerlərindən qalxıb sıraya düzülüblər! Əladır. Həyəcanlı ölkədə yaşayırıq, gərək hər şeyə hazır olaq. Ümumiyyətlə, heç vaxt Azərbaycanın başına etnik dərd açmayan, əksinə, barış və anlaşma şəraitində yaşayış modeli sayılan İsmayıllı bölgəsində, Lahıcda multikulturizm tədbirləri düzəltmək, buranı ölkəmizdə daxili siyasətin uğuru kimi təqdim eləmək absurddur. Elə "multikulti" və ya uğurlu etnik-dini siyasət aparansınızsa ölkənin qərb sərhədləri tərəfə baxın. Orda bir balaca problem var. Həmin problem məhz elə öyündüyünüz mıtikulturizm müstəvisindədir, etnik-dini mahiyyət daşıyır.

Ancaq əsas məqsədim bunu yazmaq deyil. Mənə bir dəstə camaatın Lahıcda məhz çadırda yaşayıb-işləməsi təəccüblü gəldi. Bunu ekstrim yaşamaq üçün etməyiblər. Səbəb sadədir: ölkənin Lahıc kimi istirahət-turizm guşəsində çoxsaylı adam toplanan tədbiri düzənləməyə hər hansı turistik obyekt yoxdur. Olanlar da çox bahadır, heç kim onları ASAN könüllülərinə qıymır. O üzdən, ASAN xidmət çadırda vəsiqə düzəldir. 21-ci əsrdə. Elə bil Afrikanın cəngəllikləridir, ya da Roald Amundsen Cənub qütbünə səyahətə çıxıbdır. Qardaşım, normal otaq tapıb vəsiqə verə bilmirsiniz?

Elə bu cür absurd, tragikomik durum üzündən turizm sektoru əcaib nəticələr ortaya çıxarır: sən demə, Kürdəmirə gəlib gecələyən turistlərin illik sayı Qəbələdə gecələyən turistlərin sayından dördqat çox imiş (iqtisadçı ekspert Rövşən Ağayevin araşdırmasından çıxan mənzərə). Gizli iqtisadiyyatın üstünə yıxmaq olar bu statistikanı, ancaq haçana qədər? Haraya qədər? Bu yaxında elan görmüşdüm: Zəngilan rayon statistika idarəsi özünə işçi axtarırdı. Gör necə əladır! Rayonu ermənilər alıb, ancaq statistikası bizdədir! Konstitusiya yoxdur, ona referendum keçirirlər. Təhsil yoxdur, qəbul aparılır.

Bax, elə 1 və 2-ci qrupların qəbul imtahanında 61 faiz abituriyentin 0-200 bal toplaması, köhnə dillə desək "iki" alması hansı istiqamətə yönəldiyimizin, zəhləm getmiş jurnalistlər demişkən, "bariz nümunəsidir". Adını yaza bilməyən böyük bir kütlə yetişir.

Bəlkə bu baxımdan hamımızın çadıra qayıtmağımız, söykökümüzə dönməyimiz vacibdir. Sonra da mağara qazarıq. Tək Lahıc tərəflərdə yox, elə ölkənin hər yerində. Düzü, o vaxt buna "ölkə" deyiləcəkmi, yoxsa adı nəsə başqa asan-termin olacaqdır, bu haqda təsəvvürüm yoxdur.

# Avropanı kim və niyə qarışdırır...

## "Ərəb baharı" qoca qitənin başına bəla olub

**On illər boyu dünya xalqları üçün sabitlik, inkişaf, sakit yaşayış yeri nümunəsi olan Avropanın böyük dövlətləri son bir-iki ildə terror aktlarının ayaq açdığı məkana çevrilməkdədir. Terrorun, atəş səsinin nə olduğunu bilməyən qoca qitənin sakinləri artıq hər gün terror qorxusu altında yaşamaqdadır.**

Son bir ildə Fransada, Belçikada, Hollandiyada, Britaniyada, bir neçə gün öncə isə Almaniyada çoxsaylı insan itkisinə səbəb olan terror aktları törədilib ki, bu da Avropanın sakit həyatına zəhər qatıb. Sanki hansısa qüvvələr sabitlik, demokratiya örnəyi olan Avropanın qarışmasında, inkişafının tənəzzüllə əvəzlənməsində maraqlıdır. Bu maraqlarının həyata keçirilməsi üçün iş aparırlar.

Bu barədə danışan **politoloq Qabil Hüseynli** bildirdi ki, Avropanın 20-yə yaxın dövləti yüksək rifah cəmiyyəti yaradıblar, bu ölkələrdə demokratiya bütün parametrləri üzrə oturub, bir çox məsələlərə görə dünyaya örnək ola biləcək bir səviyyəni fəth edə biliblər. Bu, birinci növbədə avtoritar idarəçilik üslubunu seçmiş və yalnız güc nümayiş etdirməklə özünü saxlayan rejimlərə xoş deyil. Onlar özlərinin xüsusi xidmət orqanları vasitəsilə terrorçu təşkilatlara təlimat və istiqamət verirlər: "Avropanın qurduğu cəmiyyətin gələcəkdə nümunə ola biləcəyindən xoflanan bəzi avtoritar dövlətlər Avropanın silkələnməsində, qarışmasında, cəlbediciliyini itirməsində maraqlıdırlar. Məsələn, Böyük Britaniya Avropa Birliyindən çıxanda Rusiya mətbuatı bunu çox təqdiredici tonda təqdim etdi. Guya ki, baş verən hadisə Britaniyanı çiçəklənən örnək bir dövlətə çevirəcək. Halbuki indi Britaniya problemlərlə baş-başa qalıb, parçalanma təhlükəsi var, əhalinin böyük bir hissəsi yenidən




referendum keçirilməsini istəyir".

**Q.Hüseynlinin fikrincə, ərəb baharı və bunun nəticəsində totalitar rejimlərin yıxılmasının qisasının alınması faktı da Avropanın başına bəla olub:** "Terror aktlarını hazırlayan və törədən təşkilatlardan biri İŞİD-dir. İŞİD-in əksək rəhbərləri vaxtilə Səddam Hüseynin generalları olmuş adamlardır. Həmin adamlar Avropa ölkələrinin qan gölünə dönməsində maraqlıdırlar. Ərəb baharından sonrakı ərəb ölkələrindən Avropaya kütləvi miqrant axını bu maraqların həyata keçirilməsini asanlaşdırır. Faktiki olaraq miqrant axını Avropanı silkələyən ən ciddi problemə çevrilib. Öz ölkəsində diktatura rejimləri dövründə acınacaqlı durumda yaşayan, hüquqları əlindən alınan bir çox insanlar indi gedib çıxıblar Almaniya, Hollandiya, Belçika kimi demokratik ölkələrə. Bu adamlar orada insana verilən azadlıqları bəzən sui-istifadə edir, "azadlıq varsa hər şey edə bilərəm" prinsipi ilə davranış nümayiş etdirirlər. Avropanın sakit həyatına qarışıqlıq gətirən amillərdən biri də budur. Bir çox miqrantların ruhi-psixoloji vəziyyəti Avropa gerçəkliyini qəbul edə bilmir. Bələləri Avropanı qarışdırmaq planları quran qüvvələr üçün asan əldə edilə bilən alət rolunu oynayırlar. Onların vasitəsilə cinayət əməlləri, terror aktları həyata keçirmək asanlaşır. Böyük rezonans doğuran terror hadisələrinin arxasında birbaşa böyük güclər dayanır. Bu güclərin bir qismini həm də ərəb ölkələri içərisində də axtarmaq mümkündür. Yaxın Şərq ölkələrinin gözü dönmüş bir sıra liderləri miqrantlar içərisində Avropaya keçirilmiş terrorçulardan Avropanı sarsıtmaq üçün istifadə etməyə çalışırlar".

**Politoloq Avropanın daha da inkişaf etməsini ABŞ-ın istəmədiyi barədə deyilənlərin əsaslı olmadığını düşünür:** "Avropa Birliyi və ABŞ eyni sistem, eyni ideologiya, eyni yaşam tərzi, eyni hədəflər deməkdir. Praktika göstərir ki, Avropanın vahid valyutası müəyyən qədər dollara yaxınlaşsa da dünya valyutasına çevrilə bilmədi. Dünyada iqtisadi proseslərin 98 faizə qədəri dollarla həyata keçirilir. ABŞ-ın Avropanın valyutasının dolları üstələyəcəyindən narahat olduğunu və bu narahatlığın təsiri altında Avropanın zəifləməsinə çalışmasını iddia edənlər yanılırlar. Avropa ABŞ-ın çox mühüm partnyorudur. ABŞ Avropada günü-gündən möhkəmlənir və Avropa ölkələrinə böyük dəstək verir. Avropanın təhlükəsizliyinin təmin edilməsində ABŞ bir nömrəli rol oynayır. ABŞ Avropanın daha da güclənməsini istəyir".

❏ **Etibar SEYİDAĞA**

# Türkiyədə çevrilişə cəhddə günahlandırılan 2135 nəfər həbs olunub

## Ərdoğana qarşı sui-qəsd əməliyyatında iştirak etmiş daha üç hərbçi də yaxalanıb

**Türkiyədə dövlət çevrilişinə cəhd zamanı prezident Rəcəb Tayyib Ərdoğana sui-qəsd əməliyyatında iştirak etmiş daha üç hərbçi yaxalanıb.**

"Report" "Hürriyet"ə istinadən xəbər verir ki, həmin şəxslər dövlət başçısının qaldığı hotelə hücum zamanı iki polisi şəhid edib qaçıblar.

Xüsusi təyinatlı dəstədən olan qiyamçı hərbçilər Marmaris rayonundakı dağlıq ərazidə saxlanıblar. Onların gətirilməsi üçün əraziyə helikopter göndərilib.

Bu arada Türkiyədə iyulun 15-də həyata keçirilən dövlət çevrilişinə cəhdə dair aparılan istintaqla bağlı yeni açıqlamalar verilib.

Musavat.com xəbər verir ki, bu barədə məlumat "DHA" agentliyində yer alıb.



Məlumata görə, prokurorluqda dindirildikdən sonra məhkəməyə göndərilən əsgər, polis, hakim və prokurorların da içərisində olduğu 2 min 135 nəfər həbs edilib.

Məhkəməyə çıxarılan 423 nəfərə məhkəmə nəzarəti tətbiq olunub, 237 nəfər isə sərbəst buraxılıb. Geriyə qalan 167 nəfərin isə istintaqı davam etdirilir.

❏ **Aygün SƏFƏRLİ**



Allahşükür Paşazadə

# "Erməni katolikosu imza atdığı bəyanata uyğun davranmır"

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Hacı Allahşükür Paşazadə erməni katolikosu II Qaregini Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verdiyi bəyanata uyğun davranmamaqda qınayıb.**

Şeyxülislam APA-ya müsahibəsində bildirib ki, münaqişə başlayan dövrdən bəri sülhün bərqərar olunması naminə müxtəlif vasitəçilərin səyləri əsasında müxtəlif illərdə erməni dini liderləri ilə bir masa ətrafında əyləşib və və yenə bunu edə bilər.

O qeyd edib ki, Rus Pravoslav Kilsəsi bu görüşlərin daha ardıcıl keçirilməsi və mövqelərin mümkün qədər uzlaşdırılmasına çalışıb: "Hər dəfə görüşlərin nəticələrinə dair birgə bəyanatlar imzalamışıq, lakin təəssüf ki, qarşı tərəf bu bəyanatların ruhuna uyğun davranış nümayiş etdirmir. Bununla belə, Rusiya patriarxının apreldəki təxribatdan sonra növbəti görüş təklifini müsbət dəyərləndirirəm. Erməni tərəfindən heç bir cavab yoxdur. Olacağı təqdirdə, bu məsələyə bir də qayıtmaq mümkündür".

YENİ MÜSAVAT
N 161 (6482) 26 iyul 2016

# Nüfuzlu Türkiyə nəşrindən sensasion iddia

**ABŞ səfiri Robert Sekutanın Azərbaycanda səfir kimi fəaliyyətə başlamasının bir ili tamam oldu. Səfir bu münasibətlə "ABŞ-Azərbaycan münasibətləri: sabit və firavan gələcək naminə ortaq məqsədlər" adlı məqalə yazıb. Azərbaycan mediasının dəmək olar ki, tamamının dərc etdiyi həmin məqalədə cənab Sekuta iki ölkə arasında münasibətlərin yeni mərhələsinin anonsu kimi qiymətləndirilir. Obrazlı desək, "Səfir Sekutanın şifrəli mesajları"nda Amerika ilə Azərbaycanın əməkdaşlığının indiki və gələcək perspektivlərinin açarı yerləşdirilib.**




# Kreml və Ankara Azərbaycanla Ermənistanı barışdırır - müdhiş plan

## Çavuşoğlunun Bakı səfərinin yeni pərdəarxası üzə çıxıb; Türkiyə-Rusiya münasibətlərinin sürətlə istiləşməsi Qarabağ, sərhədlərin açılması kimi ortaq mövzuları təzədən gündəmə gətirir; yeni nəbz yoxlanışı başlayıb, ekspert: "Ankara əlverişli bir məqamda Qarabağla bağlı hərəkətə keçəcək..."

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan gələn ayın əvvəllərində Rusiyada həmkarı Vladimir Putinlə bir araya gələcək. Keçən il noyabrın 24-də baş vermiş - iddialara görə, gülənçilərin təxribatı nəticəsində baş verib - "Su-24" insidentindən sonra bu, iki lider arasında ilk görüş olacaq. O üzdən ona diqqət və maraq olduqca böyükdür.

Diqqət həmçinin ona görə böyükdür ki, iki regional super güc kimi Türkiyə və Rusiyanın yaxınlığı və bundan sonrakı əməkdaşlığının perspektivi regiondakı bir sıra böhranlı və həlli çatan problemlərə *(Suriya, İŞİD terroru, təhlükəsizlik və Qarabağ məsələləri və s.)* bilavasitə təsir eləmək gücündədir.

Daha bir maraqlı mövzu Ankara-Moskva münasibətləri fonunda Türkiyə-ABŞ, Türkiyə-NATO ilişgilərinin taleyi ilə bağlıdır. Çünki bəzi analitiklər belə fikir səsləndirməyə başlayıblar ki, Rusiya-Türkiyə yaxınlaşması hətta iki dövlət arasında böyük müttəfiqlik müqaviləsinin imzalanmasına gətirə, Türkiyə ABŞ-dan uzaqlaşa və hətta NATO-nu parçalaya bilər.

Bu kimi ehtimal və versiyalar yəqin ki, avqustda nəzərdə tutulan Ərdoğan-Putin görüşündən sonra bəlli olacaq. Bir şey dəqiqdir ki, iki ölkənin əməkdaşlıq, müttəfiqlik edə biləcəyi sahələr gerçəkdən də genişdir. Onların arasında sözsüz ki, Qarabağ və Ermənistanla sərhədlərin açılması məsələsi də var.

***

"Türkiyə və Rusiya prezidentlərinin çox yaxında bir araya gəlməsi, əslində geniş və mövcud gündəmi dəyişəcək müzakirələrdən xəbər verir". Bu barədə **politoloq Qabil Hüseynli** axar.az-a açıqlamasında danışıb. Ərdoğan və Putinin gözlənilən görüşünü şərh edən sabiq dövlət müşaviri Qarabağ məsələsinin də müzakirələrdə yer alacağını bildirib.

"Tərəflər ən yüksək səviyyədə və qısa zamanda bir araya gələcəklər. Türkiyə Dağlıq Qarabağla bağlı prinsipial mövqe nümayiş etdirsə də, Azərbaycanın istədiyi əsas nəticənin əldə olunması üçün müəyyən zaman lazım olacaq. Ərdoğan və Putin münasibətlərin yeni dönəmini daha çox diqqətdə saxlayacaqlar. Düzdür, Qarabağ məsələsi və digər problemlər diplomatik müzakirələrdə əksini tapacaq, ancaq torpaqlarımızın azad olunması planı, eyni zamanda Türkiyənin əsas oyunçu kimi prosesə qoşulması ilə bağlı ümumi qərarlar ola bilsin məhz bu görüşdə alınmasın. Bunun üçün zəmin formalaşsa da, əsas addım və detalların növbəti görüşlərdə müzakirəsi daha məqsədəuyğundur" - politoloq qeyd edib.

**Ekspert elə bir həssas məqamda Türkiyənin Qarabağla bağlı daha ehtiyatlı davranacağını düşünür:** "Yəni Türkiyə lazım gələrsə, Qarabağ üçün Qarabağdan "vaz keçəcək". Türkiyədə artıq belə bir fikir formalaşıb ki, Azərbaycan torpaqlarından heç bir güzəşt edilə bilməz. Ankara, sadəcə, müəyyən müddət üçün düşünülmüş taktiki bir gediş edəcək. Çünki Rusiya fürsətçi ölkədir və indiki situasiyanın Moskva üçün əlverişli olması Rusiyaya Türkiyə ilə bağlı müəyyən məsələlərdə diktə edən tərəf imkanı yarada bilər. Ankara bu amili əldən verməyəcək. Bundan sonrakı görüşlərə qədər isə Türkiyənin əvvəlki vəziyyətinə qayıdacaq, hətta daha yaxşı olacaq. Üstəlik, Ankara-Moskva yaxınlığı kifayət qədər intensivləşəcək. Türkiyə məhz belə bir əlverişli şəraitdə Qarabağla bağlı hərəkətə keçəcək. Dağlıq Qarabağla bağlı həlledici görüşlər hələ qabaqdadır".

***

Sözsüz ki, belədir. Bu, bir prosesdir və müəyyən vaxt ala bilər. Ancaq Ankara və Moskva qarşılıqlı etimadı zəruri səviyyədə qaldırarlarsa, onda arasında qadağan olunan mövzular qalmayacaq. Onlardan biri də Türkiyə-Ermənistan sərhədlərinin açılmasıdır. Bu yerdə yada salaq ki, Rusiya XİN başçısı Sergey Lavrovun son İrəvan səfəri zamanı Ermənistan rəsmiləri ilə qapalı görüşlərdə Türkiyə ilə sərhədlərin açılması və Ankaranı Qarabağ sülh prosesinə qoşmaq məsələsinin də müzakirə olunduğu haqda Rusiya KİV-ləri məlumat yaymışdı. Deyəsən, 15 iyul hərbi çevriliş cəhdindən sonra məsələ təzədən gündəmə qayıdır.

"Türkiyə hökuməti Ermənistanla barışıq prosesi və sərhədlərin açılmasına dair müzakirələri yenidən başlamağı nəzərdən keçirir". Belə bir sensasion məlumat "Hürriyet" qəzetinin yazarı Fatih Çekirgenin son köşə yazısında yer alıb *(virtualaz.org )*.

Müəllifin yazdığına görə, bu məsələdə Türkiyə hökuməti Azərbaycanın da mövqeyini öyrənməyə çalışıb. Xarici işlər naziri Mövlut Çavuşoğlu Bakıya iyunda etdiyi son səfər zamanı Azərbaycan tərəfinin Ermənistanla barışıq prosesinin və sərhədlərin açılmasına dair müzakirələrin yenidən başlaması ilə əlaqəli "nəbzini yoxlayıb".

**Fatih Çekirge xarici işlər naziri Çavuşoğlunu iyunun 15-də Bakıya, daha sonra Tiflisə səfərdə müşayiət edib. Onun yazdığına görə, yol boyu xarici işlər naziri jurnalistin Rusiya ilə münasibətlərdəki böhranın aradan qaldırılmasına dair qeydinə belə cavab verib:** "Bəli, baxarsınız, daha gözəl şeylər olacaq, sülh naminə çox gözəl xəbərlər gələcək". Fatih Çəkirgə Çavuşoğlunun nəyi nəzərdə tutduğunu dəqiqləşdirməyə çalışsa da nazir əlavə detallar verməyib.

"Ancaq indi diplomat dostlarımdan öyrənirəm ki, iqtidarın düşmənləri azaldıb dostları artırmaq vədi Ermənistanla sərhədlərin açılmasını da əhatə edir. Çavuşoğlu barış həmləsinin ilk addımını iyunun 14-15-də Bakıya səfəri zamanı atıb. Ermənistanla yenidən və köklü barış axtarışı üçün Bakıda nəbz yoxlayıb. Müsbət ab-hava da var. Daha irəli getmək üçün zəmin hazırdır" - Çekirge yazıb.

**Türkiyəli yazarın bildirdiyinə görə, hökumətin Ermənistanla müzakirələrə yenidən başlamaq və "bəlkə də sərhədlərin açılması" planları Azərbaycan-Ermənistan münaqişəsinin nizamlanması kontekstində nəzərdən keçirilir.** "Lakin Azərbaycanla danışıb Ermənistanla yeni normallaşma təqvimi müəyyənləşdirmək barədə müzakirələr gedərkən xainlər daxildə demokratiyaya savaş açıblar" - Çekirge Türkiyədə baş tutmayan hərbi çevriliş cəhdinin hökumətin Rusiya və digər qonşularla münasibətlərini normallaşdırmaq səylərinə cavab ola biləcəyinə eyhamla yazır.

***

Xatırladaq ki, 2009-cu ildə Türkiyə hökuməti Azərbaycandan gizli şəkildə Ermənistanla barışıq prosesinə başlamışdı və bu proses Azərbaycan ərazilərinin işğaldan azad edilməsi şərtini kənara qoyurdu. Proses Sürix protokollarının imzalanmasına qədər gəlib çıxdı, lakin Azərbaycan hakimiyyətinin qətiyyətli addımları, cəmiyyətin sərt reaksiyası həmin protokolların reallaşmasına imkan vermədi. Ondan sonra Türkiyə rəhbərliyi dəfələrlə bəyan edib ki, Ermənistanla münasibətlərin normallaşması Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə paralel baş tuta bilər.

Lakin indiki situasiya 2009-dan prinsipial olaraq fərqlənir. Bu fərq də ondadır ki, əgər o zaman Rusiya sərhədlərin açılmasına olduqca qısqanc yanaşırdısa *(Sürix təşəbbüsü ABŞ-a məxsus idi)*, indi - Türkiyə ilə münasibətlərin sürətlə istiləşdiyi zamanda Kremlin özü bunda maraqlı ola bilər - təbii ki, Ermənistan, Qarabağ məsələsində Ankara ilə müəyyən bazarlaşmadan sonra. Hansı bazarlaşmadan?

**Bunu yəqin ki, yaxın zaman göstərəcək.**

**❑ Siyasət şöbəsi**

# Cəhənnəmə yol yoldaşı axtaranlar



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Türkiyədə 15 iyul hərbi çevriliş cəhdindən sonra yaranmış yeni situasiya az qala hər gün təzə və ilginc məqamları üzə çıxarmaqdadır. Növbəti birisi budur ki, qiyamçıların hərbi çevrilişdən sonra ölkə rəhbərliyinə gətirmək istədiyi şəxsin adı bəlli olub. Hər halda, iddia səslənib.**

Sən demə, üsyançılar keçmiş baş nazir Əhməd Davudoğlunu yenidən baş nazir postuna gətirməyi planlaşdırıbmışlar. "Oda" TV bildirib ki, çevrilişi təşkil edən yüksək rütbəli generallar arasında bununla ilgili razılıq olub və hakimiyyət ələ alındıqdan sonra Əhməd Davudoğlu ilə danışıqlar aparılacaqmış.

Hələ ki sabiq baş nazir məsələyə münasibət bildirməyib. Ancaq nə deyəsidir ki? Əlbəttə ki, ağıllı siyasətçi heç vaxt "Cəhənnəmə gedənlərlə" yol yoldaşı, məğlub tərəflə ortaq olmaz, indiki həssas məqamda, üstəlik, başını boş yerə cəllad kötüyü üstə qoyub gələcək siyasi perspektivini sıfırlamaz, çevrilişçilərlə hansısa işbirliyi söhbətini yaxına da buraxmaz.

Amma və lakin... niyə məhz Davudoğlu? Bax, bu, daha ciddi mövzudur. Nəyə görə?

Əvvəla, yada salaq ki, sabiq baş nazir hakimiyyətdə olduğu xüsusilə son illərdə "Amerikanın adamı", gizli anti-Ərdoğançı kimi tanınıb. Onun istefasında bu amilin mühüm rol oynadığı bəllidir. İkinci mühüm amil "Su 24" təyyarəsini vurmağa şəxsən göstəriş verdiyini bəyan eləməklə Davudoğlunun Rusiya ilə münasibətlərin korlanmasına görə məsuliyyəti öz üzərinə götürməsi ilə bağlıdır.

Artıq bəllidir ki, rus hərbi təyyarəsini ABŞ-da oturan gülənçi pilot vurub. Məqsəd də iki ölkə arasında isti münasibətləri böhran hala salmaq olub. Bəs buna ən çox kim, hansı ölkə can atırdı? Sözsüz ki, Gülənə sığınacaq verən ABŞ. Təbii, Davudoğlu bu amili də göz önünə gətirməli olacaq. Təsadüfi deyil ki, Ankara-Moskva münasibətləri Putin "Davudoğlunun başını" alandan dərhal sonra düzəldi.

Əlbəttə ki, dəqiqini Allah bilər. Ürəkdəkilər, niyyətlər yalnız Allaha məlumdur - o cümlədən məcburi istefası ürəyincə olmamış Davudoğlunun ürəyindəkilər. Ancaq indiki kritik və həssas dönəmdə belə bir məlumatın ortaya atılması, təkzib olunsa da-olunmasa da, şübhəsiz, eks-baş nazirə böyük pislikdir. Eyni zamanda silahlı müxalifətin öz cəzasını yüngülləşdirmək üçün gizli siyasi müxalifəti oyuna qoşmağa yönəlik bir cəhd təəssüratı yaradır.

Hətta daha uzağa gedib iddia eləmək olar ki, bu, növbəti hərbi çevriliş cəhdi olacağı haqda xalqa xəfif bir mesajdır. O anlamda ki, əgər hakimiyyətə hərbçilər yox, ictimai nüfuzu yetərincə yüksək olan Davudoğlu gələcəksə, xalq narahat olmasın, çevrilişə loyal yanaşsın.

Bu üzdən Davudoğlunun personasının bundan sonra Türkiyədə daha böyük diqqətdə olacağı gözləniləndir. Ümumiyyətlə, dövlət çevrilişi, hərbi çevriliş ehtimalı olan ölkələrin hamısında nəzərlər sövq-təbii həm də siyasi müxalifət tərəfə yönəlir.

Azərbaycanda bənzər vəziyyət 1993-cü ilin iyununda olub. Ancaq o zaman bizdəki siyasi müxalifət Türkiyədəki ana müxalifətdən fərqli olaraq, hərbi müxalifətə tam dəstək vermişdi. Nəticədə hərbi qiyam qalib gəldi. Ovaxtkı siyasi müxalifət isə əbədiyyən tarixin "qara siyahısına" düşdü.

Siyasi partiya üçün tarixin "qara siyahısına" düşmək böyük fəlakətdir - qiyam qalib gəlsə də, gəlməsə də.

YENİ MÜSAVAT
N 161 (6482) 26 iyul 2016

**Türkiyədə çevrilişə cəhdinin yatırılmasının ardından günahkarların cəzalandırılması ilə bağlı ölüm hökmünün gündəmə gəlməsi və ölkə prezidenti Rəcəb Tayyib Ərdoğanın bu qərarı imzalamağa hazır olduğunu bildirməsi dünya ictimaiyyətinin diqqətini cəlb etdi. Qısa müddətdə məlum oldu ki, Türkiyədə ölüm hökmünün tərəfdarları həddindən artıq çox imiş. Bəs görəsən, Azərbaycanda ölüm hökmünün bərpasının tərəfdarları varmı? İslam dinində ölüm hökmü necə təsbit olunur? Hansı hallarda günahkar ölüm cəzasına məhkum edilə bilər?**

# Ölüm hökmü lazımdırmı...

## Türkiyədə bu məsələ dartışılmaqda davam edir; Azərbaycanda da ölüm hökmünün tərəfdarları varmı?

"Yeni Müsavat"ın suallarını cavablandıran **Milli Məclisin deputatı Fazil Mustafa** hamilə qadınları və uşaqları qətlə yetirənlərin ölüm cəzasına məhkum edilməsini düşündüyünü bildirdi: "Mənim də bu məsələdə Azərbaycan ictimaiyyətinə bəlli olan fikirlərim var ki, hamilə qadınların, körpə uşaqların vəhşicəsinə qətlə yetirilməsinə görə ölüm hökmünün tətbiqi vacibdir. Mən bu fikirmdə indiyə qədər də qalıram. Amma digər məsələlərdə ölüm hökmünün saxlanması daha böyük problemlər yarada bilər. Yəni "darbə" və ya hər hansı bir məsələdə rolu olmuş şəxslərin hansısa formada edam olunması, siyasi hakimiyyət uğrunda mübarizə fonunda bunun edilməsi doğru olmazdı.

Təbii ki, cəzalandırılmalıdır, lakin birbaşa ölüm hökmünə uyğunlaşdırılacaq bir məsələ deyil. O baxımdan ki, 10-15 ildən sonra o insan bəraət də ala bilər, günahsızlığı ortaya çıxa bilər. Hansısa siyasi gərginlik dövründə kimlərisə ittiham etmək mümkündür. Hüquq da çox vaxt siyasətə tabe olduğuna görə bu məsələdə siyasətin qərarlarını dəstəkləyə bilər. Hesab edirəm ki, bu məsələdə ömürlük həbs cəzası daha uyğundur, ümumiyyətlə, Avropaya inteqrasiya ilə bağlı da bu məsələlərdə həssas davranılması vacibdir".

**F.Mustafa onu da bildirdi ki, Türkiyədə ölüm hökmünün qəbul ediləcəyini güman etmir:** "Çünki bu, tam olaraq Türkiyənin Avropa ilə əlaqəsinin kəsilməsi deməkdir. Türkiyədə çevrilişə cəhddən sonrakı 10 günlük gərgin atmosferdə kütlənin istəyini təkrarlamaq baxımından bu şüarlara dəstək gəldi, elita da dəstək verdi. Lakin sonradan sağlam beyinlə düşünəndə anlaşılır ki, ölüm hökmünün tətbiq olunması hakimiyyətin özü üçün də faydalı deyil. Çünki hər hansı ölüm hökmü başqalarının qəzəblənməsinə səbəb olacaq. Xüsusilə də siyasi motivli məsələlərdə revanşist duyğuların ortaya çıxmasına səbəb ola bilər. Sabah kim kimi üstələdisə, məğlub olanı edam kötüyünün altına göndərə bilər. Ona görə də, məncə, Türkiyə bu məsələdə soyuqqanlı qərarlar qəbul edəcək".

**Politoloq Ərəstun Oruclu isə bu qərarın hər mənada yanlış olduğunu və arzuolunmaz nəticələrə gətirib çıxaracağını qeyd etdi:** "Bu çox mübahisəli məsələdir, uzun müddətdir müzakirə olunur. Türkiyədə ölüm hökmünün gündəmə gəlməsi son baş verən hadisələrlə bağlı deyil. Son hadisələr də daxil olmaqla, onun ardınca davam edən kütləvi repressiyalar hazırkı hakimiyyətin avantürist siyasətidir. Türkiyənin düşdüyü çətin geosiyasi situasiyada hakimiyyəti qorumaq cəhdidir. Mənim fikrimcə, ölüm hökmü məsələsi praktik tətbiqindən daha çox, cəmiyyətdə qorxu yaratmaq üçündür. Bu kontekstdə ölüm hökmünün Azərbaycanda da, başqa dövlətlərdə də bərpası mümkündür. Bunu istisna etmirəm. Azərbaycanda bir qədər çətindir. Çünki Azərbaycan Türkiyədən fərqli olaraq kiçik ölkədir və kifayət qədər ciddi beynəlxalq öhdəlikləri var. Ancaq hesab edirəm ki, Türkiyədə baş verənləri Azərbaycana imitasiya eləmək lazım deyil. Ümumiyyətlə, bugünkü Türkiyədən bacardıqca uzaq məsafədə olmaq lazımdır. Çünki Türkiyə çox pis yol gedir. Ölkənin hazırkı iqtidarı onu yanlış istiqamətə yönəldir. Biz onların getdiyi yolu getməməliyik. Bu, Azərbaycanın gələcəyi üçün də, dövlətçilik üçün də yaxşı heç nə vəd etmir. Bu baxımdan, Türkiyənin əcaib təşəbbüslərindən kənarda durmaq lazımdır. Onları Azərbaycanla bağlı nə gündəmə gətirmək, nə də tətbiq etmək lazımdır. Cəmiyyətdə ölüm hökmünə münasibət hər zaman fərqli olub. Ailə-məişət zəminində törədilən cinayətlərə görə bir çox hallarda ölüm hökmünün tətbiqini vacib hesab edirlər. Lakin bu istiqamətdə heç vaxt ciddi çağırışlar və ya kütləvi fəaliyyət olmayıb".



Fazil Mustafa



Kənan Rövşənoğlu

**İslam dinində ölüm hökmünə münasibətə gəlincə, dini məsələlər üzrə ekspert Kənan Rövşənoğlu bildirdi ki, İslam şəriətində bir çox cinayətlərə görə ölüm hökmü cəzası verilir:** "Bunlar əsasən Quranda qeyd olunan ağır cəzalar, qisas tələb edən hadisələrə görədir. Ancaq ümumiləşdirsək, İslam hüquqnda 3 əsas məsələ üzərindən ölüm hökmü cəzası verilir. Birincisi, insanın canına, namusuna və malına qəsdə görə ölüm hökmü cəzası verilir. Yəni bir insanı biləndən, qəsdlə öldürməyə görə, Quran ayələrinə əsasən qisas hökmü verilir. Yəni məhkəmədə bu işin qəsdlə törədildiyi sübut olunarsa, həmin adam edam cəzasına məhkum olunur. Lakin ölənin tərəfi bağışlaya bilər. Quranda "Ey iman gətirənlər! Öldürülənlərə görə qisas almaq sizə vacib edildi. Azad kəsə görə azad olandan, köləyə görə kölədən, qadına görə qadından (qisas alın!) Əgər (qatil) qardaşı (ölənin varisləri) tərəfindən (qanbahası müqabilində) bir şeylə əfv edilsə, onda insafla davranmalı və (qanbahası) ona müvafiq qaydada ödənilməlidir. Bu, Rəbbiniz tərəfindən bir yüngülləşdirmə və mərhəmətdir. Bundan sonra kim həddi aşsa, onun üçün üzücü bir əzab vardır" *(Bəqərə 178)*. İkinci namus cinayətidir, bir çox İslam hüquqçularına görə, müəyyən şərtlərdə təcavüzə görə edam cəzası verilir. Üçüncü isə müsəlmanın malına qəsddir. İndi də bir çox müsəlman ölkələrində soyğunçular, qarətçilər üçün edam cəzası verilir. Burada da şərtlər və hadisəni törədən adamın bu cinayəti hansı şəraitdə törətməsi nəzərə alınır".

❑ **Nərgiz LİFTİYEVA**

# Qiyamçı türk generalları Gürcüstanı necə çiçəkləndirdi...

## Türkiyənin itirdiyi 8 milyon turist Gürcüstana axışır

**Türkiyə 2016-cı ildə turizm mövsümünə uğursuz şəkildə başlasa da sonradan Rusiya ilə əlaqələrin düzəlməsi ilə ümidlər artmışdı. Lakin bu dəfə də turizmdə soyuq küləklər əsməyə başladı. 10 gün öncə yaşanan çevrilişə cəhdin ardından turizm şirkətlərinin satdığı əksər turpaketlər ləğv edildi. Bu il Türkiyə təxminən bütövlükdə 8,3 milyon turist itirdi.**

Artıq bu sektorda çalışanlar ümidlərini 2017-ci ilə bağlayıblar. Bir çox ölkələrdən Türkiyəyə birbaşa uçuşların dayanması da turizmə ağır zərbə olub. Avropa ölkələrindən Türkiyəyə gələnlər Şərqi Avropaya, Rusiya və digər qonşu ölkələrdən gələnlər isə Gürcüstana üz tutublar. Bir sözlə, Türkiyədə çevriliş cəhdi Gürcüstan turizminə faydalı olub.

**İqtisadçı ekspert Vüqar Bayramov da "Yeni Müsavat"a açıqlamasında bu faktı təsdiqlədi:** "Son hadisələrlə bağlı Türkiyə turizminin zəifləməsi bu ölkəyə gələn turistlərin başqa ölkələri seçməsi ilə nəticələnir. Burada fərqli ölkələrə baxmaq lazımdır ki, Avropadan və digər inkişaf etmiş ölkələrdən Türkiyəyə turist kimi gələnlər artıq Türkiyəni deyil, Avropa ölkələrini seçməyə üstünlük verirlər. Türkiyə ilə qonşu olan Yunanıstana gedənlərin sayında artım var. Mərakeşə gedənlərin sayında da artımlar var. Türkiyəyə gələn, Avropanın müəyyən inkişaf etmiş ölkələrindən olanların böyük bir qismi artıq digər ölkələrə, xüsusən də Avropa ölkələrinə üstünlük verirlər. Amma qonşu ölkələrdən, o cümlədən Azərbaycandan Türkiyəyə gedənlər artıq Gürcüstan və müəyyən Şərqi Avropa ölkələrinə üstünük verməkdədirlər. Əvvəllər Türkiyədə dincələn vətəndaşlarımızın bir qismi Gürcüstanda dincəlməyə üstünlük verir. Gürcüstana marağın artması müşahidə olunur. Çünki bu ölkə məsafə baxımından yaxındır və xərc baxımından ucuz başa gəlir".




**Ekspertin sözlərinə görə, son illərdə Türkiyə turizmində ən çox payı olan ölkə məhz Almanya və Rusiya idi:** "Müxtəlif dövrlərdə Azərbaycan da turist göndərən ölkələr siyahısına daxil idi. Ancaq Almaniya və Rusiya aparıcı idi. Aparılan son monitorinqlər göstərir ki, almanların bir qismi terror hadisələri və çevriliş olayından sonra Türkiyəyə deyil, isti Avropa ölkələrinə üz tutmağa başlayıblar. Bir qismi isə Mərkəzi Şərqi Avropa ölkələrinə gediblər. Rus turistlər isə yaxın coğrafiya üzrə yayılıblar, Azərbaycana gələnlər də var, Gürcüstana gedənlər də var. Ona görə də Rusiya turistlərinin hərəkətində konkret istiqamət yoxdur. Onların bir qismi Rusiya-Türkiyə münasibətləri yaxşılaşdıqdan sonra yenidən Türkiyəyə getdilər, lakin son olaylardan sonra yenə də rus turistlərin sayı azaldı.

Türkiyə üçün turizm çox önəmlidir. Türkiyənin dövlət gəlirlərinin əhəmiyyətli hissəsi turizm gəlirlərinin payına düşür və çox təəssüf ki, son hadisələr Türkiyənin 2016-cı ildə turizmdən əldə edilən gəlirlərə ciddi şəkildə təsir göstərəcək".

**İqtisadçı ekspert onu da qeyd etdi ki, Gürcüstanın turizm potensialı var, lakin Türkiyə ilə müqayisə ediləcək qədər deyil:** "Lakin bu ölkə ərazi baxımından kiçikdir, onun qonşu ölkələrdən turist cəlb etmək imkanları genişdir. Avropadan və inkişaf etmiş ölkələrdən Gürcüstana daimi gələn bir təbəqə var ki, onlar hər zaman gəlirlər. İnfrastruktur baxımından Gürcüstanın turist qəbul etmə imkanları məhduddur. Hazırda Gürcüstanın təxminən 5 milyon turist qəbul etmə potensialı var. Ölkə həmin rəqəmi artırmağa çalışır, lakin imkanlar Türkiyə ilə müqayisəyə gələ bilməz. Türkiyəyə gedən turistləri sayı azaldıqdan sonra Gürcüstan bu imkandan ən çox faydalanan ölkələrdən biri oldu".

❑ **Nərgiz LİFTİYEVA**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 161 (6482) 26 iyul 2016



# Serj Sərkisyan diqqəti "xarici düşmən"ə yönəltməyə çalışır

## Ermənistan prezidentinin danışıqlar masasından yayınmaq üçün qurduğu təhlükəli oyunlar onun öz başında çatlaya bilər; **ekspert:** "Ermənistan hakimiyyəti əvvəlki tək Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasına razı deyil, böyük dövlətlər isə bu məqsədlə İrəvana təsir və təzyiq etmirlər"

**Ermənistanın paytaxtında bir həftədən çoxdur baş qaldıran gərgin hadisələr səngimək bilmir. İrəvanda polis-patrul alayının binasını ələ keçirən silahlı qrup bütün girovları azad etsə də, hələ də yerləşdiyi binanı tərk etməyib. Məlumata görə, paralel olaraq müxalif qruplar Sərkisyanın istefasını və həbsdə olan Jiray Sefilyanın azad olunmasını tələb edən silahlılara dəstək aksiyaları keçirir.**




Qeyd edək ki, girov əməliyyatı 17 iyulda başlayıb. Silahlı qrup polis bölməsinə daxil olaraq polkovniki öldürüb, prezident Serj Sərkisyanın istefasını tələb edib. Onlar radikal müxalifət lideri, keçmiş döyüşçü Jirayr Səfilyanın azad edilməsini istəyirlər. Sonrakı günlərdə silahlılar girovları azad etsələr də, təslim olmaqdan imtina ediblər.

İrəvanda post-patrul polisinin binasını nəzarətdə saxlayan yaraqlıların yerləşdiyi ərazinin üzərində vertolyotların uçduğu barədə xəbərlər var. Virtualaz.org xəbər verir ki, silahlı qrupun nümayəndələri vertolyotun 102-ci Rusiya hərbi bazasına məxsus olduğunu iddia edir. İrəvanın digər rayonları üzərində də hərbi vertolyotların uçuş keçirdiyi haqda xəbərlər var. Bu, silahlı qrupa hücum əməliyyatının başlamasına hazırlıq getdiyi barədə təxminlərə yol açıb. Hərçənd ki, Ermənistan hakimiyyəti vasitəçilik edən qarabağlı general Vitali Balasanyana vəd edib ki, silahlılara qarşı xüsusi əməliyyat keçirməyə hazırlaşmır. Bir gün əvvəl binanı tərk etmək istəməyən silahlı qrup hakimiyyətin onlara yemək verilməsini qadağan etməsinə etiraz olaraq, polis maşınını yandırıb. Özlərini "məğlubedilməz döyüşçülər" adlandıran silahlı qrupun üzvü Varujan Avetsyan qeyd edib ki, onlar həmçinin polisin pilotsuz uçan aparatını da vurublar. "Bizə yemək, işıq vermirlər, əlaqəni kəsiblər. Buna görə də biz etirazımızı bu cür bildiririk. Polis maşınını yandırdıq, həmçinin bizim olduğumuz zonaya göndərilən pilotsuz aparatı iki atəşlə məhv etdik. Əhval-ruhiyyəmiz yaxşıdır, çünki biz azad olunmuş ərazidəyik. Bütün xalqı etiraza səsləyirik", - deyə o bildirib. Hazırda silahlı qrup olduqları binanı tərk etmir və əvvəlki tələblərini irəli sürürlər. Ermənistanda müxalifət onlara dəstək verir. Dünən Sarkisyanın qiyamçıların lideri olan J.Sefilyanla görüşməyə razı olduğu haqda məlumatlar yayılmışdı. Lakin hakimiyyət əvvəlcə polis binasının azad olunmasını və qiyamçıların hüquq-mühafizə orqanlarına təslim olmasını tələb edib.

Bundan əvvəlki gün isə silahlı qrup polis maşınını yandırmışdı. Polis qiyamçıların ələ keçirdikləri post-patrul binasının divarlarından birini uçurmağa başlasa da, silahlıların zərərsizləşdirilməsi ilə bağlı əməliyyat sona çatdırılmayıb. Sərkisyan hakimiyyətinin qiyamçıların "nazı" ilə oynaması ortaya bir sıra suallar çıxarır, hətta bunun bir oyun olduğu barədə iddialar da var. Lakin bir sıra müşahidəçilərin fikrincə, hakimiyyətində parçalanma ab-havası hökm sürən Serj Sərkisyan sərt addımların xalqın etirazlarına səbəb olacağından və hakimiyyətə qarşı kütləvi itaətsizliyə start veriləcəyindən ehtiyatlandığı üçün qiyamçıları mühasirədə saxlamaqla onların təslim olmasını gözləyir. Qiyamçıların zəbt etdikləri alayın yaxınlığında dəstək mitinqi isə fasilələrlə davam edir. "Təsis Məclisi"nin üzvü Alek Ynigomşyan mitinqdə bildirib ki, alayın ərazisində rabitə, elektrik enerjisi kəsilib, qida yoxdur. Ərazidə yaralı var, amma ona tibbi yardım göstərilmir.

İşğalçı ölkədə vəziyyətin gərginləşdiyi şəraitdə Qarabağ danışıqlarının taleyinin necə olacağı gündəmin əsas müzakirə mövzularındandır. Bütün müşahidələr göstərir ki, S.Sərkisyan ölkəsində və Qarabağ cəbhəsində vəziyyətin gərginləşməsində maraqlıdır. Şübhə yox ki, işğalçı ölkənin prezidenti qalan il yarımlıq səlahiyyət müddətini də başa vurmaq üçün hətta xalqını qırğına verməkdən də çəkinməyəcək. Onsuz da hakimiyyətə qan tökməklə yiyələnən Sərkisyanın başqa alternativi qalmayıb və o, bu günlərdə səslənən "Serj, rədd ol!" tələbinə əməl edib hakimiyyətdən gedərsə, pis perspektivlərlə qarşılaşacağını gözəl anlayır. Eyni zamanda Ermənistan prezidenti Qarabağ danışıqlarını pozmaqla ağasının - Rusiyanın güzəştlərlə bağlı təkliflərindən yayınmağa, Qarabağın işğalında rol oynamış cinayətkar dəstələrin qəzəbindən sığortalanmağa cəhd göstərir. Bir müddət əvvəl S.Sərkisyanın Qarabağa növbəti qanunsuz gəlişi zamanı veteranlarla bir araya gələrək "blindajlar qazın, onları möhkəmlədin, müharibə gözləyin. Əgər Azərbaycan Qarabağın öz müqəddəratını təyinetmə statusu ilə razı deyilsə, o zaman bizim başqa yolumuz qalmır, müharibə eləmək zorundayıq" - demişdi. Bununla Sərkisyan erməni xalqını və ona "asi" çıxmış müdafiə naziri Seyran Ohanyanı Azərbaycanla təhdid etməklə yanaşı, hakimiyyətinə qarşı çıxanları neytrallaşdırmağa, diqqəti "xarici düşmənə" yönəltməyə çalışmışdı. Cəbhədəki son gərginliklər, Azərbaycanın iki hərbçisinin qətlə yetirilməsi və bunun qarşılığında Azərbaycan ordusunun cavab tədbiri görməyə əl atmağa vadar olması da son nəticədə Sərkisyana məkrli planlarını davam etdirmək imkanı yaradır. Ancaq erməni prezident hələ anlamaq istəmir ki, o, olduqca qorxulu bir oyun oynayır və aprel hadisələri ona dərs olmalıdır. Ümumiləşdirsək, Ermənistan prezidentinin danışıqlar masasından yayınmaq üçün qurduğu təhlükəli oyunlar onun öz başında çatlaya bilər.

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Ermənistanın Dağlıq Qarabağ siyasəti artıq dalana dirənib:** "Rusiya, Qərb, ATƏT və təbii ki, Azərbaycan tərəfi məsələnin həllində müsbət bir addım atılmağını tələb edir. Sərkisyan və onun komandası isə hər cür yola əl atırlar ki, məsələ uzansın. Sərkisyandan olsa, bu gün istefa verib gedər ki, cavabdehliyi öz üzərinə götürməsin, lakin separatçılara verdiyi müstəqillik vədləri bunun qarşısını kəsir. Buna görə də tez-tez Dağlıq Qarabağa səfərlər edərək separatçılarla görüşür, müxtəlif variantlar təklif edir və bunun əsasında bəyanatlar verir. Düşünürəm ki, İrəvanda təşkil edilən mitinqlər və qondarma müxalifətçi olan Səfilyan da bir siyasi gedişdir, səbəb olmasa da bir bəhanədir. Düzdür, bunula Qərb özünə yönümlü müxalifəti formalaşdırır və xalqı gələcək üçün hazırlayır. Bu, bir tərəfdən də Rusiyanın təsirinin azaldılması üçün edilir".

**A.Nağıyevin fikrincə, əgər proseslərin sonucunda Sərkisyan devrilsə belə, bu, münaqişənin həllinə müsbət təsir göstərməyəcək:** "Sərisyan bununla vaxtı uzada bilər. Lakin nə qədər və hara qədər? Buna görə də Rusiya generalitetinin İrəvana səfərindən sonra müxalifətin mitinqini dağıtmaq və girovları azad etmək qərarı verildi". **Politoloq qeyd etdi ki, Rusiya bu gün Ermənistanda münaqişələrin olmasının marağında deyil:** "Çünki istər siyasi, istər iqtisadi, istərsə də hərbi cəhətdən məğlub ola bilər və tam nəzarəti itirər. Ona görə də Sərkisyanı hakimiyyətdə saxlamağa məcburdur və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı təsirlərini gücləndirməlidir. Burada həm nüfuz məsələsi, həm də münaqişənin həlli müsbət nəticə versə, Qərb tərəfdən bir sıra güzəştlər ala bilər. Yəni Qərb və Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm bir dönüş yaranması üçün vəziyyətdən istifadə edərək həm Rusiyaya, həm də Ermənistana təsirini gücləndirməlidir".

***

Ötən həftə Milli Məclisin vitse-spikeri Ziyafət Əsgərov mətbuata açıqlamasında bildirmişdi ki, Bakı Dağlıq Qarabağ ermənilərinə Azərbaycanın tərkibində ən yüksək muxtariyyət statusu verməyə hazırdır. Bundan əvvəl isə S.Sərkisyan iddia etmişdi ki, bütün dünya yığılsa belə, Qarabağ ermənilərini Azərbaycanın tərkibində yaşamağa inandıra bilməz. Erməni prezidentin növbəti bəhanəsini kəsmək üçün Bakıdan verilən bəyanata qarşı tərəfdən reaksiya verilmədi, görünür, düşmən ölkənin hakimiyyəti bu kimi rəylərin erməni cəmiyyətində oturuşmasında maraqlı deyil. Bəs danışıqlarda Azərbaycanın bu mövqeyi ortaya qoyması hansısa nəticəni verə bilərmi?

Ermənistandakı hadisələr kontekstində də fikirlər maraqlıdır, ölkə qarışıb, Sərkisyan bu qarışıqlıqdan necə çıxacaq və Qarabağ məsələsi arxa plana keçə bilərmi?

**A.Nağıyev hesab edir ki, burada əsas məqam hansı mərhələdən sonra muxtariyyət veriləcəyindən gedir:** "Məlumdur ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində istinad oluna biləcək sənədlər Madrid prinsipləri və Kazan protokolları eyni zamanda BMT-nin qətnamələri ola bilər. Bu sənədlərdə də əsas müddəalar erməni qoşunlarının qeyri-şərtsiz olaraq Azərbaycanın işğal altındakı ərazilərindən çıxarılması və bundan sonra Azərbaycanın ərazi bütövlüyü çərçivəsində muxtariyyətin və ya digər statusun verilməsindən söhbət gedə bilər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə hesab edir ki, Ziyafət Əsgərov haqlıdır:** "Dağlıq Qarabağ ermənilərinə Azərbaycanın tərkibində yüksək muxtariyyət status verilə bilər. Bunu biz hər zaman təkrarlamalıyıq ki, beynəlxalq aləm görsün ki, xoşniyyətliyik və Dağlıq Qarabağda yaşayan erməniləri Azərbaycan vətəndaşları sayır və onlara yüksək haqlar verməyə hazırıq. İkincisi, bu mesajın əhəmiyyəti odur ki, Ermənistan hakimiyyəti və beynəlxalq aləm də bir daha anlasınlar ki, yüksək muxtariyyət bizim maksimum güzəştimizdir. Bundan o tərəfə müstəqillikdir ki, separatçılar belə bir təklifi Azərbaycandan heç zaman gözləməsinlər. Prezident İlham Əliyev də dəfələrlə vurğulayıb ki, Dağlıq Qarabağa dünyada və Avropada mövcud olan istənilən muxtariyyət statusu verilə bilər. Mənim özüm dünyada mövcud olan 10 muxtariyyət modelini tətbiq edib kitab yazmışam. Gəldiyim qənaət odur ki, bu modellərin hər biri Dağlıq Qarabağ üçün yararlıdır, ermənilərin və azərbaycanlıların birgə təhlükəsiz yaşayışına təminat verir".

**E.Şahinoğlunun fikrincə, sadəcə, Ermənistan hakimiyyəti hələ işğalçılıq xəstəliyindən qurtula bilmir:** "Deməli, bu xəstəliyi onun canından biz çıxartmalıyıq. Necə çıxara biləcəyimizi isə aprel ayında göstərdik". **Siyasi təhlilçi prezidentlərin növbəti görüşündən real nəticə gözləmir:** "Ümumiyyətlə, masa arxasında konstruktiv danışıqların getdiyinə əmin deyiləm. Çünki birincisi, Ermənistan hakimiyyəti əvvəlkitək Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasına razı deyil, ikincisi, böyük dövlətlər bu məqsədlə İrəvana təsir və təzyiq etmirlər. Digər bir məqamı da nəzərə almaq məcburiyyətindəyik. Ermənistan prezidenti Serj Sərkisyanın ölkəsindəki mövqeləri getdikcə zəifləyir. Ermənistan faktiki vətəndaş müharibəsi astanasındadır. Belə vəziyyətdə o ancaq hakimiyyətini və ailəsini qorumaq haqqında düşünür, Dağlıq Qarabağ onun üçün arxa plana keçib. Ona görə də belə vəziyyətdə Sərkisyanın danışıqlarda geri addım atacağını gözləmək əbəsdir. Məsələ burasındadır o gözləyə bilər, biz gözləyə bilmərik. Ona görə də bir müddət sonra yenidən işğalçıya təzyiq etmək məcburiyyətində qalacağıq".

**Hələ ki Sərkisyanın oyunlarını seyr edən ATƏT-in Minsk Qrupunun həmsədrləri isə işğalçıya təpki göstərmək əvəzinə, növbəti dəfə tərəflərin "atəşkəs rejiminə ciddi riayət etməli olduğu barədə" çağırış etməklə kifayətləndilər. Özü də iki Azərbaycan hərbçisinin şəhid olmasından sonra yox, bir erməni əsgərinin Azərbaycan torpağında cavab atəşi nəticəsində öldürülməsindən sonra.**

YENİ MÜSAVAT
N 161 (6482) 26 iyul 2016




# Büdcədəki 700 milyon manatlıq kəsirin səbəbi nədir?

## Natiq Cəfərli: "Büdcə kəsirinin olacağı öncədən bəlli idi"

**Maliyyə Nazirliyi büdcənin icrasına dair operativ məlumat yayıb. Məlumatda bildirilir ki, 2016-cı ilin altı ayında dövlət büdcəsinin mədaxili 6 milyard 133,8 milyon manat, xərcləri 6 milyard 821,5 milyon manat olmuş, 687,7 mln. manat məbləğində büdcə kəsiri (defisit) yaranıb.**

687,7 milyon manatlıq kəsir ilə bağlı ictimaiyyətdə suallar yaranıb, bu kəsir hökumətin yığa bilmədiyi pul kimi şərh olunur. Maliyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mais Piriyev isə "Marja"ya bildirib ki, yaranmış kəsir dövlət büdcəsinin vahid xəzinə hesabında olan qalıq hesabına bağlanıb: "2016-cı ilin altı ayında 687,7 milyon manat məbləğində yaranmış kəsirin maliyyələşdirilməsi 2016-cı ilin əvvəlinə dövlət büdcəsinin vahid xəzinə hesabında olan qalıq hesabına bağlanılmışdır. Cari ilin yanvar-iyun aylarında dövlət büdcəsinin vəsaiti hesabına əsas dövlət vəzifələrinin yerinə yetirilməsi, əmək haqqı, müavinət, pensiya və digər sosial xərclər, həmçinin dövlət borcu üzrə öhdəliklər və digər xərclər üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən Maliyyə Nazirliyinə təqdim etdikləri sifarişlər tam və vaxtında maliyyələşdirilib".

Bəs görəsən, dövlət büdcəsində yaranmış 700 milyon manata yaxın kəsirin səbəbi nədir? Vergilər Nazirliyinin və ya Dövlət Gömrük Komitəsinin vergi yığımlarında hər hansı problem yaşanıbmı?

**İqtisadçı ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əslində büdcə kəsirinin olacağı öncədən bəlli idi və büdcə planlaşdırılarkən kəsirli planlaşdırılmışdı: "Vergilər Nazirliyi ilk 6 ayın nəticələrinə görə öz tapşırıqlarını 103 faiz yerinə yetirdiyi haqda məlumat verdi. Gömrükdə isə hətta proqnozlardan 30 faiz artıq yığım olub. Deməli, vergi və gömrükdən gələn gəlirlərdə bir problem yoxdur. Problem ölkənin ümumi gəlirlərinin azalması ilə əlaqəlidir. Neftin qiymətinin azalması, ölkəyə gələn valyutanın həcmini də azaltdı. Büdcə kəsirinin olması öncədən planlaşdırılmışdı və görünən odur ki, daha artıq xərcləmələr həyata keçirilib. Fevral ayında büdcəyə dəyişikliklər edərkən bilərəkdən bu addım atıldı. Çünki xərcləmələrin və kəsirin artırılması yolu ilə müəyyən qədər gərginliyin aradan qaldırılması üçün kiçik layihələrə üstünlük verildi".

**N. Cəfərlinin sözlərinə görə, hökumət sosial gərginliyin aradan qaldırılması üçün müəyyən qədər büdcədə nəzərdə tutulmayan kiçik layihələr həyata keçirdi ki, bu, kəsiri formalaşdıran əsas amil oldu:** "Son zamanlar müşahidə edilən trend də odur ki, hökumətin qərarı ilə xırda layihələrə vəsaitlər ayrılır. Yol tikintisinə, təmir işlərinə 3 milyon, 5 milyon, 8 milyon-yəni xırda həcmli maliyyələr ayrılır və bu layihələr əsasən də regionlarda həyata keçirilir. Bu layihələrin hədəfi qismən də olsa sosial gərginliyi aradan qaldırmaq, müvəqqəti iş yerləri yaratmaq idi. Bu, tamamilə səhv bir yol olsa da, hökumət başqa çıxış yolu tapmadan bu addımların atılmasına lüzum gördü. Bu isə büdcə kəsirinin artırılmasının əsas səbəblərindən biri idi. Hətta vergilər və gömrük öz öhdəliklərini normadan artıq yerinə yetirsə də, hökumət artıq xərcləmələrə gedib. O xərcləmələrin də əsas səbəbi regionlarda kiçik çaplı çoxsaylı layihələr həyata keçirməklə insanları iş yeri ilə təmin etməkdir. Yəni dövlət büdcəsindəki kəsirin səbəbi bununla bağlıdır".

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycanın qonşu ölkələrə verdiyi kreditlər - məqsəd nədir?

## Ekspertlər bildirirlər ki, hökumət üzərinə götürdüyü öhdəliklərin maliyyələşdirilməsində getdikcə daha böyük çətinliklərlə qarşılaşır...

**Azərbaycanın dəmir yolu və yük daşımaçılığına önəm verməyə başlaması bu sahəyə bağlı layihələrə maliyyə ayırmasını zəruri edib. Bir müddət əvvəl Gürcüstana sərfəli şərtlərlə kredit verən hökumət artıq İranla bağlı bu addımı atmağa hazırlaşır. Bildirilir ki, Azərbaycan İrana 500 milyon dollarlıq kredit verəcək.**

İranın Azərbaycandakı səfiri deyib ki, Azərbaycan Mərkəzi Bankının İrana 500 milyon dollarlıq kredit verməsi məsələsi müzakirə edilir. "Azərbaycan Mərkəzi Bankının (AMB-nin) İrana 500 milyon dollarlıq kredit verməsi məsələsi müzakirə edilir", deyə İranın Azərbaycandakı **səfiri Mohsen Pak-Ayin** bildirib.

**O, məsələ ilə bağlı işçi qrupun da yaradıldığını söyləyib:** "Bununla əlaqədar yaradılmış işçi qrupun vəzifəsi sözügedən məbləğin necə və nə vaxt yatırılmasına dair müzakirələr aparmaqdır. Müzakirələr barədə elan ediləcək".

Bildirilir ki, Azərbaycan-İran Müştərək Komissiyası Rəşt-Astara dəmiryol xəttinin çəkilməsi üçün AMB-nin İran tərəfinə 500 milyon dollar verməsi şərtlərini müzakirəyə çıxaracaq.

Qeyd edək ki, bu il Azərbaycanla İranın dəmir yollarını birləşdirməyə imkan verəcək Astara çayı üzərində dəmir yolu körpüsünün təməlinin qoyulmasından sonra daha bir vacib addım atılıb. "Şimal-Cənub" dəhlizinin işləməsi üçün iyulun 15-də Nazirlər Kabineti "Xarici dövlətlərin yük avtomobillərinin, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələrinin yol vergisindən və dövlət rüsumundan azad olunması Qaydası"nı təsdiq edib. Qaydalara müvafiq olaraq Azərbaycan ərazisindən dəmir yolu ilə nəql edilməsi məqsədilə gətirilən yükləri daşıyan xarici dövlətlərin yük avtomobilləri, qoşqulu və yarımqoşqulu avtonəqliyyat vasitələri yol vergisindən və dövlət rüsumundan azad olunur. Eyni zamanda Azərbaycan ərazisinə dəmir yolu ilə gətirilən yükləri başqa ölkələrə daşıyan yük maşınları da vergi və rüsum ödəməyəcək.

Ekspertlər bildirirlər ki, Azərbaycanın məhz zamanında İranla dəmir yollarının birləşdirilməsi təşəbbüsü ilə çıxış etməsi Bakı üçün hazırda çox böyük strateji üstünlük yaradıb. Ekspertlərin fikrincə, tranzit daşımalarında Azərbaycan üçün rəqabət qabiliyyətini saxlamaq və daha yaxşı alternativlər təklif etmək və tərəfdaşları birgə layihələrə cəlb etmək olduqca mühümdür. Postneft iqtisadiyyatı da məhz bu prioritetləri və strateji yanaşmanı zəruri edir. Hökumətin bu sahədən gözləntisi böyükdür. Statistik məlumatlar isə göstərir ki, bu ilin yanvar-iyun aylarında 2015-ci ilin eyni dövrünə nisbətən nəqliyyat sektorunda yükdaşıma qiymətləri milli valyutada 34,7 faiz artıb.



**Ekspert Natiq Cəfərli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, Azərbaycanın bu cür layihələrə çox xərc qoyması doğru deyil:** "Azərbaycan Bakı-Tiflis-Qars dəmir yolunun demək olar ki, bütün xərclərini öz üzərinə götürüb. Gürcüstana da faizsiz kredit verir, 20 illik kreditdir. Bu kreditin ilk on ilində ümumiyyətlə faiz hesablanmır. Sonrakı illərdə isə çox cüzi faiz hesablanması olacaq. Gürcüstan bu yoldan qazandığı vəsait hesabına bu borcu qapadacaq. Azərbaycan onsuz da bu layihənin əsas maliyyələşdiricisidir. Ola bilər, doğrudan da maliyyə çatışmazlıqları problemi də yaşanır. Bundan başqa, Gürcüstanla Türkiyə ərazisində müəyyən ekoloji problemlər də qalxmışdı. Bəzi ciddi iradlar vardı, bununla bağlı da maliyyə ayrıldı. İranla əlaqələrə gəldikdə isə Azərbaycan həm də "Şimal-Cənub" dəhlizini işlətməyi və bunu aktiv hala gətirməyi düşünür. Amma Azərbaycan burada daha çox maraqlıdır deyə, İran təklif edib ki, Azərbaycan öz vəsaiti hesabına bəzi işləri görsün. Azərbaycan da razılaşıb. İndi Azərbaycan beynəlxalq layihələr çərçivəsində üzərinə o qədər böyük öhdəliklər götürüb ki, onların maliyyələşdirilməsində, öhdəliklərin yerinə yetirilməsində problemlər yaşanır. Ona görə də bu gecikmələr məhz bununla bağlıdır ki, Azərbaycan üzərinə götürdüyü öhdəliklərin maliyyələşdirilməsində getdikcə daha böyük çətinliklərlə qarşılaşır".

**İqtisadçı alim Elşad Məmmədov isə musavat.com-a bildirib ki, Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin reallaşması ilə bağlı deyim ki, Azərbaycan tərəfi bu prosesdə öz öhdəliklərini lazımi səviyyədə yerinə yetirib:** "Bu layihənin maliyyələşdirilməsində, layihə ilə bağlı təşkilati məsələlərdə Azərbaycan tərəfi öhdəliklərini tam şəkildə yerinə yetirib. Tikinti proseslərində ləngimə var. Hətta Gürcüstan ərazisində həyata keçirilən tikinti işlərinin də maliyyələşdirilməsində Azərbaycan tərəfinin böyük dəstəyi olub. Azərbaycan tərəfinin layihənin maliyyələşməsi prosesində xərcləri kəskin çox olub. Həmçinin Türkiyə ərazisində maliyyələşmə ilə bağlı müəyyən problemlər olub. Artıq neçənci dəfədir ki, region üçün çox önəmli hesab olunan bu layihənin tikintisində müəyyən ləngimələr olur. Biz bilirik ki, nəqliyyat dəhlizləri dünyada strateji önəm daşıyırlar. Ona görə belə layihələrin daha operativ şəkildə həyata keçirilməsi çox böyük iqtisadi məna daşıyır. Biz bilirik ki, bu layihə ilə bərabər, respublikada yeni nəqliyyat layihələri də planlaşdırılır, həyata keçirilir. Uzun müddətdir ki, "Şimal-Cənub" layihəsi ilə bağlı danışıqlar gedir. Hesab edirəm ki, bu layihələrin hər ikisi ölkə üçün çox böyük önəm daşıyır. "Şimal-Cənub" layihəsinin reallaşması üçün hökumətlər tərəfindən danışıqlar intensivləşməli, sürətlənməlidir. Çünki biz görürük ki, artıq ölkədə neft gəlirlərinin kəskin şəkildə azalması müşahidə olunur. Dövlət rəhbərliyi tərəfindən də artıq ölkədə neft erasının başa çatmasının anonsu verilib. Belə olan halda, ölkə iqtisadiyyatının dayanıqlı inkişafı üçün alternativ gəlir mənbələri axtarılmalıdır. Biz bilirik ki, dövlət rəhbərliyi tərəfindən ölkəyə yüklərin daşınmasında vacib tranzit ölkəyə çevrilməsi məsələsi gündəmə gətirilib. Prioritet istiqamət kimi bu, götürülüb. Ona görə də bu məsələlərdə, proseslərdə görülən işlər intensivləşməlidir. Təəssüf ki, bir sıra hallada ölkənin xarici partnyorları - Türkiyə, Gürcüstan ərazisində olan müəyyən problemlər, həmin ölkələrin daxili siyasətindən irəli gələn, həmin ölkələrdə müəyyən qüvvələr bu proseslərin ləngiməsinə çalışır. Ancaq hesab edirəm ki, bu proseslərdə artıq ölkə hakimiyyətinin siyasi iradəsi var və bu proseslərin sona çatdırılmasını biz müşahidə edəcəyik".

**Ekspertin sözlərinə görə, bu layihələr reallaşıb sona çatandan sonra hesab edirəm ki, ən önəmli məsələlərdən biri dəhlizlərin iqtisadi səmərəliliyinin təmin edilməsidir:** "Ona görə də artıq burada həmin o təşkilatın, Dövlət Dəmir yolu İdarəsinin artıq effektiv fəaliyyətindən çox şey asılı olacaq. Ona görə də hesab edirəm ki, müasir dünya standartlarına uyğun menecmentin təşkil olunması vacibdir ki, böyük xərclərlə, böyük investisiyalar bahasına başa gəlmiş bu layihələrin iqtisadi səmərəliliyini görə bilək. Çünki dünyada yükdaşımalar uğrunda çox ciddi rəqabət mövcuddur. Müxtəlif ölkələr tərəfindən rəqabət gedir. Yəni həm xarici siyasətində, həm qiymət siyasətində çevik, effektiv idarəetmə sistemi qurulmalıdır ki, bu layihələrin, konkret olaraq "Bakı-Tiflis-Qars" dəmir yolu layihəsinin iqtisadi səmərəliliyini biz müşahidə edə bilək. Ancaq bu halda biz büdcə gəlirlərinin müxtəlif istiqamətlərdən əldə edilməsinə nail ola bilərik. Artıq bu halda çox böyük sərmayə, investisiya hesabına başa gəlmiş layihənin səmərəsini görə bilərik".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 161 (6482) 26 iyul 2016







# Bakının ən böyük məktəblərindən biri "bomj"ların məskəninə çevrilib

## Bu təhsil ocağı özünün acınacaqlı dövrünü yaşayır; ərazisinin bir hissəsi zəbt olunub, bir neçə obyekti qəzalı vəziyyətdədir...

**Binəqədi rayonu, 9-cu mikrorayon ərazisində yerləşən 144 nömrəli tam orta məktəbin idman meydançası və yaşıllıq ərazisinin zəbt edilməsi barədə məlumat vermişdik. Tikinti şirkətlərindən biri məktəb ərazisini zəbt edərək orada yaşayış binası inşa edib.**

Sakinlərin və məktəb müəllimlərinin şikayəti əsasında dərc edilən həmin yazıdan sonra redaksiyamızla əlaqə saxlayan oxuculardan biri analoji vəziyyətin 171 saylı orta məktəbdə də hökm sürdüyünü bildirdi. Məktəb ərazisinin tamamilə nəzarətsiz vəziyyətdə olduğunu, hasarların uçurularaq ətrafda yaşayış binasının və fərdi yaşayış evlərinin tikildiyini deyən oxucunun qeyd etdiklərini yerindəcə araşdırmaq üçün adıçəkilən təhsil müəssisəsinə yollandıq.

Xətai rayonu, Neapol küçəsində yerləşən məktəbdə olarkən məktəb müəllimləri və ətrafda yaşayan sakinlərlə söhbət etdik. Əvvəlcə onu öyrəndik və şahidi olduq ki, Bakının ən böyük təhsil ocaqlarından biri olan 171 nömrəli məktəbin ərazisinin bir hissəsi həqiqətən də zəbt edilib.

Məktəb işçiləri ətrafda tikilən və artıq istifadəyə verilən çoxmərtəbəli yaşayış binasını, uçurulan hasarların və məhv edilmiş yaşıllıq ərazilərin yerində inşa edilmiş villaları göstərdilər. Şahidlər deyir ki, tikinti işləri 2008-2010-cu illərə təsadüf edir.

1979-cu ildə istifadəyə verilən 171 nömrəli məktəb SSRİ dövründə inşa edilən 3 ən böyük məktəbdən biridir. 2 tədris korpusu, böyük və kiçik akt zalları, yeməkxanası, kitabxanası olan məktəbin həyətyanı sahəsi olduqca böyükdür. Böyük olduğu qədər də nəzarətsiz və baxımsız vəziyyətdədir. Hasarı uçan, dəmir barmaqlıqları çıxarılan məktəbin həyəti axşamlar "bomj"ların məskəni olur.

Məktəbdə çalışanların musavat.com-a dediklərinə görə, 2008-ci ildə əsaslı təmir olunan təhsil ocağının zəbt edilən ərazilərində stadion olub. Bir məsələni də qeyd etmək yerinə düşər ki, məktəbin sabiq nazir Misir Mərdanovun zamanında əsaslı təmir edildiyi deyilsə də, həmin əsaslı təmir işlərindən nədənsə əsər-əlamət görmədik.

"Məktəbin yanında tikilən 14 mərtəbəli binanın yerində stadion var idi. Digər tikilən villaların yerində isə hərbi dərslərin keçirilməsi üçün sahə olub. Məktəbin 2014-cü ildə böyük və kiçik akt zalı, yeməkxana və kitabxanası əsaslı təmir edilərək istifadəyə verilib. Ancaq digər korpusları təmirsizdir", - deyə məktəbdə çalışanlar problemlərdən danışır və qeyd edirlər ki, məktəbin qəzalı vəziyyətdə olan bir neçə tikilisi artıq 1 ildən çoxdur ki, istifadə olunmur.

1500-dən çox şagirdin təhsil aldığı məktəbin idman meydançası zəbt edildikdən sonra süni örtüklü meydança salınıb. Məktəbin ərazisində uşaq - gənclər idman məktəbi də var. Bakının ən böyük məktəbinin indiki hala düşməsi prosesi isə müəllimlərin dediyinə görə, 10 il əvvələ təsadüf edir. Məktəbin ərazisinin bir hissəsi yuxarıda qeyd etdiyimiz məqsədlərlə zəbt edildikdən sonra təhsil müəssisəsinin hasarları da dağıdılıb. 2008-ci ildə görülən təmir işləri zamanı isə məktəbin ərazisinin bir hissəsi üçün yeni hasar çəkilib. Zəbt edilmiş ərazilər isə hasarlar arxasında qalıb.

Müəllimlər deyir ki, dəmir barmaqlıqların çoxu gecələr oğurlanıb. Məktəbin əsas iki girişi olsa da sonradan özbaşınalıqlar, hasarlarrın uçurulması, barmaqlıqların oğurlanmasından sonra hər yerdən məktəbin ərazisinə girib-çıxmaq mümkündür. Belə olan halda məktəbin mühafizəçisi də vəziyyətə nəzarət edə bilmir.

Başqa bir narazılıq doğuran məqam isə məktəbin ərazisinin bir hissəsinin zibillik kimi istifadə olunmasıdır. Ətrafda yaşayanların məktəbin ərazisinə tökdüyü zibili ya "JEK" işçiləri yandırır, ya da məktəb işçiləri təmizləmək məcburiyyətində qalırlar.

Xatırladaq ki, Bakının bu təhsil ocağı 2 il əvvəl direktorunun əməlləri ilə gündəmə gəlmişdi. Məktəbin o zamankı direktoru İradə Murğuzovanın banklardan müəllimlərin və digər işçilərin adına külli miqdarda kredit götürməsi və sonradan ödəməməsi ilə böyük qalmaqala səbəb olmuşdu. Direktorun bu əməlləri ifşa olunduqdan sonra o, 2014-cü ildə tutduğu vəzifədən kənarlaşdırılmışdı.

İndi məktəb müəllimləri və sakinlər tətil olduğunu və bu müddətdə qeyd edilən problemlərin öz həllini tapacağına ümid etdiklərini deyirlər.

❑ **İ.MURADOV**
**Fotolar müəllifindir**

# Britaniyanın yeni "dəmir ledi"si etimadı doğrulda biləcəkmi...

## Tereza Mey İngiltərə və dünya siyasətinə nə vəd edir?

**Məlum olduğu kimi, Böyük Britaniyada tarix təkrar olundu, baş nazir kürsüsünə yenidən qadın siyasətçi oturdu. Hazırda Britaniya hökumətinə sabiq daxili işlər naziri Tereza Mey rəhbərlik edir. Bəs görəsən, Tereza Mey kimdir? O da keçmiş qadın baş nazir Marqarit Tetçer kimi "dəmir ledi" ola biləcəkmi?**

"Yeni Müsavat" Tereza Meyin dosyesini araşdırıb.

Tereza Mey 1957-ci ildə İstbörndə (Eastbourne) dünyaya gəlib. Oksfordshire şəhərində ilk təhsilini alıb və Oksford Universitetinin coğrafiya fakültəsində ali təhsilini tamamlayıb. İş həyatına maliyyə sektorunda başlayan Tereza Mey 1997-ci ildə parlamentə daxil olub.

2010-cu ildə o, DİN başçısı vəzifəsinə gələrək ölkənin ən yüksək rütbəli qadın siyasətçisi olub. Tereza Mey idarəetmə sıralarında daha çox qadınların olması üçün kampaniya aparıb.

İntizamlı olması və sərt görkəmə görə Marqarit Tetçerə bənzədilən Mey ingilis mətbuatında "yeni dəmir ledi" olaraq təqdim edilir.

Britaniya mətbuatı Meyi həddən artıq temperamentli məktəbli oğlanlarla dolu otaqda sakit bir direktora bənzədib: "**O, özünü bir az kənarda saxlayır... Onun sərt mövqeyinə görə tənqidçiləri çoxdur. Bəziləri iddia edirlər ki, siyasi ikiüzlülüklə əllərini çirkləndirmək istəməsə də o, komandasına rəqibləri haqqında amansız brifinqlər buraxmaq göstərişləri verir**".



Baş nazir seçkilərində millət vəkilləri arasında aparılan səsvermədən əvvəl də ən şanslı namizəd hesab edilən Tereza Mey 165 səs toplayaraq rəqibi, Andrea Ledsom üzərində 99 səslə üstünlük qazanmışdı.

Tereza Mey Filip Mey adlı bankirlə evlidir. 36 ildir evli olan cütlüyün uşaqları yoxdur. Cütlük illər öncə universitetdə tanış olub evlənib.

T.Mey səssiz, sakit bir qadın kimi tanınır. Amma intizamlı işi ilə, başladığı layihələrdə müvəffəqiyyət qazanması ilə seçilən yeni baş nazir işində ciddi və proqramlı bir insandır. Yanında çalışanlar da onun liderlik bacarıqlarına tam olaraq etimad etdiklərini dilə gətirirlər. Siyasi həyatda ən böyük dəstəkçisi isə həyat yoldaşı Filip Meydir.

O, ölkəsinin Avropa Birliyindən çıxmasının tərəfdarı olmasa da, bu istiqamətdə addım atmaqdan çəkinmədiyini dilə gətirib və geriyə dönüşün olmayacağını bildirib: "**Kampaniya mübarizə apardı, səsvermə keçirildi, seçici fəallığı yüksək idi və xalq seçimini bildirdi. Aİ-də qalmağa, arxa qapıdan girməyə və ya ikinci referendum keçirməyə heç bir cəhd göstərilməməlidir**".

Tereza Mey Böyük Britaniyaya və dünya siyasətinə nə vəd edir?

Bu sualı cavablandıran politoloq, **"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** bildirdi ki, Tereza Mey haqqında hər hansı söz demək hələ tezdir. Onun siyasi idarəetmə istedadı Böyük Britaniyanın AB-dən ayrılmasını necə idarə etmə ilə ortaya çıxacaq: **"Tereza Meyin Marqarit Tetçer olması üçün Tetçer siyasətini yürütməsi lazımdır. Tetçer hakimiyyətə gələndə Böyük Britaniyada iqtisadi vəziyyət ağır idi. O, ilk növbədə ciddi addımlar atdı. Özəlləşdirməyə getdi, şaxtaların bir çoxunu bağladı, bu, kütləvi işsizlik yaratsa da o geri addım atmadı. Bir müddət sonra Britaniyada iqtisadi yüksəliş baş verdi. Lakin indinin özündə belə bir çox vətəndaşlar Tetçeri bağışlamırlar. Çünki onlar həmin dövrdə işsiz qaldılar. Daha sonra Tetçer çox uzaqgörən bir addım ataraq Malvin adaları uğrunda Argentina ilə savaşa girdi və bu savaşı da qazandı. Sovetlər Birliyinin çökməsində də mühüm rol oynadı. Lakin Tetçer bu addımları uzun illər ərzində atdı. Yeni baş nazir hələ fəaliyyətinə tam olaraq başlamayıb, onun necə bir nazir olacağını yaxın illərdə dəyərləndirmək olar. Bu saat onun qarşısında əsas məsələ Böyük Britaniya ilə Avropa Birliyi arasındakı ayrılma prosesini düzgün idarə etməkdir. Tereza Mey özü nazir olarkən Böyük Britaniyanın Avropa Birliyindən ayrılmasının tərəfdarı olmasa da, artıq əhali ayrılmağa səs verdi və o da bu istiqamətdə siyasət yürütməlidir. Bu siyasət nə dərəcədə effektiv yürüdüləcəksə, biz məhz ondan sonra yeni baş nazirin siyasətinə qiymət vermək imkanına malik olacağıq"**.

Politoloq onu da bildirdi ki, hazırda Britaniyada iqtisadi-siyasi böhran hökm sürür və yeni baş nazirin bunların öhdəsindən necə gələcəyi bəlli deyil: **"Böyük Britaniya hazırda ciddi çağırışlarla üz-üzədir. İqtisadi-siyasi problemlər var, terror məsələsi var. Əvvəl Böyük Britaniya Avropa İttifaqının tərkibində hərəkət edirdi, indi isə müstəqil hərəkət etmək məcburiyyətindədir. Lakin bunun nəticəsinin necə olacağını yaxın 5-6 il göstərəcək. Böyük Britaniyanın Avropa İttifaqından ayrılması ilə bağlı dünya siyasətində iki cür şərh var. Bir qisim bildirir ki, bu ayrılma uğur gətirəcək, iqtisadi qazanclar çoxalacaq, ikinci yanaşma isə belədir ki, əksinə, Böyük Britaniyanın Avropa İttifaqından ayrılması problemlər yaradacaq. Bu iki şərh arasında yeni baş nazirin necə hərəkət edəcəyini araşdırmaq lazımdır. Həqiqətən Tereza Mey Böyük Britaniyanı bu böhrandan xilas edə biləcəkmi? Terror mübarizədə uğur qazanacaqmı? Böyük Britaniyanı miqrant axınından uzaq saxaya biləcəkmi? Hazırda Böyük Britaniyada millətçi şüarlar səsləndirilir ki, bu ölkədə olan digər millətlər deportasiya edilsin. Bu da bir ciddi çağırışdır, ölkədə irqi ayrı-seçkilik başlayıb, polşalılara və çexlərə qarşı xeyli irqi ayrı-seçkilik başlayıb, hələ suriyalıları demirəm. Böyük Britaniya hökuməti qarşısında bu cür çağırışlar var. Yaxın zamanda biz biləcəyik ki, bu çağırışlara baş nazir necə cavab verə biləcək"**.

❑ **Nərgiz LİFTİYEVA**

# Bakıda iki nəfər qarpızdan zəhərlənib öldü



**Bakıda qida zəhərlənməsindən ölüm faktları qeydə alınıb. Nizami Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, rayon sakini Marina Nəcmuddinova qarpızdan zəhərlənərək ölüb.**

Digər hadisə isə Binəqədi rayonunda qeydə alınıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, rayon ərazisində yaşayan azyaşlı Adil Həşimov qarpızdan zəhərlənmə ilə xəstəxanaya gətirilib və orada ölüb.

Faktlarla bağlı araşdırma aparılır.

## Şamaxıda iki "VAZ" toqquşdu, sürücü öldü

**Şamaxı rayonunda bir nəfərin ölümü, iki nəfərin xəsarət alması ilə nəticələnən avtomobil qəzası baş verib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə iyulun 25-də səhər saat 8:30 radələrində Şamaxı-Göylər avtomobil yolunda qeydə alınıb.**

Rayon sakini 1978-ci il təvəllüdlü Soltanov Natiq Tapdıq oğlunun idarə etdiyi 56-BG-132 dövlət nömrə nişanlı, "VAZ 2106" markalı minik avtomobili qarşı tərəfdən gələn 1962-ci il təvəllüdlü Nəbiyev Pənah Qədir oğluna məxsus 56-BG-014 dövlət nömrə nişanlı "VAZ 2107" markalı minik avtomobili ilə toqquşub. Hadisə zamanı "VAZ 2106"-nın sürücüsü Natiq Soltanov və sərnişini 1985-ci il təvəllüdlü Əliyev Arif Şahlar oğlu müxtəlif dərəcəli bədən xəsarətləri ilə Şamaxı rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.

"VAZ 2107"nin sürücüsü Pənah Nəbiyev isə aldığı ağır xəsarətlər səbəbindən hadisə yerində dünyasını dəyişib.

Faktla bağlı Şamaxı Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

## Bakıda 2 əxlaqsızlıq yuvası aşkarlandı

**İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi Nizami rayonunda əməliyyat keçirib. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən axar.az-a verilən məlumata görə, Nizami RPİ əməkdaşları ilə keçirilən birgə əməliyyat tədbirləri nəticəsində Nurlan Qaraxanovun gəlir əldə etmək məqsədi ilə Q.Qarayev prospektindəki mənzilində əxlaqsızlıq yuvası təşkil etməsi müəyyən edilib.**

İdarənin Nizami rayonunda keçirdiyi digər əməliyyatda isə Bakı şəhər sakini Nərminə Məcidovanın gəlir əldə etmək məqsədi ilə qadınları fahişəliyə cəlb etməsi müəyyən edilib.

## Ucarda mağazadan oğurluq edən şəxslər tutulub

**Ucarda mağazadan oğurluq edilib. APA-nın yerli bürosunun xəbərinə görə, hadisə rayonun Təzə Şilyan kəndində baş verib. Kənd sakini Şöhrət Vaqif oğlu Səlimov ona məxsus mağazadan oğurluq olması barədə rayon polis şöbəsinə ərizə ilə müraciət edib.**

Rayon polis şöbəsinin əməliyyatçılarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluqda şübhəli bilinən Bakı şəhər Yasamal rayon sakinləri Oktay Ağa oğlu Kazımov və Allahverdi Məhərrəm oğlu Qurbanov saxlanılıb. Oğurluqda daha bir nəfərin, Şəmkir rayon sakini Seymur Məhəmməd oğlu Tağıyevin də iştirak etdiyi müəyyən edilib. Həmin şəxs Şəmkir Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən tutularaq istintaqa təhvil verilib. Faktla bağlı araşdırma aparılır.

## Sumqayıtda qadını öldürən kişi tutuldu

**Sumqayıtda qətl törədilib. Sumqayıt Şəhər Polis İdarəsindən APA-ya verilən məlumata görə, şəhər ərazisində yaşayan Gülyaz Musayevanın üzərində bıçaq xəsarətləri olan meyiti yaşadığı mənzilində tapılıb.**

Sumqayıt Şəhər Polis İdarəsinin 1-ci polis bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində qətli törətməkdə şübhəli bilinən Masallı rayon sakini Ramil Əbilov tutulub.


**Elan**

Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.

Əlaqə telefonu: (070) 335-90-15.



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Yuxusuzluq və yuxu pozuntuları**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
- **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
- **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
- Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Rusiyada azərbaycanlı polkovnik və diaspor fəalı naməlum şəraitdə ölüb

**Rusiya Federasiyası Udmurtiya Respublikasının İjevsk şəhərində azərbaycanlı polis polkovniki, diaspor fəalı ölüb. Udmurtiya Azərbaycanlıları Konqresindən APA-ya verilən məlumata görə, konqresin yaradıcılarından biri, baş sahə müvəkkili, əslən Azərbaycanın Cəlilabad rayonundan olan 1951-ci il təvəllüdlü Tofiq Haqverdi oğlu Kərimovun meyiti iki gün əvvəl yaşadığı evdə tapılıb. Meyit üzərində heç bir zorakılıq əlaməti aşkarlanmayıb. T. Kərimovun cənazəsi dəfn olunması üçün doğulduğu Cəlilabad rayonuna yola salınıb.**

T. Kərimov həm polisdəki fəaliyyətinə, həm də diaspor fəaliyyətinə görə Rusiya prezidenti tərəfindən bir neçə dəfə mükafata layiq görülüb.

## İstirahət günlərində yol qəzalarında 6 nəfər ölüb, 22 nəfər xəsarət alıb

**İstirahət günləri Azərbaycanda baş verən yol-nəqliyyat hadisələrinin statistikası açıqlanıb. Daxili İşlər Nazirliyindən APA-ya verilən məlumata görə, şənbə-bazar günləri respublikanın avtomobil yollarında 13 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 6 nəfər ölüb, 22 nəfər xəsarət alıb.**

## Bakı sakini dərman zəhərlənməsindən öldü

**Bakı sakini dərman zəhərlənməsindən ölüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, hadisə iyulun 24-də Nərimanov rayonu ərazisində baş verib. Bakı şəhər sakini Elnur Hümbətov dərmandan zəhərlənmə ilə xəstəxanaya gətirilib və orada ölüb.**

Faktla bağlı araşdırma aparılır.

## Bu gün Azərbaycanda hava şəraiti yağmurlu olacaq

**Bakıda və Abşeron yarımadasında iyulun 26-da hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən "Report"a verilən məlumata görə, iyulun 26-sı səhər yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu Abşeron yarımadasında gecə 20-24, gündüz 27-32, Bakıda gecə 21-23, gündüz 27-31 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25, gündüz 28-33, dağlarda gecə 10-15, gündüz 18-23 dərəcə isti olacaq.

Atmosfer təzyiqi 755 mm civə sütunundan 759 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 21-22, Buzovna, Mərdəkan, Şüvəlanda 22-23, Türkan, Hövsan, Sahil, Şıxda 24-25 dərəcə isti olacağı gözlənilir.

Tibbi-meteoroloji proqnoza görə, iyulun 26-27-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü, həmçinin iqlim normasına yaxın temperatur şəraiti meteohəssas insanlar üçün əsasən əlverişlidir.


bakcell

## "Bakcell"dən yeni Klass M tarifi: həftədə cəmi 2 AZN

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet Provayderi «Bakcell» şirkəti yeni həftəlik Klass M tarif paketini təqdim edir.**

**Klass M tarifi abunəçilərə hər həftə 2 manat ödəməklə ölkədaxili 50 dəqiqə danışıq, 100 MB həcmində internetdən istifadə və "WhatsApp"dan pulsuz yararlanmaq imkanı qazandırır. Bu tarif paketinə qoşulmaq üçün *202#YES yığmaq kifayətdir.**

**"Klass tarifinə qoşulan «Bakcell» abunəçiləri bir çox unikal imkanlar əldə edirlər. Abunəçilərin müxtəlif mobil xidmətlərə olan ehtiyacı müxtəlifdir. Biz onların mobil data, səs və SMS xidmətinə olan tələbatını nəzərə alaraq fərqli abunəçi qrupları üçün fərqli Klass paketləri təqdim edirik",- deyə «Bakcell» şirkətinin baş marketinq və satış direktoru Fedja Hadziç bildirib.**

**Bu, müxtəlif Klass tarif paketlərinin istifadəçiləri üçün yaradılan ilk imkan deyil. Hazırda bütün Klass abunəçiləri səs və mobil data xidmətlərindən istifadə edərkən vəsaitlərinə qənaət edə və istədikləri qədər ünsiyyət qura bilirlər.**

**Bununla yanaşı, Klass abunəçiləri hazırda "Whatsapp" mobil tətbiqindən pulsuz istifadə edirlər.**

# I və IV ixtisas qrupu üzrə 22 mindən çox abituriyent 0-200 bal toplayıb

## Bu qruplar üzrə 6 abituriyent maksimum nəticə - 700 bal yığıb

**Bu il Azərbaycanın ali təhsil müəssisələrinə cari ilin məzunları üçün I və IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanının statistik göstəriciləri məlum olub.**

APA-nın apardığı araşdırma nəticəsində məlum olub ki, IV ixtisas qrupu üzrə imtahan verən 5340 abituriyentdən 2823 *("Baytarlıq", "Su bioehtiyatları və akvabitkilər" ixtisasları, həmçinin Azərbaycan Dövlət Aqrar Universitetinin "Ekologiya" və "Əczaçılıq" ixtisasları üzrə müsabiqə iştirakçıları istisna olmaqla)* nəfər 200 baldan yuxarı nəticə göstərərək müsabiqədə iştirak etmək hüququ əldə edib. Onlardan 621-i 200-300 bal, 566-sı 300-400, 588-i 400-500, 602-si 500-600, 446-sı isə 600-700 bal arası nəticə göstərib. Müsabiqə şərtini ödəyə bilməyən 2517 abituriyent 0-200 bal toplayıb.

Bu il IV ixtisas qrupu üzrə 3310 plan yeri ayrılıb, onlardan 1970-i Azərbaycan, 155-i rus, 1185-i isə birgə müsabiqə üçün nəzərdə tutulub. Qəbul planından 1405-i dövlət sifarişli yerlərin payına düşür.

Cari il I ixtisas qrupu üzrə isə 31397 abituriyent imtahan verib. İmtahan nəticələrinə əsasən, 11406 abituriyent *("Memarlıq", "Aqromühəndislik", "Torpaqşünaslıq və aqrokimya", "Balıqçılıq və balıqçılıq təsərrüfatı işi", "Meşəçilik", "Aqronomluq", "Zootexniklik, ixtisasları, həmçinin Azərbaycan Dövlət Aqrar Universitetinin "Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi" ixtisası üzrə müsabiqə iştirakçıları istisna olmaqla)* müsabiqədə iştirak etmək hüququ əldə edib. Onlardan 4902 nəfər 200-300, 3035 nəfər 300-400, 1783 nəfər 400-500, 1114 nəfər 500-600, 572 nəfər isə 600-700 bal arası nəticə göstərib.



İmtahan nəticələrinə əsasən, I ixtisas qrupu üzrə keçirilən imtahanda müsabiqə şərtini ödəyə bilməyən 19991 nəfər isə 0-200 bal toplayıb.

“Riyaziyyat”, “Fizika”, “Nəqliyyat tikintisi mühəndisliyi”, “İnşaat mühəndisliyi”, “İnformasiya texnologiyaları”, “Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi” ixtisasları üzrə müsabiqədə ümumi balı 250-dən az olmayan 8741 abituriyent, “Kompüter elmləri” və “Geologiya” ixtisasları üzrə müsabiqədə isə ümumi balı 300-dən az olmayan 6504 abituriyent iştirak edə bilər.

Bu il I ixtisas qrupu üzrə 13632 plan yeri ayrılıb, onlardan 11226-sı Azərbaycan, 1357-si Rus, 1149-u isə birgə müsabiqə üçün nəzərdə tutulub. Plandan 5441-i dövlət sifarişli yerlərin payına düşür.

Ümumilikdə, bu il ali məktəblərin I və IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanlarında 36 737 abituriyent iştirak edib. Onlardan 14229-u 200 baldan yuxarı nəticə göstərərək müsabiqə şərtini ödəyib.

Hər iki qrup üzrə 22 508 abituriyent isə müsabiqədə iştirak etmək üçün 200 balı toplaya bilməyib. Bu da imtahanda iştirak edən abituriyentlərin 61%-dən çoxunu təşkil edir.

Xatırladaq ki, I və IV ixtisas qrupu üzrə qəbul imtahanlarında 6 abituriyent ona təqdim olunmuş bütün test tapşırıqlarına düzgün cavab verərək maksimum nəticə - 700 bal toplayıb.

Qeyd edək ki, ixtisas seçimi qəbul imtahanları başa çatdıqdan sonra *(həm əvvəlki illərin, həm də cari ilin məzunlarının)* bütün ixtisas qrupları üzrə iyulun 29-dan avqustun 10-dək aparılacaq. Hər bir qrup üzrə ixtisasların müsabiqəsində yalnız tələb olunan müsabiqə şərtlərini ödəmiş abituriyentlər iştirak edə bilərlər. 2016/2017-cı tədris ili üçün I, II, III və IV ixtisas qruplarının müsabiqəsində (ixtisas seçimində) ümumi balı 200-dən, hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilər. Ümumi balı 350 və daha çox olan abituriyentlərin müsabiqəyə buraxılmaları üçün onların fənlər üzrə cavablarına nisbi bal məhdudiyyəti tətbiq olunmur. Dövlət sifarişi əsasında ayrılmış yerlərin ixtisas seçimində ümumi balı 250-dən və hər bir imtahan fənni üzrə ayrılıqda topladığı nisbi balı 10-dan az olmayan abituriyentlər iştirak edə bilərlər.

# Satışda xərçəng yaradan tomat pastaları var






**Eyyub Hüseynov:** “Bu cür maddələr insanları tədricən zəhərləyir”

**Tahir Əmiraslanov:** “Əgər aldığınız tomat pastası qıcqırıbsa, onu atmaq lazımdır”

**Adil Qeybulla:** “Bu maddələr xərçəng xəstəliyinə səbəb olur”

**Bu gün satışda yerli və xarici istehsal olan bir çox tomat pastaları satılır. Bu tomat pastalarının bəzilərində onun tərkibi, yararlılıq müddəti olsa da, bəzilərində bu göstəricilər olmur. Bir sıra tomat pastaları da var ki, onun tərkibinə vurulan maddələr, qida əvəzləyiciləri həddindən artıq olur ki, bu da insan səhhəti üçün zərərlidir. Bu cür zərərli tomat pastalarından biri də Rusiya istehsalı olan “Senyor” və “SSSR” markalı tomat pastalarıdır. Bu pastaların tərkibi xərçəng xəstəliyinə səbəb olur.**




“Yeni Müsavat”ın ötən sayında da bu barədə məlumat vermişdik. Mağazalarda apardığımız müşahidə zamanı bu təhlükəli məhsullara rast gəldik.

Rusiyada istehsal olunan “Senyor” və “SSSR” markalı tomat pastası məhsullarının tərkibində pomidorla yanaşı, insan orqanizmi üçün təhlükəli benzoy və sorbat turşuları, şəkli dəyişdirilmiş kartof nişastası və natrium benzonat var. Bu məhsullar xörək hazırlanan zaman temperaturun yüksəlməsi nəticəsində xərçəng yaradan maddəyə çevrilir. Görünür ki, kimlərisə insanların səhhəti yox, ciblərini doldurmaq düşündürür.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bu cür tomatların insanları tədricən zəhərlədiyini dedi:** “Bu tomat pastalarının istehsalçısının özü etiraf edir ki, məhsula nələri qarışdırıb. Bunu tomat pastasının üzərində qeyd edir. Bütün dünyada, bütün zamanlarda istehsalçılar adətən zərərli qatqıları gizlədirlər. Əgər istehsalçı bu tomat pastalarının üzərində zərərli maddələri qeyd edibsə, demək ki, doğrudan da insan həyatı üçün bu, arzuolunmazdır. Ümumiyyətlə, Azərbaycanda həddindən artıq anormal vəziyyətdir. İstehsal edilən kütləvi konservləşdirilmiş hər bir malın üzərində arzuolunmaz maddələr olur. Lakin onların müəyyən norması olur. Düşünürəm ki, o malların üzərinə normaya uyğun maddələr vurublar. Ancaq o maddələr insanları tədricən zəhərlənməyə məruz qoyur. Dünyanın mübarizə apardığı bir çox qidalar var ki, Səhiyyə Nazirliyi onların satışına icazə verir. Bu tomatların satışına da Səhiyyə Nazirliyi icazə verib. Yəni biznes üçün qurulmuş rahat şəraitdən sui-istifadə olunur və ölkənin əmtəə bazarı sürətlə çirklənir”.

**Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanov isə ən yaxşı və zərərsiz tomat pastasının ev üsulu ilə hazırlanmış tomat pastaları olduğunu dedi:** “Əvvəllər pomidoru əzib duzlayıb qatılaşdırıb bağlayırdılar. Dədə-babadan belə etmişik və nə qədər desən saxlamaq olurdu. Satışda olan tomatların tərkibinə nələr əlavə etdiklərini bilmirəm. Çünki mən o sahə üzrə mütəxəssis deyiləm. Əgər aldığınız tomat pastası qıcqırıbsa, onu atmaq lazımdır. Onu yenidən qaynadanda ola bilər ki, bəzi mikroblar ölsün. Amma orada kimyəvi maddələr əmələ gəlir. Axı mən o hazır tomatların içərisinə hansı qatqıların vurulduğunu bilmirəm. Ona görə də ola bilər ki, bu tomatlar qıcqıran zaman qaynatmaq kimyəvi maddələrin əmələ gəlməsinə səbəb olsun. Bir vaxtlar pomidordan nə qədər insan zəhərlənib ölmüşdü. Yəni hər şey ola bilər. Ona görə də yaxşı olar ki, xarab olmuş məhsulu yenidən istifadə etməsinlər, atsınlar. Amma dədə-babadan pomidoru əzib və ya əzmədən bağlayıb saxlamağın üsulu var. Onları bankaya yığıb strelizə edib bağlayırlar. Bu pomidorlar illərlə xarab olmadan qalır. Amma zavodlarda bunu necə edirlər bilmirəm. Evdə indi il boyu təzə pomidor olur. Çox adam tomatdan o qədər də istifadə etmir. Məncə, restoranlarda tomatdan çox istifadə etməməlidirlər. Çünki təzə pomidorlar var. Tomat pastasından istifadə etmək gərəkli də deyil. Əvvəllər əti qaxac edirdilər. Bu hələ də bəzi rayonlarımızda qalıb. Əvvəl soyuducu yox idi, indi var. Çalışmaq lazımdır ki, hər şeyin təzəsi yeyilsin. Ev şəraitində bağlanan pomidorun qıcqırıb-qıcqırmaması da evdə onu bağlayan xanımın bacarığından, duzu necə vurmasından asılıdır. Burada həm də pomidorun yetişkənliyi, düzgün əzilməsi də mühüm rol oynayır”.

**Bu tomatların tərkibindəki zərərli maddələrin insan səhhətinə təsirinə gəlincə isə tibb elmləri doktoru, professor Adil Qeybulla bu maddələrin xərçəng xəstəliyinə səbəb olacağını dedi:** “Konsegen turşularına aid olan bütün maddələr xərçəng xəstəliyi yarada bilər. Amma bu tomat barədə yayılan xəbərlərin nə dərəcədə reallığı əks etdirdiyini deyə bilmərəm. Əgər belə bir şey varsa, bu müəyyən səviyyədə qaldırılmalıdır və məsul olan qurumlar, epidemioloji mərkəzləri məsələni araşdırmalı, lazımı, ölçü götürməlidirlər. Həmin maddələrin konsorogen olması haqqında birmənalı olaraq deyə bilərəm bu, xərçəngə səbəb olur. Ümumiyyətlə, bir çox qidalara qida əlavəsi qatılır ki, o uzun müddət qalsın. Bu qida əlavələri təhlükəsiz olmalıdır. Yəni qidaya dad, xüsusi rəng verən, onu xarab olmağa qoymayan maddələr qida əlavələridir. Onların keyfiyyət parametrlərinin yüksək olması çox mühüm şərtdir. Ona görə ki, bu maddələrin konsorogen və başqa neqativ təsirləri olmamalıdır”.

Qeyd edək ki, mağazadan tomat pastası alarkən onun qapağını açmadan keyfiyyətli və ya keyfiyyətsiz olduğunu müəyyən etmək olar. Əvvəla, tərkibində qatqılar olan tomat məhsulları keyfiyyətli mallarla müqayisədə xarici görkəmləri ilə seçilirlər. Məsələn, zərərli qatqılarla qablaşdırılmış tomatların rəngi bir qədər tünd, qatılığı isə az olur *(tərkibindəki quru maddələrin 25 faizdən aşağı olması səbəbindən)*. Üstəlik, tərkibi nişasta ilə dolu olan tomatların qabını açdıqdan sonra qapağın altında kifə oxşar maye diqqəti cəlb edir. Bu, əslində məhsulun tərkibində nişastanın, qatqı maddələrinin normadan çox olduğunu göstərir.

❑ **Günel MANAFLI**

❑ **Fotolar müəllifindir**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 161 (6482) 26 iyul 2016*




## Bazar gününə nifrət edən millət

**Dünya insanları üçün bazar günü istirahət, işdən azad olmaq deməkdir. Amma ingilislər bazar gününü sevmir. Onlar üçün istirahət cümə günü saat 6-dan sonra başlayır və bazar günü səhər saatlarında bitir. Çünki bazar günü başlayan kimi onlar yeni və gərgin iş gününə hazırlaşır.**

Həftəlik geyimlərini yuyub ütüləyən, ya da onları camaşırxanadan götürən ingilislər həftəlik iş, ailə qrafiklərini də həmin gün qurur. Həftəlik ərzaq bazarlığı, evin əyər-əskiklərinin həlli də məhz həmin günə təsadüf edir. Bu səbəbdən də bazar günü ingilislər üçün yarı iş günü sayılır. Çünki sadaladığımız bu işləri görmək elə iş günündəki qədər enerji tələb edir.



## 45 ildir xəstəxanada yaşayır

**Braziliyalı Paulo Henrique Machado adlı kişi bütün həyatını bir xəstəxana otağında keçirib. Paulo dünyaya gəldikdən iki gün sonra anası dünyasını dəyişib. Məhz bu səbəbdən də o, iflic keçirib. Paulo yataq xəstəsinə çevrildikdən sonra xəstəxanada qalmağa başlayıb. Heç kəs onu xəstəxanadan çıxarmayıb. Qohumları da Paulodan imtina edib. Kimsəsiz və davamlı baxıma ehtiyacı olan uşaq elə xəstəxanada böyüyüb. Hazırda onun 45 yaşı var. O, xəstəxanada qaldığı müddətdə oxuyub-yazmağı öyrənib və universitetə qəbul olub. Kompüter mühəndisliyi fakültəsini bitirib. 45 il ərzində cəmi 50 dəfə xəstəxanadan çıxan Paulo həkimlərin sevimlisinə çevrilib. Heç kəs onun xəstəxanadan çıxmasını istəmir. Xəstəxananın baş həkimi Poulonun həkimlərin sirdaşına çevrildiyini deyir.**

# Süni hamburger satışa çıxarıldı



**Yeni süni hamburgerlər dünyada satışdadır. Hollandiyanın Maastricht Universitetində hazırlanan hamburger ətinin ağırlığı 142 qramdır. Laboratoriyada hazırlanan ətin qiyməti 250 min sterlinqdir. Süni ətdən hazırlanmış ilk hamburgerlər Londonda adı açıqlanmayan bir restoranda müştərilərə təqdim edilir. İlk dəfə hamburgeri yeyən müştəriyə ətin süni olduğu deyilməyib və dadının necə olduğu yoxlanılıb. Əti laboratoriyada hazırlayan qrupun rəhbəri professor Mark Post gələcəkdə ətə olan ehtiyacı azaltmaq üçün belə bir addım atdığını deyib. İnəklərin kök hüceyrələrindən əldə edilən ətin qırmızı rəngdə olması üçün ona tərəvəzlərin suyu əlavə edilib.**

# Bu 10 hərəkət insanları çox utandırır

**Britaniyanın "GetBett" şirkəti insanı ən çox utandıran 10 hadisə və ya hərəkəti müəyyənləşdirmək üçün sorğu keçirib. Yetkinlik yaşına çatmış 2 min nəfər arasında keçirilmiş anonim sorğunun nəticələrinə görə, insanı ən çox utandıran 10 hərəkət və ya hadisənin siyahısı belədir:**

1. Kiminsə adını yaddan çıxarmaq
2. Hamının qarşısında yıxılmaq
3. Paltarın üzərinə yemək tökmək
4. Əl yellədiyin adamın səni tanımaması
5. Dişlərin arasında yemək qalıqlarının qalması
6. Gecikmək
7. İtmək
8. Paltarda tər izi
9. Şalvarın və ya şortun qabağının açıq qalması
10. Qarın köpünün artması.





## İnternetdə tanış olanların sevgisi daha uzun çəkir

**İnternetlə dünyanın hər yerində milyonlarla insan bir-biriləri ilə tanış olur. Onların tanışlıqları dostluğa, hətta sevgi münasibətlərinə də çevrilə bilir. İnternetdə tanış olub evlənən cütlüklər arasında araşdırma aparan bir şirkətin nümayəndələri maraqlı nəticələr əldə ediblər. 2005-2012-ci illər arasında evlənən 20 min cütlük (respondent) arasında internetdə tanış olub evlənənlərin sayı olduqca çoxdur. Araşdırma nəticələrinə görə, yaşları 30-50 arasında dəyişən hər üç cütlükdən biri internetdə tanış olaraq evlənib.**

Mütəxəssislərin fikrincə, cütlüklərin hansı şəraitdə tanış olmaları onların münasibətlərinə də təsir göstərir. İnternetdə tanış olan cütlüklərin münasibətləri normal həyatda tanış olanlarla müqayisədə daha uzun müddət davam edir. İnternetdə tanış olanlar daha xoşbəxt olduqlarını və nadir hallarda boşandıqlarını deyirlər.




**QOÇ** - Günün birinci yarısında diqqətli və tədbirli olmağınız vacibdir. Əks təqdirdə, əsəbləriniz tarıma çəkiləcək. Sonrakı müddətdə isə qəlbinizə yaxın olanlar sizi sevindirəcək.

**BUĞA** - Təzadlı və riskli gündür. Lakin narahat olmağa dəyməz. Çünki Göy qübbəsi maraqlı sövdələşmələrdə iştirakınızdan xəbər verir. Amma nəzərə alın ki, axşam saat 19:37-dən Ay bürcünüzdə olacaq.

**ƏKİZLƏR** - Əlamətdar gün hesab etmək olar. Təxminən saat 12-dən başlayaraq proseslər xeyrinizə cərəyan edəcək. İstər fəaliyyət zəminində, istərsə də maddi məsələlərdə hər şey xeyrinizə olacaq.

**XƏRÇƏNG** - Qarşınızda duran bu təqvimi istirahətə, qonaqlıqlara həsr edin. Çünki bu amil ovqatınızı yüksəldə bilər. Bacardığınız qədər fəaliyyətə az yer ayırın. Qida rasionunuza xüsusi fikir verin.

**ŞİR** - Həmkarlarınızla aranızda gərginlik baş qaldırsa da, şəxsi münasibətlərdə, xüsusən də ailə-sevgi əlaqələrində vəziyyət xeyrinizə olacaq. Deməli, seçim məsələsində diqqətli olmalısınız.

**QIZ** - Həddindən ziyadə anlaşılmaz gündür. Ulduzların nəzarətindən çıxdığınızdan hər cür xoşagəlməzlik mümkündür. Ona görə də səhhətdən tutmuş fəaliyyətə qədər bütün sahələrdə qorunmalısınız.

**TƏRƏZİ** - Riskli gündür. Buna görə də gözünüzü yumub irəli getməməli, ən xırda detalları belə yüz yol ölçüb-biçməlisiniz. Səhhətinizlə bağlı problemləriniz də mümkündür.

**ƏQRƏB** - Müəyyən qədər gərginliklə rastlaşma ehtimalınız var. Ələlxüsus da iş yoldaşlarınızla qalmaqallarınız qaçılmazdır. Bacardığınız qədər hövsələli olun. Nüfuzlu adamlarla görüşləri təxirə salmayın.

**OXATAN** - Çalışın ki, ixtiyarınızda olan bu təqvimi daha çox hisslər üzərində qurasınız. Ailə-sevgi münasibətlərində, eləcə də işgüzar sövdələşmələrdə uğurlu gedişlər edə bilərsiniz.

**OĞLAQ** - Yaxşı olar ki, pulla bağlı bütün planlarınızı təxirə salasınız. Çünki ulduzların düzümü maliyyə uğursuzluğundan xəbər verir. Riskdən və günvurmadan da qorunmağınız məsləhətdir.

**SUTÖKƏN** - Ötən günlərdə rastlaşdığınız gərginlik və xoşagəlməz situasiyalar aradan qalxacaq. Odur ki, özünüzü bədhal göstərməyin. Qoy ətrafdakılar sizi nikbin görsün. Qonaq getmək də uğurludur.

**BALIQLAR** - Ulduzlar uğurlu məqamlar yaşayacağınızdan xəbər verir. Stress gətirən söhbət və mövzulardan uzaq olun. Saat 14-17 arası uğurlu əməkdaşlığınız və varlanacağınız mümkündür.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bol su içənlərin beyni daha güclü işləyir



**İngiltərədə aparılan araşdırmalar nəticəsində məlum olub ki, su beynin fəaliyyətini gücləndirir. Mütəxəssislərin fikrincə, insanlar önəmli bir iş görməzdən əvvəl onların beyinləri daha sürətlə çalışar. Təcrübədə iştirak edən adamlara bir həftə ərzində məntiqlə bağlı suallar verilib. Nəticədə məlum olub ki, sualları cavablamadan əvvəl su içən adamlar cavabları daha tez tapırlar. Su içməyənlər isə sualların cavabları haqqında daha çox düşünürlər. Araşdırmanı aparan professor Karolina Edmands su içən adamların beyninin digərlərinə nisbətən 14 faiz daha sürətlə çalışdığını deyir.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 4.750

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.